RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN



№ 287 (9454) 30 DEKABR 2023-cü il ŞƏNBƏ

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR

# İqtisadi inkişafın əsas hədəfi - sosial rifah



## Təkcə son 5 ildə ölkə üzrə əməkhaqqı fondu 2,7, ünvanlı sosial yardımın aylıq məbləği 3 dəfə artıb

Dövlət başçısının sosial sahəyə olan diqqət və qayğısı onu deməyə əsas verir ki, ölkəmizin son 20 ildə qazandığı iqtisadi uğurların nəticəsi əhalinin güzəranının yaxşılaşmasında özünü göstərir. Yenə də faktlara nəzər salaq: son 20 ildə sosial müdafiə və sosial təminat xərclərində 20, minimum əməkhaqqında 38, minimum pensiyada 14, orta aylıq əməkhaqqında 12, orta aylıq pensiyada 18, yaşa görə orta aylıq pensiyada 19, pensiya üzrə ödənilən illik vəsaitdə 30 dəfədən çox artım olub. Hər ilin əvvəlində pensiyaların və fərdi hesablardakı pensiya kapitallarının indeksləşdirilərək artırılması da diqqətçəkən məqamlardandır. Hazırda yaşa görə orta aylıq pensiyanın məbləği (467 manat) pensiyaçılar üçün yaşayış minimumundan (199 manat) 2,3 dəfə çoxdur. Xalis minimum aylıq əməkhaqqının xalis orta aylıq əməkhaqqına nisbəti isə 2003-cü ildəki 11,7 faizdən 2018-ci ildə 26,5, bu ilin əvvəlində isə 41,1 faizə çatıb. 2018-2023-cü illərdə orta aylıq pensiya 208 manatdan 437, yaşa görə orta aylıq pensiya 234 manatdan 467 manata, orta aylıq əməkhaqqı 545 manatdan 921 manata çatıb. Median əməkhaqqında 2,2, əməkhaqqı fondunda 2,7, sosial müavinət və təqaüd ödənişlərində 5 dəfə artıma nail olunub. Ehtiyac meyarı 130 manatdan 246, yaşayış minimumu 173 manatdan 246 manata çatdırılıb.

Ölkəmizdə əlillərə, sağlamlıq imkanları məhdud və valideyn himayəsindən məhrum olan uşaqlara diqqət və dəstəyin artırılması sosial ədalətin təcəssümüdür. Məsələn, 12 reabilitasiya və sosial xidmət müəssisəsinin əsaslı təmir və yenidənqurmadan sonra istifadəyə verilməsini, Qəbələdə Uşaq Reabilitasiya Mərkəzinin açılmasını sosial ədalətin təzahürü kimi dəyərləndirmək olar. Bu ilin 11 ayında 78 min 900 nəfər əlilə reabilitasiya xidmətləri göstərilib, 9 min 700 şəxsə 80 min 800 reabilitasiya vasitəsi verilib. Qarşıdakı dövrdə reabilitasiya mərkəzləri şəbəkəsi Azərbaycanın bir çox ərazilərini əhatə edəcək. Quba, Ağcabədi, Kəlbəcər, Şamaxı rayonlarında belə mərkəzlərin açılması nəzərdə tutulub.

→ 13

Heydər Əliyev İli

## Ümummilli Lider Heydər Əliyev diaspor quruculuğunun banisidir



Heydər Əliyev xaricdəki soydaşlarımızın hər nəslinə xitab edib, diasporun, sözün həqiqi mənasında, "hərəkət trayektoriyası"nı cızıb. Ulu Öndərin siyasi uzaqgörənliyi nəticəsində diaspor hərəkatının inkişafı üçün xüsusi sistem yaradılıb. Bu sistem xaricdəki azərbaycanlıların sıx birləşməsinə, öz bilik, bacarıq və təcrübələrini ana vətən üçün sərf etməsinə şərait yaradıb, milli birliyə mane olan bütün amillərin heçə endirilməsinə təkan verib. Diasporla hər görüşündə müstəqillik amilini xüsusilə vurğulayan görkəmli dövlət xadiminin "Mən fəxr edirəm ki, azərbaycanlıyam!" ifadəsinin bütün dünyada yaşayan soydaşlarımıza ideoloji təsiri danılmaz və ölçüyəgəlməzdir.

→ 9

## Mədəniyyətlərin və sivilizasiyaların qovuşduğu məkan

Azərbaycan Prezidenti İlham Əliyev çıxışlarının birində həmişə bu sahəyə xüsusi diqqət olduğunu vurğulayaraq demişdir: "Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu qlobal miqyasda və əlbəttə, bizim ölkəmiz üçün mühüm beynəlxalq tədbirlərdən biridir. Son illər ərzində Azərbaycan çoxsaylı beynəlxalq təbirlərə evsahibliyi edib. Dünya Dini Liderlərinin Forumunu, ənənəvi Bakı Humanitar Forumunu, yeddi dəfə Bakı Qlobal Forumunu təşkil etmişik. Nizami Gəncəvi Beynəlxalq Mərkəzi tərəfindən təşkil edilən həmin forum da siyasi inkişaf və mədəniyyət dialoqu mövzularının müzakirəsi üçün çox vacib platformadır. Digər tədbirlər də təşkil edilir və bununla da biz dünya ictimaiyyətinin diqqətini bu mühüm məsələlərə yönəltməyə çalışırıq".

→ 15

## Prezident İlham Əliyev "Sahibkarlıq sahəsində aparılan yoxlamaların dayandırılması haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik etdi



→ 2

## Qərbi Azərbaycan İcması Azərbaycanda keçiriləcək prezident seçkiləri ilə bağlı bəyanat yayıb

Biz Qərbi Azərbaycandan - öz doğma vətənimizdən zorla qovulmuş, amansız soyqırımlarına, işgəncələrə məruz qalmış və Azərbaycan Respublikasına sığınmış, burada bütün təməl vətəndaş hüquqları ilə təmin edilmiş yüz minlərlə Qərbi azərbaycanlı olaraq inanırıq ki, Prezident İlham Əliyevin başlatmış olduğu bu qayıdış və davamlı sülh missiyası məhz Onun rəhbərliyi altında öz hədəfinə çata biləcək. Əminik ki, minlərlə məcburi köçkünü Qarabağa, Şərqi Zəngəzura qaytaran Müzəffər Ali Baş Komandan bizi sülh yolu ilə ana vətənimiz Qərbi Azərbaycana qovuşduracaq.

→ 4

## "İmarət" kompleksi ərazisində 213 qəbir müəyyən edilib

"İmarət" kompleksi ərazisində aparılan qazıntılar zamanı 213 qəbir müəyyən olunub. Bu qəbirlərin əksəriyyəti torpaq qəbirlərdir. Antropoloji tədqiqatlar nəticəsində məlum olub ki, ermənilər əsasən XX əsrin 30-70-ci illərinə aid olan qəbirlərin başdaşlarını, sinədaşlarını tikinti materialı kimi istifadə ediblər.

→ 14

## Bakı siyasi-diplomatik cəbhədə Fransanı küncə sıxışdırıb

Parisin Bakıda üzə çıxarılan növbəti rüsvayçı fəaliyyəti özündə yalnız diplomatik deyil, siyasi, hərbi təhlükələri ehtiva edir və bu, təkcə ölkəmiz üçün yox, bütövlükdə region üçün təhdiddir.

Dünyada siyasi dayaqlarını, müstəmləkələrini itirən Fransanın yeni planının Cənubi Qafqaza yerləşmək olduğu hər kəsə bəllidir. O da reallıqdır ki, Ermənistanın torpaqlarımızı işğalı dövründə Fransa həm erməni lobbisinə yalan vədlər verməklə onlardan xeyli pul qoparıb, həm də Qarabağ və Şərqi Zəngəzurda sərvətlərimizin qanunsuz istismarı ilə məşğul olub. Buna görə onilliklər boyu vasitəçilik statusundan da məhz danışıqların sonsuzadək sürməsi yönündə istifadə edib. 2020-ci ildə 44 günlük müharibədə zəfər qazanan Azərbaycanın bölgədə yeni reallıqlar yaratması Fransanın məkrli planlarını da alt-üst etdi.

→ 12

## AMB: "Gələn il iqtisadi artımın 3-3,5 faiz civarında olacağı gözlənilir"



→ 13

## Erməni diasporu Paşinyanı siyasi alverə təhrik edir

Son günlər Paşinyanı siyasi alverə təhrik edənlər isə diaspordakı erməni icmasının üzvləridir. Belə ki, Fransadakı erməni icması birmənalı şəkildə sülh müqaviləsinə qarşıdır. Marseldəki Abovyan kollecinin rəhbəri, yazıçı Karen Xurşudyan deyib ki, İrəvanla Bakı arasında real sülh müqaviləsinə nail olmağın yeganə yolu Hayastanın hərbi cəhətdən güclənməsidir: "Heç bir avropalı Hayastanın sərhədlərini tam müdafiə etməyə gəlməyəcək, heç bir avropalı Azərbaycanı Haaqa Məhkəməsinin qərarını yerinə yetirməyə məcbur etməyəcək. Əsl sülh müqaviləsi ancaq hərbi paritet şəraitində imzalana bilər".

Xurşudyan qeyd edib ki, Fransa Hayastanın hərbi baxımdan gücləndirilməsinin vacibliyini çox yaxşı anlayır. Hayastan öz xarici siyasət əlaqələrini şaxələndirməyi bacarmalıdır, özü üçün lazımi fayda əldə etməlidir. Bu yolda xarici oyunçularla ümumi maraqların yaradılması vacibdir. Əks halda, başqaları həmişə İrəvandan öz məqsədləri üçün istifadə edəcəklər.

→ 12

## "Sahibkarlıq sahəsində aparılan yoxlamaların dayandırılması haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 1-ci bəndini rəhbər tutaraq **qərara alır:**

**Maddə 1.** "Sahibkarlıq sahəsində aparılan yoxlamaların dayandırılması haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2015, № 10, maddə 1109; 2017, № 11, maddə 1973; 2018, № 11, maddə 2232, № 12 (I kitab), maddə 2520; 2019, № 2, maddə 202, № 6, maddə 1006; 2020, № 3, maddə 224; 2021, № 3, maddə 216, № 5, maddə 429; 2022, № 2, maddə 94, № 7, maddə 698; 2023, № 2, maddə 218) 1-ci maddəsində "2024-cü" sözləri "2025-ci" sözləri ilə əvəz edilsin.

**Maddə 2.** Bu Qanun 2024-cü il yanvarın 1-dən qüvvəyə minir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 26 dekabr 2023-cü il*

## "Azərbaycan Respublikasının Şəhərsalma və Tikinti Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 10-cu və 24-cü bəndlərini rəhbər tutaraq **qərara alır:**

"Azərbaycan Respublikasının Şəhərsalma və Tikinti Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2012, № 9, maddə 838; 2016, № 2 (II kitab), maddə 215; 2017, № 2, maddə 154; 2018, № 2, maddə 164; 2019, № 1, maddə 39; 2020, № 4, maddə 391; 2021, № 1, maddə 112; 2023, № 6, maddə 752) 2.2-ci maddəsində "11" rəqəmləri "14" rəqəmləri ilə əvəz edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 26 dekabr 2023-cü il*

## Bakı şəhərinin Yasamal rayonu ərazisində avtomobil yollarının əsaslı təmiri ilə bağlı tədbirlər haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Bakı şəhərinin Yasamal rayonu ərazisində avtomobil yollarının əsaslı təmiri məqsədilə Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 23 yanvar tarixli 3720 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının 2023-cü il dövlət büdcəsində dövlət əsaslı vəsait qoyuluşu (investisiya xərcləri) üçün nəzərdə tutulan vəsaitin bölgüsü"nün 1.31.25-ci yarımbəndində göstərilmiş məbləğin 350,0 (üç yüz əlli) min manatı Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinə ayrılsın.

2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 29 dekabr 2023-cü il*

## Şabran rayonunun Gəndob-Xaçmaz-Yalama-Rusiya Federasiyası ilə dövlət sərhədi (11 km) - Ağalıq-Daşlıyataq-Günəşli avtomobil yolunun əsaslı təmiri ilə bağlı tədbirlər haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Dörd min nəfər əhalinin yaşadığı 3 yaşayış məntəqəsini birləşdirən Gəndob-Xaçmaz-Yalama-Rusiya Federasiyası ilə dövlət sərhədi (11 km) - Ağalıq-Daşlıyataq-Günəşli avtomobil yolunun əsaslı təmiri məqsədilə Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 23 yanvar tarixli 3720 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının 2023-cü il dövlət büdcəsində dövlət əsaslı vəsait qoyuluşu (investisiya xərcləri) üçün nəzərdə tutulan vəsaitin bölgüsü"nün 1.31.25-ci yarımbəndində göstərilmiş məbləğin ilkin olaraq 1,0 (bir) milyon manatı Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinə ayrılsın.

2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.

3. Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən avtomobil yolunun əsaslı təmirinin başa çatdırılması üçün zəruri olan maliyyə vəsaitini Azərbaycan Respublikasının 2024-cü il dövlət büdcəsi layihəsində dövlət əsaslı vəsait qoyuluşu xərclərinin bölgüsündə nəzərdə tutsun.

4. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 29 dekabr 2023-cü il*

## Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında

### Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 17-ci bəndini rəhbər tutaraq **qərara alır:**

Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 2 (I kitab), maddə 202, № 3, maddələr 397, 403, 429, № 4, maddələr 631, 647, 654, № 5, maddələr 835, 846, № 6, maddələr 997, 1010, № 7, maddələr 1247, 1249, № 10, maddə 1608, № 11, maddələr 1769, 1774, 1781, 1783, 1786, 1788, № 12, maddələr 1984, 2000, 2009, 2024, 2049; 2017, № 1, maddə 21, № 2, maddələr 139, 147, 152, 162, № 3, maddələr 331, 344, № 5, maddələr 698, 701, 734, 749, 754, № 6, maddələr 1020, 1033, 1036, № 7, maddələr 1273, 1296, 1297, 1299, № 11, maddələr 1964, 1966, 1969, 1979, № 12 (I kitab), maddələr 2214, 2217, 2220, 2233, 2237, 2240, 2253, 2256, 2266; 2018, № 1, maddə 19, № 2, maddələr 160, 162, 163, № 3, maddələr 383, 401, 404, № 4, maddə 646, № 5, maddələr 857, 860, 862, 876, 883, № 6, maddələr 1153, 1188, № 7 (I kitab), maddələr 1435, 1437, 1438, № 10, maddə 1963, № 11, maddələr 2188, 2191, 2214, 2217, 2231, № 12 (I kitab), maddələr 2473, 2475, 2499, 2507, 2512, 2522; 2019, № 1, maddələr 4, 6, 15, 18, 23, 44, № 3, maddələr 374, 389, № 4, maddələr 579, 581, 587, 595, № 5, maddələr 791, 800, 803, 804, 813, № 6, maddələr 992, 998, 1007, № 7, maddə 1193, № 8, maddələr 1364, 1367, 1368, 1381, 1383, № 11, maddələr 1682, 1686, 1696, № 12, maddələr 1883, 1900; 2020, № 3, maddə 222, № 5, maddələr 505, 515, 519, № 6, maddələr 670, 672, 681, № 7, maddələr 838, 841, 846, 854, № 8, maddələr 1008, 1011, № 9, maddə 1138, № 11, maddələr 1332, 1333, 1336, № 12 (I kitab), maddələr 1432, 1440; 2021, № 4, maddə 306, № 5, maddə 428, № 6 (I kitab), maddələr 535, 541, 546, 560, № 7, maddələr 701, 705, 711, № 8, maddə 894, № 11, maddə 1208, № 12, maddələr 1306, 1334; 2022, № 1, maddə 2, № 2, maddə 89, № 4, maddə 293, № 5, maddə 435, № 7, maddələr 694, 699, 703, № 8, maddələr 822, 825, 828, № 11, maddə 1236, № 12, maddələr 1364, 1399; 2023, № 1, maddələr 17, 20, 32, 39, № 2, maddələr 149, 201, 204, № 4, maddə 466, № 6, maddələr 743, 754, № 7, maddələr 905, 907, № 8 (I kitab), maddələr 1096, 1122, 1128; Azərbaycan Respublikasının 2023-cü il 24 oktyabr tarixli 1008-VIQD nömrəli Qanunu) 81-1.1-ci, 127-3-cü maddələrinə və 127-4.1-ci maddəsinin birinci cümləsinə "469.2-ci," sözlərindən sonra "477-1.1.2-ci, 477-1.1.4-cü," sözləri əlavə edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 22 dekabr 2023-cü il*

## "İşsizlikdən sığorta haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 16-cı bəndini rəhbər tutaraq **qərara alır:**

"İşsizlikdən sığorta haqqında" Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, № 8, maddə 1514; 2018, № 12 (I kitab), maddə 2503; 2019, № 3, maddə 381, № 8, maddə 1382; 2020, № 5, maddə 521, № 9, maddə 1137, № 11, maddə 1322; 2021, № 3, maddə 212; 2022, № 1, maddə 9, № 12, maddə 1377; 2023, № 4, maddə 465) aşağıdakı dəyişikliklər edilsin:

1. 13-cü maddə üzrə:

1.1. 13.1.3-cü maddənin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilsin və aşağıdakı məzmunda 13.1.4 - 13.1.6-cı maddələr əlavə edilsin:

"13.1.4. müəssisənin mülkiyyətçisi dəyişdikdə, Azərbaycan Respublikası Əmək Məcəlləsinin 68-ci maddəsinin 2-ci hissəsinin ç) bəndinə əsasən;

13.1.5. əvvəllər müvafiq işdə (vəzifədə) çalışan işçinin işinə (vəzifəsinə) bərpa edilməsi barədə məhkəmənin qanuni qüvvəyə minmiş qətnaməsi (qərarı) olduqda, Azərbaycan Respublikası Əmək Məcəlləsinin 74-cü maddəsinin 1-ci hissəsinin b) bəndinə əsasən;

13.1.6. əvvəllər həmin müəssisədə çalışan işçi müddətli həqiqi hərbi xidmətdən ehtiyata buraxıldıqdan sonra öz iş yerinə (vəzifəsinə) qayıtmaq hüququndan istifadə etdikdə, Azərbaycan Respublikası Əmək Məcəlləsinin 74-cü maddəsinin 1-ci hissəsinin ə) bəndinə əsasən.";

1.2. 13.2.1-ci və 13.2.2-ci maddələrdə "və 13.1.2-ci" sözləri ", 13.1.2-ci və 13.1.4 - 13.1.6-cı" sözləri ilə əvəz edilsin;

1.3. 13.2.3-cü və 13.8-ci maddələrdə "30" rəqəmləri "24" rəqəmləri ilə əvəz edilsin;

1.4. 13.4-cü maddədə "13.2.1-ci və 13.2.2-ci" sözləri "13.2.1 - 13.2.3-cü" sözləri ilə əvəz edilsin.

2. 15.1-ci maddədən ", lakin 20 faizdən çox olmamaq şərtilə" sözləri cıxarılsın.

3. 18.0.2-ci və 18.0.4-cü maddələrə "səbəblər" sözündən sonra "(hərbi və ya fövqəladə vəziyyət rejiminin, sosial xarakterli fövqəladə mühit rejiminin, o cümlədən epidemiya əleyhinə rejimin, sanitariya-gigiyena və karantin rejimlərinin tətbiqi, habelə özünün xəstəliyi, yaxın qohumunun (babalar, nənələr, valideynlər, övladlığa götürənlər, doğma və ögey qardaşlar və bacılar, ər-arvad, uşaqlar, övladlığa götürülənlər, nəvələr) xəstəliyi və ya vəfat etməsi və s.)" sözləri əlavə edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 26 dekabr 2023-cü il*

# *"The Guardian":* Azərbaycan və Ermənistan sülh sazişi imzalamağa yaxındır

**Nüfuzlu "The Guardian" nəşrində Azərbaycanla bağlı məqalə dərc olunub.**


Support us →
The Guardian
News website of the year
News Opinion Sport Culture Lifestyle
Azerbaijan
Azerbaijan close to peace agreement with Armenia, officials say
Azerbaijani president Ilham Aliyev has met Armenian PM Nikol Pashinyan for bilateral talks in St Petersburg
Patrick Wintour Diplomatic editor
Wed 27 Dec 2023 20.36 CET
Azerbaijani officials have said the country could be closing in on a peace agreement with Armenia to end their decades-long conflict following its lightning offensive in September to take control of its Nagorno-Karabakh region.

AZƏRTAC xəbər verir ki, məqalənin müəllifi Patrik Vinturun, ilk növbədə, Azərbaycan Prezidenti İlham Əliyevin və Ermənistanın baş naziri Nikol Paşinyanın bu günlərdə Sankt-Peterburqda görüşdüklərini xatırladıb. Qeyd edilib ki, Azərbaycanın rəsmi şəxsləri ölkənin çoxillik münaqişəyə son qoymaq üçün Ermənistanla sülh sazişinin imzalanmasına yaxın olduğunu bəyan ediblər. O, Azərbaycanın antiterror tədbirləri nəticəsində Qarabağ bölgəsi üzərində nəzarəti tam bərpa etdiyini bildirib.

Vurğulanıb ki, iki ölkə münasibətləri normallaşdırmaq və sərhədləri qarşılıqlı tanımaqla sülh sazişinin imzalanması barədə danışıqları sürətləndirib.

Oxucuların diqqətinə çatdırılıb ki, bu yaxınlarda hər iki tərəf xoş məram nümayiş etdirərək saxlanılan şəxsləri dəyişdirib. Eyni zamanda tərəflər vasitəçi olmadan birgə bəyanatla çıxış ediblər.

Məqalədə bildirilib ki, dekabrın 26-da Azərbaycan Prezidenti İlham Əliyev Sankt-Peterburqda Paşinyanla görüşüb.

Tərəflər artıq sülh sazişi üzrə potensial və nisbətən qısahəcmli bir neçə layihəni mübadilə ediblər. Azərbaycan Prezidentinin xüsusi tapşırıqlar üzrə nümayəndəsi Elçin Əmirbəyov deyib ki, ölkə hazırda sonuncu sülh sazişi layihəsində göstərdiyi təkliflərə Ermənistanın cavabını gözləyir.

"Anlamaq vacibdir ki, danışıqların belə bir həlledici mərhələsində biz göründüyü kimi, yekun sazişin imzalanmasından elə də uzaq deyilik, bu halda bizə nəticəyə gətirib çıxaracaq səylər gərəkdir. Mən bilirəm ki, üç onillik ərzində davam edən və heç bir ciddi nəticələr verməyən danışıqlardan sonra tərəflərin hər birində müəyyən yorğunluq, üstəlik, hər hansı həqiqi nəticələr olmadan tərəflərin bir-biri ilə görüşlərinin hələ nə qədər davam edəcəyi ilə bağlı yaranmış məyusluq var", - deyə o qeyd edib.

Müəllif qeyd edir ki, E.Əmirbəyovun sözlərinə görə, sülh sazişi layihəsinin beş prinsipi aşağıdakı maddələri ehtiva edir: bir-birinin ərazi bütövlüyünə, suverenliyinə və beynəlxalq səviyyədə tanınmış sərhədlərinin toxunulmazlığına qarşılıqlı hörmət, indi və gələcəkdə bir-birilərinə qarşı hər hansı ərazi iddialarını və ziddiyyət təşkil edən hər hansı aktları, gücdən istifadə və ya güc tətbiq etmək hədəsi kimi BMT nizamnaməsinə zidd olan hər hansı hərəkətləri rədd etmək, eyni zamanda Ermənistan ilə Azərbaycan arasında sərhədlərin delimitasiyası, iki ölkə arasında kommunikasiyaların və əlaqələrin qurulması.

Sərhədlərin demarkasiyası məsələsi çətin olduğundan daha sonrakı mərhələdə də həll edilə bilər.

Azərbaycan, həmçinin bu sazişin müəyyən mənada mübahisələrin həlli mexanizmini də nəzərdə tutmasını istəyir. "Biz, həmçinin yarana biləcək bütün mümkün anlaşılmazlıqları və fərqlilikləri yoluna qoya biləcək ikitərəfli komissiyanın yaradılmasını ehtiva edən maddənin sülh sazişində öz əksini tapacağı müqaviləyə nail olmağa üstünlük veririk", - deyə nəşr E.Əmirbəyovun sözlərindən sitat gətirir.

Müəllif, eyni zamanda Naxçıvan məsələsinə də toxunur, 2020-ci ilin noyabrında imzalanmış bəyanatda Paşinyanın Ermənistan ərazisindən keçməklə Azərbaycanın əsas hissəsini Naxçıvanla birləşdirən nəqliyyat kommunikasiyalarının açılmasına razılıq verdiyini bildirib.

"Biz bundan artıq vaxt itirə bilmərik. Üç il ərzində Ermənistan hətta 42 kilometrlik yolun texniki-iqtisadi əsaslandırılmasına başlamayıb. Əlbəttə, biz Ermənistanı üzərinə öhdəlik kimi götürdüyü işi görməyə vadar edə bilmərik, üstəlik, bu layihəni zorla da olsa həyata keçirmək üçün həmin ölkənin ərazisinə müdaxilə edəcəyimizi güman etmək də çox mənasızdır. Buna görə də, biz İrandan keçməklə avtomobil və dəmir yolu xəttinin inşası üçün Tehrana müraciət etdik", - deyə xüsusi tapşırıqlar üzrə nümayəndə qeyd edib.

# DİN əməkdaşlarına və şəhid polislərin ailə üzvlərinə ali dövlət mükafatları təqdim olunub



***Dekabrın 29-da Daxili İşlər Nazirliyində Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin olunmasında şəhidlik zirvəsinə ucalmış əməkdaşların ailə üzvlərinə, həmçinin qarşıya qoyulan tapşırıqların icrasında fərqləndiklərinə görə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin müvafiq sərəncamları ilə təltif edilmiş bir qrup əməkdaşa dövlət mükafatlarının təqdim olunmasına həsr edilmiş tədbir keçirilib.***





Daxili işlər naziri general-polkovnik Vilayət Eyvazov Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin vahid komandanlığı altında dəmir yumruq kimi birləşən Silahlı Qüvvələrimizin, o cümlədən Daxili İşlər Nazirliyinin hərbi qulluqçularının Vətən müharibəsində şərəfli döyüş yolu keçdiyini vurğulayıb. Hərbi qulluqçularımızın Murovdağdan Şuşaya qədər gedən döyüşlərdə iştirak etdiyini qeyd edən nazir torpaqların azad olunması zamanı şəxsi heyətdən 66 nəfərin şəhidlik zirvəsinə ucaldığını, 346 nəfərin yaralandığını qeyd edərək, 4 hərbi qulluqçunun "Vətən Müharibəsi Qəhrəmanı" adına layiq görüldüyünü, minlərlə hərbi qulluqçumuzun isə orden və medallarla təltif olunduğunu diqqətə çatdırıb.

General-polkovnik V.Eyvazov Vətən müharibəsində olduğu kimi bu ilin sentyabr ayında lokal xarakterli antiterror tədbirləri zamanı Daxili İşlər Nazirliyinin 20 əməkdaşının şəhid olduğunu, qarşıya qoyulan tapşırıqların yerinə yetirilməsi zamanı hərbi qulluqçuların, eləcə də polis əməkdaşlarının yüksək peşəkarlıq göstərdiklərini, şəxsi heyətin bundan sonra da Ali Baş Komandanın hər bir əmrini yerinə yetirməyə hazır olduğunu bildirib.

Sonra nazir V.Eyvazov antiterror tədbirləri zamanı şəhidlik zirvəsinə ucalmış polis əməkdaşlarının və hərbi qulluqçuların ailə üzvlərinə, döyüş tapşırıqlarının icrası zamanı fədakarlıq göstərən, eləcə də xidməti vəzifələrinin öhdəsindən layiqincə gələn əməkdaşlara ali mükafatları təqdim edib.

Nazir hər bir təltifin, eyni zamanda məsuliyyət doğurduğunu xatırladıb, öz andına həmişə sadiq olan daxili işlər orqanları əməkdaşlarının bundan sonra da Vətənə və xalqa şərəflə xidmət edəcəyinə, bu yolda qüvvə və bacarığını əsirgəməyəcəyinə əminliyini bildirib.

***Ülkər XASPOLADOVA,***
***"Azərbaycan"***

# Azərbaycan Ordusunda ilin yekunu ilə əlaqədar iclaslar keçirilib

**Azərbaycan Ordusunun Baş Qərargahı, Müdafiə Nazirliyinin baş idarə, idarə, xidmət və müstəqil şöbələri, eləcə də bütün qoşun növləri və xüsusi təyinatlı təhsil müəssisələrində 2023-cü ilin yekunları ilə əlaqədar iclaslar keçirilib.**



Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a verilən məlumata görə, iclaslarda Azərbaycan Ordusunun cari ildəki fəaliyyəti geniş təhlil edilib. Prezident, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin ordu qarşısında qoyduğu tapşırıqlar bir daha şəxsi heyətə çatdırılıb.

Hərbi qulluqçuların döyüş hazırlığının və mənəvi-psixoloji vəziyyətinin yüksək səviyyədə olduğu bildirilib. Şəxsi heyətin vətənpərvərlik ruhunda tərbiyə olunması, hərtərəfli təminatı, o cümlədən qoşunların peşəkar kadrlarla komplektləşdirilməsi sahəsində görülən işlərdən danışılıb.

Azərbaycan Ordusunda aparılan uğurlu islahatlar nəticəsində qazanılan nailiyyətlər qeyd edilib və şəxsi heyətin bundan sonra da Ali Baş Komandanın istənilən tapşırığına hər an hazır olduğu xüsusi vurğulanıb.

İclaslarda növbəti ildə şəxsi heyətin xidməti-döyüş fəaliyyətinin yüksək səviyyədə təşkili, sosial-məişət şəraitinin yaxşılaşdırılması, hərbi qulluqçuların bilik və bacarıqlarının artırılması istiqamətində həyata keçiriləcək tədbirlər və perspektiv planlar müzakirə olunub.

Sonda cari ilin yekununa əsasən hərbi xidmətdə fərqlənən hərbi qulluqçular təltif ediliblər.

# Azərbaycan Respublikasının Prezidenti zati-aliləri cənab İlham Əliyevə

Hörmətli cənab Prezident!

Sizi doğum gününüz münasibətilə ürəkdən təbrik edir və ən xoş arzularımı çatdırıram. Sizin rəhbərliyinizlə Azərbaycan Respublikasının ötən illərdə əldə etdiyi nailiyyətlər dünya azərbaycanlıları üçün sevindirici və qürurvericidir.

Cənab Prezident, Siz xaricdəki Azərbaycan diasporuna hər zaman xüsusi diqqət göstərirsiniz. "Diaspor fəaliyyətində xidmətə görə" medalı ilə təltif edilənlər sırasında ABŞ-də diaspor fəalı olaraq mən də varam. Bu diqqət Azərbaycan həqiqətlərinin Birləşmiş Ştatlarda yayılması, ölkəmizin təbliği işində məni daha çox ruhlandırır.

Fürsətdən istifadə edərək Sizi Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il münasibətilə təbrik edirəm. Sizə uzun ömür, cansağlığı, fəaliyyətinizdə müvəffəqiyyətlər və qarşıdan gələn prezident seçkilərində qələbə arzulayıram.

*Dərin hörmətlə,*

***Bədir MƏMMƏDLİ,***
***ABŞ Azərbaycanlıları Şəbəkəsinin həmtəsisçisi və İdarə Heyətinin üzvü***

❖ ❖ ❖

Möhtərəm cənab Prezident!

Doğum gününüz münasibətilə Sizə səmimi təbriklərimi və ən xoş arzularımı çatdırıram. Sizə möhkəm cansağlığı, xoşbəxtlik və ali dövləti fəaliyyətinizdə davamlı uğurlar diləyirəm.

Sizin müdrik rəhbərliyiniz və komandanlığınızla 44 günlük Vətən müharibəsində qazanılan Zəfərlə torpaqlarımız işğaldan azad olundu, bu ilin sentyabrında cəmi bir sutka ərzində keçirilən lokal xarakterli antiterror tədbirləri nəticəsində isə Azərbaycanın ərazi bütövlüyü və suverenliyi tam bərpa edildi. Bu möhtəşəm nailiyyət Ulu Öndər Heydər Əliyevin 100 illik yubileyinə ən böyük töhfə oldu.

Sizin Xankəndidə, Xocalıda və digər ərazilərdə Dövlət Bayrağımızı ucaltmağınızı biz - xaricdə yaşayan azərbaycanlılar böyük qürurla izlədik. Sizin uzun illər davam edən və neçə-neçə nəslə acı talelər yaşadan böyük bir münaqişəni kökündən həll etməyiniz Azərbaycan tarixinə qızıl hərflərlə yazıldı.

Möhtərəm cənab Prezident, 2024-cü ildə Azərbaycan Respublikasında keçiriləcək prezident seçkilərində Sizə uğurlar arzu edir və inamlı qələbənizə inanırıq. Biz - Avropada yaşayan azərbaycanlılar Vətən üçün qəti sözünü deməyə heç vaxt çəkinməyən rəhbərimizlə fəxr edirik.

*Dərin hörmətlə,*

***Sahil QASIMOV,***
***Avropa Azərbaycanlıları Konqresinin fəxri prezidenti***

❖ ❖ ❖

Zati-aliləri, hörmətli cənab Prezident!

Böyük Britaniyadakı Azərbaycan icması və "Qarabağ" məktəbinin kollektivi adından və şəxsən öz adımdan Sizə doğum gününüz münasibətilə ən səmimi təbriklərimizi çatdırıram. Sizə möhkəm cansağlığı, tükənməz enerji və sevimli ölkəmizə xidmətdə davamlı müvəffəqiyyətlər arzulayırıq.

Siz Azərbaycan xalqının vətənpərvər və fədakar oğlu, müdrik liderimiz, zəmanəmizin görkəmli siyasi xadimisiniz. Sizin rəhbərliyinizlə rəşadətli Ordumuzun Vətən müharibəsində qazandığı Qələbə nəticəsində torpaqlarımız işğaldan azad edildi, ölkəmizin ərazi bütövlüyü bərpa olundu, keçmiş məcburi köçkünlərin yurd həsrətinə son qoyuldu. Çox fərəhli haldır ki, ölkəmizin suverenliyinin tam bərpa edilməsi Ümummilli Liderimiz Heydər Əliyevin anadan olmasının 100-cü ildönümü ilinə təsadüf etdi. Bu, Sizin rəhbərliyinizlə əldə olunan möhtəşəm nailiyyətlərin sübutudur.

Cənab Prezident, Sizi, həmçinin Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il bayramı münasibətilə səmimi-qəlbdən təbrik edirik. Sizin dünya azərbaycanlılarına diqqət və qayğınız bizi tarixi Vətənimizin uğurları ilə fəxr etməyə ruhlandırır, fəaliyyətimizi daha da stimullaşdırır. Gələn il fevralın 7-də keçiriləcək növbədənkənar prezident seçkilərində Sizin namizədliyinizə yekdil dəstəyimizi ifadə edirik. Əminik ki, Azərbaycan Respublikası Sizin rəhbərliyinizlə qarşıdakı illərdə daha böyük uğurlar əldə edəcəkdir.

*Dərin hörmətlə,*

***Fəridə PƏNAHOVA,***
***Britaniya - Azərbaycan Cəmiyyətinin rəhbəri***

Hörmətli cənab Prezident!

Doğum gününüz münasibətilə Sizə səmimi təbriklərimizi, möhkəm cansağlığı, ailə səadəti, firavanlıq və əmin-amanlıq arzularımızı çatdırırıq.

Sizin ölkəmizə fədakar rəhbərliyiniz sayəsində böyük uğurlar əldə olunub.

Sizə minnətdarlığımızı bildirir, qarşıya qoyduğunuz məqsədlərə çatmaqda tükənməz enerji və müvəffəqiyyətlər arzulayırıq. Rəhbərliyinizin bundan sonra da xalqımızın tərəqqisinə töhfələr verəcəyinə əminik. Sizin müdrikliyiniz və qətiyyətiniz bundan sonra da hamımıza nümunə olacaqdır.

2024-cü ildə keçiriləcək növbədənkənar prezident seçkilərində dünya azərbaycanlıları olaraq Sizi dəstəkləməyə hazırıq.

Qarabağ Azərbaycandır!

Dərin hörmətlə və xoş arzularla,

***Almaniyada fəaliyyət göstərən "Xarı-Bülbül" Azərbaycan Mədəniyyət Evinin kollektivi***

❖ ❖ ❖

Hörmətli Prezident, Müzəffər Ali Baş Komandan!

Sizi doğum gününüz münasibətilə Almaniya Federativ Respublikasının Bremen əyalətindəki azərbaycanlı icma adından səmimi-qəlbdən təbrik edirik. Siz Azərbaycanın dinamik inkişafı, beynəlxalq miqyasda nüfuzunun yüksəlməsi istiqamətində çox böyük işlər görmüsünüz. Vətən və xalq qarşısında göstərdiyiniz xidmətlər alqışalayiqdir.

İnanırıq ki, Sizin uzaqgörən siyasətiniz, fədakar fəaliyyətiniz Azərbaycana gələcəkdə yeni-yeni zəfərlər qazandıracaq.

Sizə möhkəm cansağlığı, tükənməz enerji, işlərinizdə uğurlar arzulayırıq.

*Hörmətlə,*

***Almaniyadakı Bremen Azərbaycan Mədəniyyət Evinin İdarə Heyəti***

❖ ❖ ❖

Möhtərəm cənab Prezident!

Sizi Fransada yaşayan azərbaycanlılar, o cümlədən Lion şəhərində fəaliyyət göstərən Fransa-Azərbaycan Dialoqu Assosiasiyasının rəhbərliyi və bütün üzvləri adından doğum gününüz münasibətilə təbrik edirik. Siz adı tarixə qızıl hərflərlə yazılan sərkərdəsiniz. Otuz ilə yaxın müddətdə işğal altında qalmış Qarabağımızı Azərbaycan xalqına qaytardınız, müasir tariximizdə unudulmaz zəfərə imza atdınız. Bu il Qarabağın digər ərazilərinin də azad edilməsi və beləliklə, suverenliyimizin tam təmin edilməsi ili kimi daim xatırlanacaq. Buna görə Sizə minnətdarıq. Siz Azərbaycanın həll edilməsi çox çətin görünən böyük bir problemini birdəfəlik olaraq həll etdiniz və beynəlxalq arenada dövlətimizin mövqeyini daha da möhkəmləndirdiniz.

Cənab Prezident, Sizə möhkəm cansağlığı, uzun ömür, işlərinizdə müvəffəqiyyətlər arzu edirik. Siz Prezident kimi fəaliyyətinizin ilk günündən dövlətimizin gücünə güc qatdınız. Biz, dünyanın müxtəlif guşələrində yaşayan azərbaycanlılar həmişə Sizin siyasətinizi dəstəkləmişik və bundan sonra da dəstəkləyəcəyik. Biz birlikdə güclüyük!

*Dərin hörmətlə,*

***Günel SƏFƏROVA,***
***Fransa-Azərbaycan Dialoqu Assosiasiyasının rəhbəri,***

***Aytən MURADOVA,***
***Assosiasiya rəhbərinin müavini***

❖ ❖ ❖

Hörmətli cənab Prezident!

Sizi doğum gününüz münasibətilə səmimi-qəlbdən təbrik edirik. Sizin həyata keçirdiyiniz düşünülmüş və uzaqgörən siyasət, atdığınız müdrik addımlar sayəsində Azərbaycan tarixinin ən şanlı səhifəsi yazılmış, 30 illik işğala son qoyularaq əzəli torpaqlarımız azad olunmuşdur. Bu uğurlar Vətəndən uzaqda yaşayan azərbaycanlılar tərəfindən də böyük qürurla və rəğbətlə qarşılanmışdır.

Sizin rəhbərliyinizlə Azərbaycanın daha da inkişaf edəcəyinə, daim zirvələr fəth edəcəyinə, zəfərlər qazanacağına inanırıq.

Sizə möhkəm cansağlığı, fəaliyyətinizdə müvəffəqiyyətlər arzulayırıq.

*Hörmətlə,*

***Elxan MİRHƏŞİMLİ,***
***Niderland-Belçika Azərbaycanlıları Koordinasiya Şurasının əlaqələndiricisi***

❖ ❖ ❖

Hörmətli cənab Prezident.

Kanadanın Alberta əyalətinin Kalqari şəhərindəki Azərbaycan icması adından



Sizə doğum gününüz münasibətilə ən səmimi təbriklərimizi çatdırıram. Sizin rəhbərliyinizlə Azərbaycan davamlı şəkildə inkişaf edir, ölkənin beynəlxalq əlaqələri genişlənir. Azərbaycan dövləti və xalqı qarşısındakı xidmətləriniz həm ölkə daxilində, həm də xaricdə yüksək qiymətləndirilir. Bu uğurları böyük iftixar hissi ilə müşahidə edirik. Yorulmaz fəaliyyətinizə görə Sizə təşəkkürümüzü bildiririk.

Biz gələn ilin fevralında keçiriləcək, ölkəmizə daha parlaq gələcək vəd edən növbədənkənar prezident seçkilərində iştirak edərək Sizi dəstəkləyəcəyik. İnanırıq ki, Sizin uğurlu siyasətiniz sayəsində Azərbaycan daha da inkişaf edəcək, güclənəcək, həmişə böyük uğurlar qazanacaq.

Cənab Prezident, Sizə möhkəm cansağlığı, xoşbəxtlik, işlərinizdə nailiyyətlər arzulayırıq.

*Hörmətlə,*

***Ceyhun NƏCƏFLİ,***
***Kanadadakı Alberta Azərbaycan Mədəniyyət Cəmiyyətinin rəhbəri***

❖ ❖ ❖

Hörmətli cənab Prezident!

Sizi doğum gününüz münasibətilə ürəkdən təbrik edirəm. Sizin Azərbaycan Respublikasının Prezidenti kimi fəaliyyət göstərdiyiniz ötən 20 il ərzində ölkəmiz böyük nailiyyətlər əldə etmiş, beynəlxalq arenada mövqelərini möhkəmləndirmişdir. Siz gördüyünüz işlərlə xalqın sevgisini, etimadını və rəğbətini qazanmısınız. İnanırıq ki, Sizin rəhbərliyinizlə respublikamız yeni-yeni zirvələr fəth edəcəkdir.

Fürsətdən istifadə edərək, Kanadadakı diaspor fəalı kimi mənim də "Diaspor fəaliyyətində xidmətə görə" medalı ilə təltif olunmağıma görə təşəkkürümü bildirirəm. Göstərilən diqqət fəaliyyətimizə güclü stimul verir.

Əziz Prezident, Sizə ən xoş arzularımı bildirir, qarşıdan gələn prezident seçkilərində uğurlar diləyirəm.

*Hörmətlə,*

***Nigar ƏLİYEVA,***
***Kanadada fəaliyyət göstərən "Qarabağ" Azərbaycan həftəsonu məktəbinin həmtəsisçisi***

❖ ❖ ❖

Hörmətli cənab Prezident!

Kanadada yeni fəaliyyətə başlamış Recayna Azərbaycanlıları Mədəniyyət Assosiasiyası adından Sizə doğum gününüz münasibətilə səmimi təbriklərimizi, ən xoş arzularımızı çatdırırıq. Sizin rəhbərliyinizlə Azərbaycanda qazanılan nailiyyətlərlə fəxr edirik. Əminik ki, bu uğurlar hər bir vətənpərvər azərbaycanlını sevindirir. Sizin həyata keçirdiyiniz uğurlu siyasət sayəsində Azərbaycanın tərəqqi yolunda daha sürətlə irəliləyəcəyinə əminik.

Sizə möhkəm cansağlığı, fəaliyyətinizdə müvəffəqiyyətlər, yeni-yeni qələbələr arzu edirik.

*Hörmətlə,*

***Kanadada fəaliyyət göstərən Recayna Azərbaycanlıları Mədəniyyət Assosiasiyasının İdarə Heyəti***

❖ ❖ ❖

Möhtərəm cənab Prezident!

Doğum gününüz münasibətilə Sizə Azərbaycanlı İş Adamları Birliyi (AZEBİ) adından və şəxsən öz adımdan səmimi təbriklərimi çatdırmaqdan məmnunluq duyuram.

Biz Gürcüstanda yaşayan azərbaycanlılar Sizin qayğınızı və dəstəyinizi hər zaman hiss edir, bunu yüksək qiymətləndiririk.

Azərbaycan dövləti Sizin rəhbərliyinizlə böyük uğurlar qazanır, beynəlxalq arenada nüfuzunun artırılması yolu ilə irəliləyir. Azərbaycanlı İş Adamları Birliyi olaraq, Sizin həyata keçirdiyiniz məqsədyönlü siyasəti dəstəkləyir və bundan sonra da dəstəkləyəcəyik.

Hər zaman olduğu kimi, 2024-cü il fevralın 7-də keçiriləcək prezident seçkilərində də Sizin namizədliyinizi dəstəkləyəcəyik. Sizə uğurlar diləyirik.

Cənab Prezident, Sizə möhkəm cansağlığı və firavanlıq, Azərbaycan xalqının rifahı naminə ali dövləti fəaliyyətinizdə müvəffəqiyyətlər arzulayırıq.

Ən dərin ehtiramımızı qəbul etməyinizi xahiş edirəm.

*Hörmətlə,*

***Nəriman QURBANOV,***
***Gürcüstanın Azərbaycanlı İş Adamları Birliyinin (AZEBI) İdarə Heyətinin sədri***

❖ ❖ ❖

Hörmətli cənab Prezident!

Sizi doğum gününüz münasibətilə ürəkdən təbrik edirəm. Bu il bütün azərbaycanlılar üçün əlamətdar il oldu. Hamımız böyük iftixarla Azərbaycanın suverenliyinin tam bərpa edilməsinin sevincini yaşayırıq.

Möhtərəm Prezident, hər bir azərbaycanlı kimi mənim də ən böyük arzum ölkəmizin ərazi bütövlüyünün təmin edilməsi olub. Bu arzumu Müzəffər Ali Baş Komandan olaraq Siz reallaşdırdınız. Bu sevinci bizə yaşatdığınız üçün Sizə minnətdarıq. Sizinlə fəxr edirik. Sizə inanırıq. Əminik ki, Sizin uzaqgörən siyasətiniz sayəsində Azərbaycan daim inkişaf edəcək, daha böyük uğurlar qazanacaq.

Sizə möhkəm cansağlığı, ailə səadəti, ali dövləti fəaliyyətinizdə müvəffəqiyyətlər diləyirəm.

*Hörmətlə,*

***Mətləb NƏCƏFOV,***
***Ukraynanın İvano-Frankovsk vilayəti diasporunun sədri***

❖ ❖ ❖

Möhtərəm cənab Prezident!

Sizi doğum gününüz münasibətilə Birləşmiş Ukrayna Azərbaycanlıları Konqresinin Mirqorod şəhər və Mirqorod rayon təşkilatının üzvləri adından ürəkdən təbrik edirik. Biz Vətəndən uzaqda olsaq da hər zaman Sizinləyik. Həyata keçirdiyiniz siyasət Azərbaycana və bütün dünya azərbaycanlılarına hər zaman böyük uğurlar gətirmişdir. İnanırıq ki, Sizin rəhbərliyinizlə bu uğurlar davamlı olacaqdır.

Cənab Prezident, fürsətdən istifadə edərək Ukraynaya göstərdiyiniz humanitar yardımlara görə Sizə minnətdarlığımızı bildiririk.

Sizə cansağlığı, gələn ilin fevralında keçiriləcək prezident seçkilərində müvəffəqiyyətlər arzulayırıq.

Yaşasın Azərbaycan!

Eşq olsun Müzəffər Ali Baş Komandanımıza!

Qarabağ Azərbaycandır!

*Hörmətlə,*

***Zamir İSMAYILOV,***
***Birləşmiş Ukrayna Azərbaycanlıları Konqresinin Mirqorod şəhər və Mirqorod rayon təşkilatının sədri***

❖ ❖ ❖

Möhtərəm cənab Prezident!

Dünya azərbaycanlılarının Lideri, Müzəffər Ali Baş Komandan.

Moldova Azərbaycanlıları Konqresi və bu ölkədəki bütün Azərbaycan diasporu adından doğum gününüz münasibətilə Sizə ən səmimi təbriklərimizi çatdırıram. Sizə möhkəm cansağlığı, ailə səadəti, bütün təşəbbüslərinizdə uğurlar arzulayırıq.

Əsası Ümummilli Lider Heydər Əliyev tərəfindən qoyulmuş və bu gün Sizin tərəfinizdən parlaq şəkildə davam etdirilən inkişaf yolu ilə Azərbaycanın inamla irəliləməsini böyük fəxarətlə müşahidə edirik.

Siz ömrünüzün üçdəbirini Azərbaycana, onun xalqına fədakar xidmətə həsr etmisiniz. Prezident kimi son 20 il ərzində göstərdiyiniz xidmətlərin nəticəsidir ki, bu gün Azərbaycan inkişaf edərək Cənubi Qafqazın şəksiz liderinə çevrilib, dünya arenasında böyük nüfuz qazanıb. Bu, müstəsna vətənpərvərliyin, Vətənə bağlılığın sübutudur. Buna görə də Azərbaycan xalqı Sizə - ölkənin maraqlarını yorulmadan müdafiə edən, dövlətçiliyi qətiyyətlə qoruyan Liderinə dərin hörmət və rəğbət bəsləyir.

Cənab Prezident, gələn ilin fevralında keçiriləcək prezident seçkilərində Sizin parlaq qələbə qazanacağınıza tam əminik. Moldova Respublikasındakı Azərbaycan diasporu adından Sizə dəstəyimizi ifadə edirik.

*Hörmətlə,*

***Elçin BAYRAMOV,***
***Moldova Azərbaycanlıları Konqresinin sədri***

❖ ❖ ❖

Hörmətli cənab Prezident!

Estoniyada fəaliyyət göstərən Türk məktəbinin kollektivi adından Sizi doğum gününüz münasibətilə səmimi-qəlbdən təbrik edirəm. Sizə cansağlığı, xoşbəxtlik arzulayıram.

Sizin səmərəli fəaliyyətiniz nəticəsində əldə edilmiş uğurlar Azərbaycan xalqına həmişə sevinc bəxş edib. Bu sevinc dolu, xoşbəxt anların daimi olmasını arzu edirəm.

İnanıram ki, Azərbaycan getdikcə daha da inkişaf edəcək, firavanlaşacaqdır. Bu istiqamətdə fəaliyyətinizdə Sizə böyük nailiyyətlər diləyirəm.

*Hörmətlə,*

***Gülnarə VALS,***
***Estoniyada fəaliyyət göstərən Türk məktəbinin direktoru***

Hörmətli cənab Prezident!

Sizi "Sankt-Peterburqun və Leninqrad vilayətinin Azərbaycan Milli-Mədəni Muxtariyyəti" Şəhər İctimai Təşkilatı adından doğum gününüz münasibətilə səmimi-qəlbdən təbrik edirəm.

Sizin uğurlu siyasətiniz sayəsində bu gün Azərbaycan iqtisadi, enerji və digər sahələrdə inkişafa görə dünyanın aparıcı ölkələrindən birinə çevrilib. Müdrik qərarlarınızla ölkədə bütün sahələrdə vacib islahatlar həyata keçirilmişdir. Siz qətiyyətli dövlət xadimi, güclü Lider kimi Azərbaycanda milyonların sevgi və hörmətini qazanmısınız, eyni zamanda xaricdə böyük nüfuza maliksiniz. Azərbaycanın daha parlaq, xoşbəxt gələcəyi Sizin həyata keçirdiyiniz siyasətlə bağlıdır. Biz, Rusiyada yaşayan azərbaycanlılar tarixi Vətənimizdə gedən siyasi, iqtisadi, mədəni prosesləri diqqətlə izləyirik. Siz uzaqgörən siyasətiniz, uğurlu diplomatiyanız, qətiyyətiniz, böyük istedadınız sayəsində 44 günlük Vətən müharibəsində Qələbə qazanaraq torpaqlarımızı azad etməklə milyonlarla soydaşımızın arzusunu reallaşdırdınız. Ölkəmizin ərazi bütövlüyünün bərpa edilməsi inkişaf tariximizdə yeni mərhələ açdı və regionda geosiyasi vəziyyəti dəyişdi. Torpaqlarımız işğaldan azad ediləndən dərhal sonra orada Sizin rəhbərliyinizlə yenidənqurma, bərpa işlərinə başlanıldı. Sizin Birinci vitse-prezident xanım Mehriban Əliyeva ilə birlikdə həmin ərazilərə səfərlərinizi məmnuniyyətlə izləyirik. Sizin hər bir uğurunuz bizə böyük sevinc bəxş edir.

Cənab Prezident, Siz Ulu Öndər Heydər Əliyevin siyasi kursunu davam etdirərək xaricdə yaşayan azərbaycanlılara həmişə xüsusi diqqət və qayğı göstərmisiniz. Sizə minnətdarlığımızı bildiririk.

Sizə möhkəm cansağlığı, firavanlıq, Azərbaycan dövləti və xalqı naminə yeni ideyalarınızın və müdrik qərarlarınızın həyata keçməsində nailiyyətlər arzu edirik. Biz həmişə Sizi dəstəkləmişik və dəstəkləyəcəyik.

*Dərin hörmətlə,*

***Vaqif MƏMİŞOV,***
***"Sankt-Peterburqun və Leninqrad vilayətinin Azərbaycan Milli-Mədəni Muxtariyyəti" Şəhər İctimai Təşkilatının sədri***

❖ ❖ ❖

Hörmətli cənab Prezident!

Doğum gününüz münasibətilə Sizi səmimi-qəlbdən təbrik edirik.

Siz Azərbaycanın ərazi bütövlüyünün və suverenliyinin tam təmin edilməsinə nail olmuş, ölkənin daha da inkişafı, qüdrətlənməsi üçün böyük işlər görmüsünüz. Şuşada, Xankəndidə, Xocalıda və azad edilmiş digər torpaqlarımızda Azərbaycan Bayrağını ucaltmağınız hamımız üçün olduqca qürurvericidir. Fədakar xidmətlərinizə görə Sizə minnətdarlığımızı bildiririk.

Sizə möhkəm cansağlığı, fəaliyyətinizdə müvəffəqiyyətlər arzulayırıq.

*Hörmətlə,*

***Aqil ƏLIYEV,***
***Rusiyanın Çuvaş Respublikasındakı Çuvaş-Azərbaycan Dostluq və Əməkdaşlıq Cəmiyyətinin sədri,***

***Nicat SƏFƏRLI,***
***sədrin müavini***

❖ ❖ ❖

Hörmətli İlham Heydər oğlu!

Doğum gününüz münasibətilə Sizi "Birlik" Azərbaycan Milli-Mədəni Muxtariyyəti ictimai təşkilatının üzvləri adından və şəxsən öz adımdan səmimi-qəlbdən təbrik edirəm.

Azərbaycan Respublikası Sizin müdrik rəhbərliyinizlə uğurla inkişaf etməkdə və sosial-iqtisadi tərəqqi yolunda irəliləməkdə davam edir, təkcə regional miqyasda deyil, həm də beynəlxalq arenada inamlı və nüfuzlu mövqelər qazanır.

Sizin daimi diqqətiniz sayəsində Azərbaycan Respublikası ilə Rusiya Federasiyası, xüsusən Tatarıstan Respublikası arasında dostluğa, qarşılıqlı hörmətə və xalqlarımızın dəstəyinə əsaslanan əməkdaşlığın üfüqləri genişlənir.

Hörmətli cənab Prezident, Sizə möhkəm cansağlığı, xoşbəxtlik, əmin-amanlıq, siyasi arenada isə yeni-yeni uğurlar və daim tərəqqi arzulayıram.

*Hörmətlə,*

***Ramiz MƏMMƏDOV,***
***Rusiya Federasiyası Tatarıstan Respublikasının Leninoqorsk şəhərinin və Leninoqorsk rayonunun Azərbaycan Milli-Mədəni Muxtariyyəti ictimai təşkilatının sədri***

# Azərbaycan Respublikasının Prezidenti zati-aliləri cənab İlham Əliyevə

## "Uzaqgörən siyasətinizin Azərbaycanı daim parlaq qələbələrə doğru aparacağına inanırıq"

Hörmətli İlham Heydər oğlu!

Şimali Osetiya-Alaniya Respublikasında Azərbaycanlılar Konqresinin üzvləri adından Sizi doğum gününüz münasibətilə təbrik edirik. Sizə səmimi-qəlbdən möhkəm cansağlığı, əmin-amanlıq, tükənməz enerji, yeni-yeni nailiyyətlər, Vətənimiz Azərbaycanın rifahı naminə xeyirxah işlərinizdə uğurlar arzulayırıq.

Siz müdrik dövlət başçısı, daim qələbələrə doğru irəliləyən enerjili, məsuliyyətli, təcrübəli şəxsiyyət kimi böyük nüfuza maliksiniz. Siz Azərbaycan Respublikasını keyfiyyətcə yeni inkişaf mərhələsinə çıxarmısınız. Bütün zəruri dəyişiklikləri tam qətiyyətlə və iradə ilə yerinə yetirirsiniz. Çoxtərəfli fəaliyyətiniz sayəsində Vətənimiz Azərbaycan Respublikası qüdrətini artırıb, müstəqilliyini möhkəmləndirib. Konstruktiv siyasətiniz beynəlxalq aləmdə geniş şəkildə təqdir edilir.

Hörmətli İlham Heydər oğlu, biz Sizinlə fəxr edirik. Siz bütün dünya azərbaycanlılarının Prezidentisiniz.

*Hörmətlə,*

***Şahin MƏMMƏDOV,***
***Rusiyanın Şimali Osetiya-Alaniya Respublikasında Azərbaycanlılar Konqresinin fəxri prezidenti,***

***Murtuz GÜLMƏMMƏDOV,***
***Konqresin sədri***

❖ ❖ ❖

Hörmətli cənab Prezident!

İcazə verin, Primorsk vilayəti Azərbaycan Diasporu "Dostluq" İctimai Təşkilatının adından Sizi doğum gününüz münasibətilə səmimi-qəlbdən təbrik edim.

Siz bütün dünyada görkəmli siyasətçi və diplomat, müdrik və uzaqgörən dövlət xadimi, Vətənini sevən şəxsiyyət kimi tanınırsınız. Sizin ali dövləti vəzifədə müstəqil Azərbaycanın daha da inkişafı məqsədini daşıyan məhsuldar fəaliyyətiniz böyük rəğbətlə qarşılanır. Sizin rəhbərliyinizlə həyata keçirilən strateji kurs ölkənin regionda və beynəlxalq arenada nüfuzunun, rolunun durmadan artmasına yönəlib. Konfessiyalararası münasibətlərin möhkəmləndirilməsi işində böyük xidmətləriniz və səylərinizə görə Sizə minnətdarıq.

Cənab Prezident, Sizə möhkəm cansağlığı, güc-qüvvət, ailə səadəti, Azərbaycanın daha parlaq gələcəyi ilə bağlı planlarınızın və ideyalarınızın həyata keçməsini arzulayırıq.

*Hörmətlə,*

***Ramiz ZEYNALOV,***
***Rusiyanın Primorsk vilayəti Azərbaycan Diasporu "Dostluq" İctimai Təşkilatının sədri***

Hörmətli cənab Prezident!

Doğum gününüz münasibətilə səmimi təbriklərimi qəbul etməyinizi xahiş edirəm.

Bütün dünya Sizin rəhbərliyinizlə Azərbaycan Respublikasının siyasət, iqtisadiyyat, hərbi quruculuq, elm, təhsil, mədəniyyət və idman sahələrində əldə etdiyi misilsiz nailiyyətlərin şahididir. Əlbəttə, bu uğurların ən möhtəşəmi ölkəmizin tarixi Qələbəsidir. Sizin müdrik siyasətiniz, qətiyyətli, cəsarətli addımlarınız, Azərbaycan Ordusunun rəşadəti və qəhrəmanlığı sayəsində biz həmişəlik olaraq tarixi Qarabağ torpağımıza qayıtmışıq.

Əminəm ki, Azərbaycan Respublikası bundan sonra da əsası Ümummilli Lider Heydər Əliyev tərəfindən qoyulmuş və Sizin davam etdirdiyiniz yolla irəliləyərək daha uca zirvələr fəth edəcək.

Bu xoş fürsətdən istifadə edərək Sizi qarşıdan gələn Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il münasibətilə təbrik edirəm. Növbədənkənar prezident seçkilərində Sizin şəksiz qələbənizə, xalqımızın əvvəlki seçkilərdə olduğu kimi, bu dəfə də düzgün və müdrik seçim edəcəyinə inanıram.

Rusiya Federasiyası Krasnoyarsk vilayətinin Krasnoyarsk şəhərində yaşayan və çalışan bir azərbaycanlı kimi Vətənimizlə bağlı qürur hissi keçirirəm. Əminəm ki, 2024-cü ildə nəzərdə tutduğunuz bütün xeyirxah təşəbbüsləriniz həyata keçəcək, Azərbaycan Respublikası Sizin rəhbərliyinizlə yeni-yeni qələbələr əldə edəcəkdir.

*Dərin hörmətlə,*

***Ceyhun CƏFƏROV,***
***Rusiya Federasiyasında fəaliyyət göstərən Beynəlxalq Hüquqşünaslar İttifaqının Əlaqələndirmə Şurasının üzvü, Krasnoyarsk vilayəti üzrə rəhbəri***

Azərbaycandan xaricdə yaşayan soydaşlarımızdan, müxtəlif ölkələrdəki diasporumuzun nümayəndələrindən doğum günü münasibətilə Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevə təbrik məktubları gəlməkdə davam edir. Məktublarda soydaşlarımız doğum günü münasibətilə dövlətimizin başçısını təbrik edir, 2024-cü ilin fevralında keçiriləcək prezident seçkilərində onu dəstəkləyəcəklərini bildirirlər.

AZƏRTAC Prezidentin saytına istinadla həmin məktubların daha bir neçəsini təqdim edir.

İsveçdə fəaliyyət göstərən "Azərbaycan Naminə" Cəmiyyətinin sədri Nadir Hollenbrand dövlətimizin başçısını doğum günü münasibətilə ürəkdən təbrik edərək yazır: "Sizin müdrik rəhbərliyinizlə Azərbaycan böyük nailiyyətlər qazanıb. Biz Sizin uzaqgörən siyasətinizin respublikamızı daim parlaq qələbələrə doğru aparacağına inanırıq. Hər zaman Sizin yanınızdayıq. Qarşıdan gələn növbədənkənar prezident seçkilərində Sizi dəstəkləyəcəyik".

Napoli-Bakı Assosiasiyasının sədri Cuzeppe Kanilia məktubunda qeyd edir: "Biz ölkənizə və onun vətəndaşlarına yorulmaz xidmətinizə görə Sizə minnətdarlığımızı bildiririk və hər zaman Sizi dəstəkləyəcəyik. Sizə həm şəxsi həyatınızda, həm də ali dövləti fəaliyyətinizdə uğurlar və xoşbəxtlik dolu bir il diləyirik".

Almaniya-Azərbaycan Radioloji və Neyroradioloji Cəmiyyətinin sədri Nuran Abdullayev: "Sizə yaşadığım Almaniyada, eləcə də sıx əlaqədə olduğum digər Avropa ölkələrində hər zaman xalqının önündə qürurla dayanan və verdiyi hər bir sözü yerinə yetirən əvəzedilməz Lider kimi rəğbət bəslənilir. Bunu istər siyasi, istərsə də akademik arenada əcnəbi vətəndaşlardan eşitmək ürəyi daim Vətənlə döyünən bir azərbaycanlı kimi mənə böyük qürur hissi yaşadır.

Cənab Ali Baş Komandan, dövlətçilik ənənələrinə sadiq olan, dövlətçilik prinsiplərini əsas tutan gənclərə göstərdiyiniz xüsusi diqqət və qayğı məndə və digər gənc dostlarımızda hər zaman böyük ruh yüksəkliyi yaradıb. Siz gənclərə hər addımda insanın öz kökünə və tarixinə sadiqliyi, xüsusən də ata və onun vəsiyyətinin müqəddəsliyi dərsini nümayiş etdirirsiniz. O sadiqlik və ata vəsiyyəti ki, məhz onunla biz doğma Vətənimizi bu gün bütövləşən görmüşük.

Sizi əmin etmək istəyirəm ki, gələn il keçiriləcək və tariximizə Zəfər seçkiləri kimi düşəcək növbədənkənar prezident seçkilərində hər zaman dövlətçilik ənənələrinə sadiq olan biz gənclər Sizi - Müzəffər Sərkərdəmizi dəstəkləyəcəyik".

İsveç-Azərbaycan Mədəniyyət Assosiasiyasının sədri Sevda Dadaşova isə dövlətimizin başçısına təbrikini və dəstəyini bu sözlərlə ifadə edir: "Sizi doğum gününüz münasibətilə səmimi-qəlbdən təbrik edirik. Bu illər ərzində Azərbaycan dövlətinin inkişaf etməsi, güclənməsi istiqamətində gördüyünüz bütün işlərə görə Sizə minnətdarıq. Vətəndən uzaq olsaq da, hər zaman Sizinləyik.

Daim Sizin diqqət və qayğınızı üzərində hiss edən Azərbaycan diasporu bundan sonra da əzmkarlığını artıracaqdır. Azərbaycanın milli maraqları bizim üçün ən vacib məsələdir. Sizinlə və uğurlu siyasətinizlə qürur duyuruq. Dünya azərbaycanlıları ətrafınızda bir yumruq kimi birləşmiş Azərbaycan xalqı ilə birlikdə həmişə Sizin arxanızdadır".



Almaniyada yaşayan azərbaycanlılar adından doğum günü münasibətilə Prezident İlham Əliyevi ürəkdən təbrik edən Alman-Azərbaycan Dostluq Cəmiyyətinin sədri Lalə Məmmədli müraciətində bildirir: "Biz Sizi Azərbaycanın inkişafına, xalqın rifahına yönəlmiş ölçülüb-biçilmiş siyasət yürüdən müdrik dövlət başçısı və əsl vətənpərvər şəxsiyyət kimi tanıyırıq. Əminik ki, Sizin rəhbərliyinizlə Azərbaycan Respublikası bundan sonra da demokratik dövlət quruculuğu, sabit iqtisadi və sosial inkişaf yolu ilə inamla irəliləyəcək. Sizin yorulmaz səyləriniz, xalqın etimadı, vətəndaşların həyatını daha da firavanlaşdırmaq üçün gördüyünüz işlər ali dövləti fəaliyyətinizdə uğurlarınızı daha da artıracaqdır. 2024-cü il fevralın 7-də keçiriləcək prezident seçkilərində Sizə uğurlar arzulayırıq".

Azərbaycan-Niderland Odlar Yurdu Cəmiyyətinin sədri Firəngiz Bağırova: "…Sizə "İlhamla irəli" devizi ilə "Dəmir yumruq" kimi möhkəm cansağlığı arzulayırıq. Bizə həsrətində olduğumuz Qələbə, tarixdə tayı-bərabəri olmayan Zəfər sevinci yaşatdığınız üçün Sizə dərin minnətdarlığımızı bildiririk. Biz həmişə Sizinləyik".

Dövlətimizin başçısına Çex Respublikasının tanınmış ziyalılarını, elm xadimlərini, təhsil işçilərini, iş adamlarını, soydaşlarımızı özündə birləşdirən Çexiya-Azərbaycan Elm və Mədəniyyət Mərkəzi adından müraciət edən qurumun sədri Azər Kərimov yazır: "Biz Azərbaycan xalqının birliyi, həmrəyliyi, xoşbəxt gələcəyi naminə müəyyən etdiyiniz, həyata keçirdiyiniz səmərəli daxili və xarici siyasəti dəstəkləyirik.

Sizə cansağlığı, xoşbəxtlik, Azərbaycanın daha da inkişafı, xalqın rifahı naminə şərəfli fəaliyyətinizdə yeni-yeni uğurlar arzulayırıq".

İtaliyanın Milan şəhərində diaspor fəaliyyəti ilə məşğul olan Azərbaycan Mədəniyyət Assosiasiyasının sədri Mais Nuriyev assosiasiyanın üzvləri adından Prezident İlham Əliyevə ən səmimi təbriklərini və xoş arzularını çatdırır. O qeyd edir: "Sizin daxili və xarici siyasətinizin uğurlu nəticələrini böyük maraqla və iftixar hissi ilə izləyirik. Uzaqgörən siyasətiniz və müdrik liderliyiniz sayəsində Azərbaycanın regionda, eləcə də dünyada artan nüfuzunu görməkdən böyük məmnunluq duyuruq, hər bir addımınızı qürurla dəstəkləyirik. Ölkəmizin tarixində açdığınız şanlı səhifə üçün Sizə dərin minnətdarlığımızı bildiririk. Sizin dediyiniz "Bizim gücümüz birliyimizdədir!" ifadəsi hamımızın həyat devizidir. Siz bizim fəxrimizsiniz. Biz Vətən sevdalısı olaraq hər zaman Sizi dəstəkləyirik və dəstəkləyəcəyik".

Rusiyanın Ulyanovsk vilayəti qubernatorunun milli məsələlər üzrə müşaviri, "Ulyanovsk Regional Azərbaycan Milli-Mədəni Muxtariyyəti" İctimai Təşkilatının sədri İslam Hüseynov: "Azərbaycan Respublikası Sizin uzaqgörən və müdrik rəhbərliyinizlə inamla inkişaf edir. Yüksək peşəkarlıq, qətiyyət və məqsədyönlülük sayəsində ölkədə iqtisadi, sosial, mədəni tərəqqi, sabitlik təmin edilib. Azərbaycan Respublikası ilə Ulyanovsk vilayəti arasında dostluq münasibətlərinin və işgüzar tərəfdaşlığın inkişafına verdiyiniz dəstəyə görə Sizə xüsusi minnətdarlığımızı bildiririk. …Əminik ki, Sizin peşəkarlığınız və həyat təcrübəniz qarşıda duran vəzifələrin uğurla yerinə yetirilməsinə kömək edəcəkdir".

"Alicənablıq, insanpərvərlik, mərdlik kimi ali insani dəyərləri özündə birləşdirən şərəfli və məsuliyyətli fəaliyyətinizdə Sizə uğurlar arzulayıram. Sizin uzaqgörənliyiniz və humanizminiz, milli və bəşəri dəyərlərə söykənən müdrikliyiniz, yüksək təşkilatçılıq və idarəetmə bacarığınız dünya liderləri üçün örnəkdir". Bu fikirlər isə "QALA" Yunanıstan-Azərbaycan Dostluq Cəmiyyətinin sədri Rəşid Məmmədovun müraciətində yer alıb.

Gürcüstandakı "Azərbaycan Evi"nin direktoru Məhəbbət İmanov məktubunda təməli Ümummilli Lider Heydər Əliyev tərəfindən qoyulmuş müasir müstəqil Azərbaycanın böyük inkişaf yolunun, qüdrətlənməsinin, eyni zamanda dünyada etibarlı tərəfdaş kimi qəbul olunmasının Prezident İlham Əliyevin adı ilə bağlı olduğunu diqqətə çatdırır. O, həmçinin vurğulayır: "Gürcüstan ilə Azərbaycan arasındakı dostluq, mehriban qonşuluq və strateji tərəfdaşlıq münasibətləri biz Gürcüstan azərbaycanlılarını, eləcə də gürcü ictimaiyyətini çox sevindirir. Bu gün dünyada və Gürcüstanda yaşayan azərbaycanlılar Sizin yürütdüyünüz müdrik siyasət nəticəsində əldə edilən uğurların qürur və sevinc hissi ilə yaşayır və fəaliyyət göstərirlər. Otuz illik həsrətdən sonra Siz Müzəffər Lider olaraq Azərbaycanın əzəli torpaqlarını düşməndən azad etdiniz və ölkənin ərazi bütövlüyü, suverenliyi tam təmin olundu. Biz azərbaycanlılar harada yaşamağımızdan asılı olmayaraq, hər zaman Sizin siyasətinizi dəstəkləyirik. Gürcüstanda yaşayan yüz minlərlə azərbaycanlı gələn ilin fevralında keçiriləcək növbədənkənar prezident seçkilərində Sizi dəstəkləyir və qələbənizlə bağlı sevinci səbirsizliklə gözləyir".

Niderlandda fəaliyyət göstərən Beynəlxalq Azərbaycanlı Qadınlar Birliyinin rəhbəri Kəmalə Cəlilova: "Sizin rəhbərliyinizlə Azərbaycan Respublikası böyük inkişaf yolu keçmiş, ölkə həyatının bütün sahələrində mühüm nailiyyətlər əldə edilmişdir.

2024-cü il fevralın 7-də keçiriləcək prezident seçkilərində Sizə müvəffəqiyyətlər diləyirik. Biz, dünyanın müxtəlif ölkələrində yaşayan azərbaycanlı qadınlar Sizin siyasətinizi dəstəkləyirik".

## 7 FEVRAL AZƏRBAYCANDA NÖVBƏDƏNKƏNAR PREZİDENT SEÇKİLƏRİ GÜNÜDÜR

## Şimali Makedoniyadan Prezident İlham Əliyevə dəstək

**Şimali Makedoniya Türk Demokratik Partiyasının sədri Beycan İlyas Yeni Azərbaycan Partiyasının Mərkəzi Aparatına təbrik məktubu ünvanlayıb.**

Məktubda Prezident İlham Əliyevə, YAP-a və Azərbaycan xalqına Makedoniya türklərinin milli və dövlət bayramı olan 21 Dekabr - Türkcə Təhsil Günü münasibətilə göndərilən xoş təbrikə görə təşəkkür edilib: "Hər iki ölkə öz tarixinin ən mühüm anlarını və nailiyyətlərini yaşayır. Böyük Türk dünyasının ən hörmətli dövlət xadimlərindən biri olan möhtərəm Prezidentimiz İlham Əliyevin rəhbərliyi ilə bu gün Azərbaycan öz ərazi bütövlüyünü təmin etmiş, regionun ən qüdrətli dövlətləri sırasında öz yerini tutmuşdur.

Bu münasibətlə 2024-cü il fevralın 7-də keçiriləcək növbədənkənar prezident seçkilərində YAP-ın namizədi olan cənab Prezidentimiz İlham Əliyevi və partiyanızı təbrik edir, azərbaycanlı qardaşlarımızın tam dəstəyini alacağından zərrə qədər şübhə duymadığımız cənab Prezidentimizə tam dəstəyimizi bildiririk.

Fürsətdən istifadə edərək, Sizi qarşıdan gələn Yeni il bayramı münasibətilə təbrik edir, partiyalarımıza, ölkələrimizə, vətəndaşlarımıza və dünyaya xeyirli-uğurlu və sülhlə dolu bir il olacağını ümid edirəm".

Qeyd edək ki, Türk Demokratik Partiyası Şimali Makedoniyanın nüfuzlu siyasi təşkilatıdır və parlamentdə təmsil olunur.

***Əsmər QARDAŞXANOVA,***
***"Azərbaycan"***

## Qərbi Azərbaycan İcması Azərbaycanda keçiriləcək prezident seçkiləri ilə bağlı bəyanat yayıb

**Dekabrın 29-da Qərbi Azərbaycan İcmasının (QAİ) növbədənkənar ümumi yığıncağı keçirilib.**

AZƏRTAC xəbər verir ki, ümumi yığıncaq 2024-cü il fevralın 7-də Azərbaycan Respublikası Prezidenti seçkilərində İlham Əliyevin namizədliyinə dəstək mövzusuna həsr edilib.

Qərbi Azərbaycan İcmasının İdarə Heyətinin sədri, Milli Məclisin deputatı Əziz Ələkbərli fevralın 7-də keçiriləcək prezident seçkilərinin Azərbaycan Respublikasının tarixində mühüm hadisə olacağını qeyd edərək, ölkəmizin ərazi bütövlüyünü və suverenliyini bərpa etmiş və Qərbi Azərbaycana qayıdış məsələsini beynəlxalq gündəliyə gətirmiş Müzəffər Ali Baş Komandanın - Prezident İlham Əliyevin namizədliyinə dəstək ifadə edib.

Daha sonra Müşahidə Şurasının sədri professor Misir Mərdanov, Ağsaqqallar Şurasının sədri, deputat, akademik Əhliman Əmiraslanov, Nəzarət-Təftiş Komissiyasının sədri professor Vahid Novruzov, Ziyalılar Şurasının sədri professor Elxan Hüseynov, Qadınlar Şurasının sədri, deputat Məlahət İbrahimqızı, Gənclər Şurasının sədri, deputat Ramin Məmmədov, İdarə Heyəti sədrinin müavini, deputat Hikmət Babaoğlu, Ziyalılar Şurası sədrinin müavini akademik Nizami Cəfərov, o cümlədən Ağsaqqallar Şurasının üzvü, Amasiya rayon icmasının sədri akademik Abel Məhərrəmov, Ağsaqqallar Şurasının sədr müavini, Vedi rayon icmasının sədri professor Vaqif Şadlinski, Müşahidə Şurasının üzvü akademik Rasim Əliquliyev, İdarə Heyətinin üzvü professor Mahirə Hüseynova, Nəzarət-Təftiş Komissiyasının sədr müavini, deputat Şahin İsmayılov, İdarə Heyətinin üzvü professor Kamran Musayev çıxış ediblər. Natiqlər Ulu Öndər Heydər Əliyevin irsini şərəf və ləyaqətlə davam etdirən, bütün dünya azərbaycanlılarının ümid və dayaq yeri olan Prezident İlham Əliyevin namizədliyinə dəstək ifadə ediblər.

Çıxışlardan sonra ümumi yığıncaq bəyanat qəbul edib. Bəyanatda deyilir: "Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin ideya və arzularının gerçəkləşdiyi bugünkü Azərbaycan öz dövlətçilik tarixinin ən güclü dövrünü yaşamaqdadır. Ulu Öndərin irsini şərəf və ləyaqətlə davam etdirən, bütün dünya azərbaycanlılarının ümid və dayaq yeri olan Prezident İlham Əliyevin qətiyyətli və müdrik siyasəti yüz illərdən sonra bizə güclü dövlətin qalib vətəndaşı olmaq hissini yaşadıb. Prezident İlham Əliyevin böyük Zəfərlə nəticələnən və Azərbaycanı dünya dövlətləri arasında öz layiqli yerinə ucaldan ali missiyası uzun illərdən bəri titanik zəhmət və müdrikliklə qurulub. Amalı Azərbaycan dövlətinin güclənməsinə, xalqımızın firavanlığına xidmət etmək olan Prezident İlham Əliyev Vətən qarşısında xidmətləri ilə mükəmməl vətəndaş, siyasi irsə sadiq lider və islahatçı dövlət xadimi kimi tanınıb. Bu gün dünyaya günəş kimi parlayan Azərbaycan İlham Əliyevin ən kamil əsəridir.

Ulu Öndər Heydər Əliyev tərəfindən müəyyənləşdirilən hər bir siyasi xəttin dərinləşdirilməsi və zamanın tələblərinə uyğunlaşdırılaraq daha da inkişaf etdirilməsi yolunu tutan Prezident İlham Əliyev ölkəmizə rəhbərlik etdiyi son 20 ildə bütün siyasi xətləri yüksək diqqətində saxlayıb. Təkcə iqtisadi, sosial, mədəni, elmi, texniki, hərbi istiqamətlər deyil, böyük mənəvi əhəmiyyət kəsb edən məsələlər də daim ölkə Prezidentinin nəzərində olub. Çoxşaxəli siyasətin nəticəsində ölkəmiz iqtisadi baxımdan güclənib, sərmayələr qoyulan ölkədən investor ölkəyə çevrilib, sərvətlərimizdən əldə edilən gəlir xalqın rifahına, sağlamlığına, təhsilinə xərclənib, hərbi qüdrətimiz artıb, Azərbaycan dünyada etibarlı tərəfdaş imici qazanıb, dünyanın mədəni və multikultural mərkəzlərindən birinə çevrilib.

Prezidentin Müzəffər Ali Baş Komandan kimi 2020-ci ildə 44 günlük Vətən müharibəsində xalqımıza bəxş etdiyi şanlı Zəfər və 2023-cü il sentyabrın 19-20-də aparılmış uğurlu antiterror tədbirləri təkcə ərazi bütövlüyümüzün və suverenliyimizin bərpası ilə deyil, həm də Azərbaycan xalqının qürurunun, mübarizə əzminin özünə qaytarılması ilə əlamətdar olub. Bu tarixi nailiyyəti qazanmaqla Prezident İlham Əliyev Azərbaycan dövlətçilik tarixinə ən böyük töhfəsini verib, bununla da keçmiş, indiki və gələcək nəsillər qarşısında misilsiz xidmətə imza atıb. Vətən müharibəsi Zəfəri təkcə məcburi köçkünlərimizin vətənlərinə qayıtmasını təmin etməyib, həmçinin Qərbi Azərbaycan qaçqınlarında da doğma vətənlərinə sülh yolu ilə geri qayıtmaq inamı yaradıb.

2022-ci il dekabrın 24-də Qərbi Azərbaycandan olan bir qrup ziyalı ilə keçirdiyi görüş zamanı söylədiyi fikirlər, verdiyi tapşırıq və tövsiyələr Qərbi Azərbaycandan zorla çıxarılmış azərbaycanlıların öz doğma vətəninə qayıtması hüququnun təmin edilməsi yolunda Azərbaycan xalqının ümummilli mübarizəsində dönüş nöqtəsi olub. Prezident İlham Əliyevin insan hüquqları məsələsi və sülhsevər missiya hesab etdiyi Qərbi Azərbaycana qayıdışı xalqımızın əsas hədəflərindən biri kimi göstərməsi təkcə biz Qərbi azərbaycanlıları deyil, bütövlükdə Azərbaycan ictimaiyyətini bu amal uğrunda səfərbər edib.

Biz Qərbi Azərbaycandan - öz doğma vətənimizdən zorla qovulmuş, amansız soyqırımlarına, işgəncələrə məruz qalmış və Azərbaycan Respublikasına sığınmış, burada bütün təməl vətəndaş hüquqları ilə təmin edilmiş yüz minlərlə Qərbi azərbaycanlı olaraq inanırıq ki, Prezident İlham Əliyevin başlatmış olduğu bu qayıdış və davamlı sülh missiyası məhz Onun rəhbərliyi altında öz hədəfinə çata biləcək.

Əminik ki, minlərlə məcburi köçkünü Qarabağa, Şərqi Zəngəzura qaytaran Müzəffər Ali Baş Komandan bizi sülh yolu ilə ana vətənimiz Qərbi Azərbaycana qovuşduracaq.

Bu mənada Qərbi Azərbaycan İcmasında birləşən yüz minlərlə icma üzvü olaraq gələn il fevralın 7-də ölkəmizdə keçiriləcək prezident seçkilərində İlham Əliyevi dəstəklədiyimizi bəyan edirik".

# Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Respublikası Prezidentinin Təhlükəsizlik Xidməti haqqında Əsasnamə"nin təsdiq edilməsi barədə" 2021-ci il 19 fevral tarixli 1290 nömrəli, "Azərbaycan Respublikasının Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidməti haqqında Əsasnamənin, Xidmətin strukturunun, hərbi qulluqçularının və mülki işçilərinin say həddinin, ali zabit heyəti vəzifələrinin siyahısının təsdiq edilməsi barədə" 2021-ci il 22 dekabr tarixli 1509 nömrəli və "Azərbaycan Respublikasının Strateji Obyektlərin Mühafizəsi Dövlət Agentliyi haqqında Əsasnamənin, Agentliyin strukturunun, hərbi qulluqçularının və mülki işçilərinin say həddinin, ali zabit heyəti vəzifələrinin siyahısının təsdiq edilməsi barədə" 2021-ci il 22 dekabr tarixli 1510 nömrəli fərmanlarının icrası ilə əlaqədar Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarında və sərəncamlarında dəyişiklik edilməsi və bəzi fərmanlarının ləğvi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Respublikası Prezidentinin Təhlükəsizlik Xidməti haqqında Əsasnamə"nin təsdiq edilməsi barədə" 2021-ci il 19 fevral tarixli 1290 nömrəli, "Azərbaycan Respublikasının Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidməti haqqında Əsasnamənin, Xidmətin strukturunun, hərbi qulluqçularının və mülki işçilərinin say həddinin, ali zabit heyəti vəzifələrinin siyahısının təsdiq edilməsi barədə" 2021-ci il 22 dekabr tarixli 1509 nömrəli və "Azərbaycan Respublikasının Strateji Obyektlərin Mühafizəsi Dövlət Agentliyi haqqında Əsasnamənin, Agentliyin strukturunun, hərbi qulluqçularının və mülki işçilərinin say həddinin, ali zabit heyəti vəzifələrinin siyahısının təsdiq edilməsi barədə" 2021-ci il 22 dekabr tarixli 1510 nömrəli fərmanlarının icrası ilə əlaqədar **qərara alıram:**

1. "Hərbi xidmətkeçmə haqqında" Əsasnamənin təsdiq edilməsi barədə Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 1998-ci il 30 mart tarixli 692 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1998, № 3, maddə 176; 2002, № 8, maddə 478; 2004, № 1, maddə 19; 2005, № 4, maddə 299; 2007, № 11, maddə 1117; 2008, № 8, maddə 719; 2010, № 10, maddə 845; 2015, № 5, maddə 541; 2017, № 3, maddə 366, № 12 (I kitab), maddə 2277; 2018, № 12, maddə 2563; 2023, № 2, maddə 238, № 3, maddə 352) 2-ci hissəsinin altıncı, doqquzuncu və iyirminci abzaslarında "Respublikasının Xüsusi Dövlət Mühafizə Xidməti" sözləri "Respublikası Prezidentinin Təhlükəsizlik Xidməti, Azərbaycan Respublikasının Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidməti və Azərbaycan Respublikasının Strateji Obyektlərin Mühafizəsi Dövlət Agentliyi" sözləri ilə əvəz edilsin.

2. "Vətən uğrunda həlak olanların xatirəsinin əbədiləşdirilməsi haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 1999-cu il 14 may tarixli 134 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1999, № 5, maddə 304; 2004, № 1, maddə 19; 2017, № 12 (I kitab), maddə 2278) 2-ci hissəsinin üçüncü abzasında "və Xüsusi Dövlət Mühafizə Xidməti" sözləri ", Azərbaycan Respublikası Prezidentinin Təhlükəsizlik Xidməti, Azərbaycan Respublikasının Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidməti və Azərbaycan Respublikasının Strateji Obyektlərin Mühafizəsi Dövlət Agentliyi" sözləri ilə əvəz edilsin.

3. "Terrorçuluğa qarşı mübarizə haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 1999-cu il 30 avqust tarixli 185 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1999, № 8, maddə 495; 2004, № 1, maddə 19; 2005, № 4, maddə 299; 2019, № 2, maddə 230) 2-ci hissəsinin üçüncü abzasında "Ali Dövlət Hakimiyyəti və idarəetmə Orqanlarının Baş Mühafizə İdarəsi, öz səlahiyyətləri hüdudlarında" sözləri "Prezidentinin Təhlükəsizlik Xidməti, Azərbaycan Respublikasının Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidməti və Azərbaycan Respublikasının Strateji Obyektlərin Mühafizəsi Dövlət Agentliyi fəaliyyət istiqamətlərinə uyğun olaraq" sözləri ilə əvəz edilsin.

4. "Yoluxucu xəstəliklərin immunoprofilaktikası haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 17 iyun tarixli 353 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 6, maddə 432; 2002, № 8, maddə 478; 2003, № 10, maddə 585; 2004, № 1, maddə 19; 2005, № 4, maddə 299; 2008, № 8, maddə 719; 2019, № 2, maddə 230; 2021, № 6 (I kitab), maddə 568; 2023,№7, maddə 951) 2.4-cü bəndində "Xüsusi Dövlət Mühafizə Xidməti" sözləri "Azərbaycan Respublikası Prezidentinin Təhlükəsizlik Xidməti, Azərbaycan Respublikasının Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidməti və Azərbaycan Respublikasının Strateji Obyektlərin Mühafizəsi Dövlət Agentliyi" sözləri ilə əvəz edilsin.

5. "Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında" Azərbaycan Respublikası Qanununun və həmin Qanunla təsdiq edilmiş Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 25 avqust tarixli 387 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 8 (III kitab), maddə 610; 2001, № 10, maddə 646; 2002, № 5, maddələr 273, 279, № 7, maddə 413, № 8, maddə 478, № 9, maddə 563; 2003, № 8, maddə 434; 2004, № 1, maddə 19, № 5, maddə 345; 2005, № 1, maddə 18, № 4, maddə 299, № 9, maddə 799, № 12, maddə 1101; 2006, № 8, maddə 676, № 11, maddə 935; 2007, № 1, maddə 10, № 3, maddə 223, № 9, maddə 865, № 12, maddə 1247; 2008, № 1, maddələr 7, 10; 2009, № 7, maddələr 531, 534; 2010, № 7, maddə 615; 2011, № 11, maddə 999; 2013, № 5, maddə 509, № 6, maddə 649, № 8, maddə 900; 2014, № 4, maddə 348, № 6, maddə 625; 2015, № 12, maddələr 1450, 1461; 2016, № 4, maddələr 667, 669, № 10, maddə 1644; 2017, № 3, maddə 353, № 5, maddə 814, № 7, maddə 1321; 2018, № 3, maddə 444, № 4, maddə 680, № 6, maddə 1219, № 9, maddələr 1824, 1832, № 10, maddə 2004, № 11, maddə 2271; 2019, № 4, maddə 648, № 7, maddə 1241; 2020, № 7, maddə 883, № 11, maddələr 1345, 1356; 2021, № 6 (I kitab), maddə 565, № 12, maddə 1424; 2022, № 5, maddə 452, № 8, maddə 863, № 12, maddə 1406; 2023, № 1, maddə 98) 2-ci hissəsinin onuncu abzasında "Dövlət Mühafizə" sözləri "Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət" sözləri ilə əvəz edilsin.

6. "Qızıl Xaç və Qızıl Aypara emblemlərindən istifadə və onların müdafiəsi haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2001-ci il 11 iyun tarixli 500 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001, № 6, maddə 398; 2004, № 1, maddə 19; 2005, № 4, maddə 299; 2007, № 9, maddə 874; 2017, № 3, maddə 353) 2-ci hissəsinin ikinci və üçüncü abzaslarında "Ali Dövlət Hakimiyyəti və İdarəetmə Orqanlarının Baş Mühafizə İdarəsi" sözləri "Azərbaycan Respublikası Prezidentinin Təhlükəsizlik Xidməti" sözləri ilə əvəz edilsin.

7. "Xidməti və mülki silah haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 1998-ci il 21 fevral tarixli, 679 nömrəli Fərmanının icrasının təmin edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2002-ci il 24 avqust tarixli 769 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2002, № 8, maddə 489; 2004, № 8, maddə 616; 2005, № 1, maddələr 15, 19; 2006, № 9, maddə 743; 2008, № 7, maddələr 612, 619, № 8, maddə 719; 2009, № 4, maddə 226; 2014, № 10, maddə 1213; 2015, № 9, maddə 977; 2016, № 1, maddə 44; 2017, № 3, maddələr 358, 381; 2018, № 6, maddə 1220, № 10, maddə 1989; 2021, № 1, maddə 41) aşağıdakı dəyişikliklər edilsin:

7.1. 2-ci hissədə "xüsusi dövlət mühafizə xidməti" sözləri "Azərbaycan Respublikası Prezidentinin təhlükəsizlik xidməti, xüsusi rabitə və informasiya təhlükəsizliyi dövlət xidməti, strateji obyektlərin mühafizəsi dövlət agentliyi" sözləri ilə əvəz edilsin;

7.2. həmin Fərmanla təsdiq edilmiş "Xarici dövlətlərin hüquqi şəxslərinin, əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin Azərbaycan Respublikasının ərazisində xidməti və mülki silahı əldə etməsi, saxlaması və təyinatı üzrə istifadə etməsi Qaydaları"nın 4-1-ci hissəsinin birinci və ikinci cümlələrində "Respublikasının Xüsusi Dövlət Mühafizə" sözləri "Respublikası Prezidentinin Təhlükəsizlik" sözləri ilə əvəz edilsin;

7.3. həmin Fərmanla təsdiq edilmiş "Xidməti və mülki silahın Azərbaycan Respublikasına gətirilməsi və Azərbaycan Respublikasından aparılması Qaydaları"nın 3-cü hissəsinin ikinci və üçüncü cümlələrində "Respublikasının Xüsusi Dövlət Mühafizə" sözləri "Respublikası Prezidentinin Təhlükəsizlik" sözləri ilə əvəz edilsin.

8. "Feldyeger rabitəsi haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2003-cü il 4 avqust tarixli 903 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2003, № 8, maddə 432; 2007, № 6, maddə 601; 2008, № 9, maddə 797, № 11, maddələr 966, 969; 2014, № 4, maddə 364; 2018, № 7 (I kitab), maddə 1472; 2022, № 5, maddə 476) 2.3-cü bəndində "Dövlət Mühafizə" sözləri "Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət" sözləri ilə əvəz edilsin.

9. "Azərbaycan Respublikasının bəzi qanunvericilik aktlarında dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2004-cü il 26 may tarixli 66 nömrəliFərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004, № 5, maddə 339) 3-cü hissəsi ləğv edilsin.

10. "Kəşfiyyat və əks-kəşfiyyat fəaliyyəti haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2004-cü il 3 avqust tarixli 104 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004, № 8, maddə 612; 2005, № 8, maddə 701; 2006, № 3, maddə 231; 2008, № 11, maddə 966; 2017, № 8, maddə 1528; 2022, № 1, maddə 18) 2.5-ci və 2.6-cı bəndlərində "Respublikasının Xüsusi Dövlət Mühafizə" sözləri "Respublikası Prezidentinin Təhlükəsizlik Xidməti, Azərbaycan Respublikasının Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət" sözləri ilə əvəz edilsin.

11. Azərbaycan Respublikası Prezidentinin 2005-ci il 3 iyun tarixli 248 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005, № 6, maddə 485; 2006, № 11, maddə 948; 2008, № 11, maddə 969; 2009, № 4, maddə 226,№ 10, maddə 785; 2010, № 2, maddə 80; 2012, № 12, maddə 1242; 2013, № 5, maddə 494, № 12, maddə 1538; 2014, № 2, maddə 112, № 6, maddə 644, № 9, maddə 1027; 2016, № 2 (II kitab), maddə 251, № 8, maddə 1384; 2017, № 5, maddə 775, № 8, maddə 1521; 2018, № 9, maddə 1840; 2022, № 2, maddə 106,№ 5, maddə 471, № 8, maddə 845, № 12, maddə 1437) ilə təsdiq edilmiş "Dövlət sirrinə aid edilən məlumatların Siyahısı"ndaaşağıdakı dəyişikliklər edilsin:

11.1. I hissənin 2-ci bəndi üzrə:

11.1.1. doqquzuncu abzasda "dövlət mühafizəsi obyektləri" sözləri "mühafizə olunan şəxslər" sözləri ilə əvəz edilsin;

11.1.2. onuncu abzasda "mühafizə olunan" sözləri "qorunan və strateji" sözləri ilə, "dövlət mühafizəsi obyektlərinin" sözləri "mühafizə olunan şəxslərin" sözləri ilə, "Respublikasının Xüsusi Dövlət Mühafizə Xidmətinin" sözləri "Respublikası Prezidentinin Təhlükəsizlik Xidmətinin və Azərbaycan Respublikası Strateji Obyektlərin Mühafizəsi Dövlət Agentliyinin" sözləri ilə əvəz edilsin;

11.1.3. on dördüncü abzas aşağıdakı redaksiyada verilsin:

"PTX - Azərbaycan Respublikası Prezidentinin Təhlükəsizlik Xidməti;";

11.1.4. on yeddinci abzasın sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz olunsun və aşağıdakı məzmunda on səkkizinci və on doqquzuncu abzaslar əlavə edilsin:

"XRİTDX - Azərbaycan Respublikasının Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidməti;

SOMDA - Azərbaycan Respublikasının Strateji Obyektlərin Mühafizəsi Dövlət Agentliyi.";

11.2. II hissənin 1-5-ci bəndlərinin, III hissənin 10-cu bəndinin, IV hissənin

13-cü, 16-cı, 17-ci, 23-cü, 25-ci bəndlərinin "Dövlət sirrinə aid edilən məlumatlar barədə sərəncam vermək səlahiyyətinə malik olan Azərbaycan Respublikasının dövlət hakimiyyəti orqanları" sütununda "XDMX" akronimi "PTX, XRİTDX, SOMDA" akronimləri ilə əvəz edilsin;

11.3. V hissə üzrə:

11.3.1. 32-ci, 34-cü, 35-ci, 36-cı, 38-ci, 39-cu bəndlərin "Dövlət sirrinə aid edilən məlumatlar barədə sərəncam vermək səlahiyyətinə malik olan Azərbaycan Respublikasının dövlət hakimiyyəti orqanları" sütununda "XDMX" akronimi "PTX, XRİTDX, SOMDA" akronimləri ilə əvəz edilsin;

11.3.2. 33-cü bənd üzrə:

11.3.2.1. "Dövlət sirrinə aid edilən məlumatlar" sütununda "Dövlət mühafizəsi obyektlərinin və mühafizə olunan" sözləri "Mühafizə olunan şəxslərin, qorunan və strateji" sözləri ilə əvəz olunsun və həmin sütuna "həmin" sözündən sonra "şəxslərin və" sözləri əlavə edilsin;

11.3.2.2. "Dövlət sirrinə aid edilən məlumatlar barədə sərəncam vermək səlahiyyətinə malik olan Azərbaycan Respublikasının dövlət hakimiyyəti orqanları" sütununda "XDMX" akronimi "PTX, XRİTDX, SOMDA" akronimləri ilə əvəz edilsin.

12. "Telekommunikasiya haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2005-ci il 9 avqust tarixli 277 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005, № 8, maddə 709; 2006, № 5, maddə 404, № 11, maddə 947; 2007, № 6, maddə 601; 2009, № 4, maddə 226; 2014, № 5, maddə 477, № 9, maddə 1027; 2016, № 8, maddə 1384; 2017, № 3, maddələr 374, 382, № 6, maddələr 1066, 1095, № 8, maddə 1521, № 12 (I kitab), maddə 2322; 2018, № 6, maddə 1237; 2019, № 7, maddə 1215; 2020, № 8, maddə 1033; 2022, № 5, maddə 471, № 8, maddələr 840, 894; 2023,№ 1, maddə 93, № 2, maddə 230, № 4, maddə 479, № 9, maddə 1285) 2.9-cu bəndində "Respublikasının Xüsusi Dövlət Mühafizə Xidməti" sözləri "Respublikası Prezidentinin Təhlükəsizlik Xidməti, Azərbaycan Respublikasının Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidməti, Azərbaycan Respublikasının Strateji Obyektlərin Mühafizəsi Dövlət Agentliyi" sözləri ilə əvəz edilsin.

13. Azərbaycan Respublikası Prezidentinin 2005-ci il 12 sentyabr tarixli 292 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005, № 9, maddə 798, № 10, maddə 918; 2006, № 5, maddə 408; 2007, № 3, maddə 232,№ 8, maddə 765; 2008, № 1, maddə 7, № 8, maddə 719; 2009, № 3, maddə 163; 2013, № 6, maddə 654; 2014, № 2, maddə 112, № 9, maddə 1027, № 10, maddə 1220; 2015, № 7, maddə 829; 2016, № 1, maddə 45, № 6, maddə 1039, № 8, maddə 1375; 2017, № 3, maddə 353, № 8, maddə 1521, № 11, maddə 1996; 2018, № 3, maddə 436, № 9, maddə 1840; 2019, № 7, maddə 1224; 2022, № 5, maddə 471, № 8, maddə 838; 2023, № 2, maddə 245, № 3, maddə 358, № 4, maddə 502, № 8 (I kitab), maddə 1149) ilə təsdiq edilmiş "Mülki dövriyyənin müəyyən iştirakçılarına mənsub ola bilən və dövriyyədə olmasına xüsusi icazə əsasında yol verilən (mülki dövriyyəsi məhdudlaşdırılmış) əşyaların dövriyyəsinə xüsusi icazə verən mərkəzi icra hakimiyyəti orqanlarının Siyahısı"nın "Xüsusi icazə verən icra hakimiyyəti orqanı" sütununda aşağıdakı dəyişikliklər edilsin:

13.1. 3-cü hissədə "Respublikasının Xüsusi Dövlət Mühafizə" sözləri "Respublikası Prezidentinin Təhlükəsizlik" sözləri ilə əvəz edilsin;

13.2. 12-ci hissədə "Dövlət Mühafizə" sözləri "Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət" sözləri ilə əvəz edilsin;

13.3. 17-ci hissədə "və Azərbaycan Respublikası Xüsusi Dövlət Mühafizə Xidmətinin" sözləri ", Azərbaycan Respublikası Prezidentinin Təhlükəsizlik Xidmətinin və Azərbaycan Respublikası Strateji Obyektlərin Mühafizəsi Dövlət Agentliyinin" sözləri ilə əvəz edilsin.

14. "Əmək pensiyaları haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 6 mart tarixli 377 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006, № 3, maddə 228; 2009, № 11, maddə 883; 2013, № 6, maddə 631; 2016, № 9, maddə 1467; 2017, № 5, maddə 756; 2018, № 2, maddə 185, № 12 (I kitab), maddə 2580; 2019, № 2, maddə 231, № 4, maddə 653, № 7, maddə 1220, № 8, maddə 1390; 2021, № 7, maddə 740, № 8, maddə 910; 2022, № 6, maddə 610, № 12, maddə 1412; Azərbaycan Respublikası Prezidentinin 2023-cü il18 noyabr tarixli2359nömrəli-Fərmanı) 2.5-ci bəndində "və Azərbaycan Respublikasının Xüsusi Dövlət Mühafizə Xidməti" sözləri ", Azərbaycan Respublikası Prezidentinin Təhlükəsizlik Xidməti, Azərbaycan Respublikasının Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidməti və Azərbaycan Respublikasının Strateji Obyektlərin Mühafizəsi Dövlət Agentliyi" sözləri ilə əvəz edilsin.

15. "Hərbi nəqliyyat vəzifəsi haqqında Əsasnamə"nin təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Qanununun icrasının təmin edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 29 mart tarixli 382 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006, № 3, maddə 233; 2017, № 11, maddə 2013, № 12 (I kitab), maddə 2279; 2022, № 4, maddə 324) 1.4-cü bəndində "Respublikasının Xüsusi Dövlət Mühafizə Xidməti" sözləri "Respublikası Prezidentinin Təhlükəsizlik Xidməti, Azərbaycan Respublikasının Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidməti, Azərbaycan Respublikasının Strateji Obyektlərin Mühafizəsi Dövlət Agentliyi" sözləri ilə, "öz səlahiyyətləri daxilində" sözləri "fəaliyyət istiqamətlərinə uyğun olaraq" sözləri ilə əvəz edilsin.

16. "Veteranlar haqqında" Azərbaycan Respublikasının Qanununa əlavələr və dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 25 aprel tarixli 396 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006, № 4, maddə 328; 2010, № 10, maddə 846; 2015, № 2, maddə 109; 2017, № 12 (I kitab), maddə 2280) 2.2-ci bəndinin ikinci abzasında "Respublikasının Xüsusi Dövlət Mühafizə Xidməti" sözləri "Respublikası Prezidentinin Təhlükəsizlik Xidməti, Azərbaycan Respublikasının Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidməti, Azərbaycan Respublikasının Strateji Obyektlərin Mühafizəsi Dövlət Agentliyi" sözləri ilə əvəz edilsin.

17. Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 7 iyun tarixli 417 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006, № 6, maddə 494; 2014, № 9, maddə 1027; 2017, № 8, maddə 1521, № 12 (I kitab), maddə 2304; 2018, № 10, maddə 2009, 2022, № 5, maddə 471) ilə təsdiq edilmiş "Fövqəladə hallarda, fövqəladə və ya hərbi vəziyyət şəraitində zəruri telekommunikasiya şəbəkələrinin, qurğularının və vasitələrinin istifadəsində üstünlük hüququna malik olan və onların istifadəsini dayandıra, məhdudlaşdıra və ya rabitədən istifadə üçün xüsusi qaydalar tətbiq edə bilən səlahiyyətli dövlət hakimiyyəti orqanlarının siyahısı"nda aşağıdakı dəyişikliklər edilsin:

17.1. 2-ci hissənin "Telekommunikasiya şəbəkələrinin, qurğularının və vasitələrinin növü"sütununda "Xüsusi Dövlət Mühafizə Xidmətinin" sözləri "Azərbaycan Respublikası Prezidentinin Təhlükəsizlik Xidmətinin, Azərbaycan Respublikası Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidmətinin, Azərbaycan Respublikası Strateji Obyektlərin Mühafizəsi Dövlət Agentliyinin" sözləri ilə əvəz edilsin;

17.2. 4-cü hissənin "Səlahiyyətli dövlət hakimiyyəti orqanının adı" sütununda "Xüsusi Dövlət Mühafizə Xidməti" sözləri "AzərbaycanRespublikası Prezidentinin Təhlükəsizlik Xidməti, Azərbaycan Respublikasının Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidməti, Azərbaycan Respublikasının Strateji Obyektlərin Mühafizəsi Dövlət Agentliyi" sözləri ilə əvəz edilsin.

18. "Telekommunikasiya haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2005-ci il 9 avqust tarixli 277 nömrəli Fərmanının icrası ilə bağlı əlavə tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 27 sentyabr tarixli 465 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006, № 9, maddə 742; 2015, № 10, maddə 1112; 2017, № 3, maddə 353) 2-ci hissəsində "Dövlət Mühafizə" sözləri "Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət" sözləri ilə əvəz edilsin.

19. "Sosial sığorta haqqında" Azərbaycan Respublikasının Qanununa dəyişikliklər və əlavələr edilməsi barədə" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 22 dekabr tarixli 498 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006, № 12, maddə 1045; 2017, № 12 (I kitab), maddə 2281; 2018, № 6, maddə 1223; 2021, № 9, maddə 987) 2-ci hissəsində "Respublikasının Xüsusi Dövlət Mühafizə Xidməti" sözləri "Respublikası Prezidentinin Təhlükəsizlik Xidməti, Azərbaycan Respublikasının Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidməti, Azərbaycan Respublikasının Strateji Obyektlərin Mühafizəsi Dövlət Agentliyi" sözləri ilə əvəz edilsin.

20. "Əmək pensiyaları haqqında" Azərbaycan Respublikasının Qanununa dəyişikliklər və əlavələr edilməsi barədə" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 22 dekabr tarixli 499 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006, № 12, maddə 1046; 2017, № 9, maddə 1655; 2018, № 5, maddələr 953, 970; 2022, № 6, maddə 610, № 8, maddə 867) 2.3-cü bəndi ləğv edilsin.

21. "Azərbaycan Respublikasının NATO ilə əməkdaşlığı üzrə Komissiyanın tərkibinə dair bəzi məsələlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2007-ci il 21 iyun tarixli 590 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007, № 6, maddə 603; 2010, № 2, maddə 91; 2014, № 5, maddə 477, № 9, maddə 1027; 2016, № 8, maddə 1384; 2017, № 1, maddə 51,№ 8, maddə 1521; 2018, № 9, maddə 1840; 2022, № 5, maddə 469; 2023, № 3, maddə 342) 1-ci hissəsində aşağıdakı dəyişikliklər edilsin:

21.1. "Azərbaycan Respublikası Dövlət Sərhəd Xidmətinin rəisi" abzasından sonra aşağıdakı məzmunda yeni abzaslar əlavə edilsin:

"Azərbaycan Respublikası Prezidentinin Təhlükəsizlik Xidmətinin rəisi

Azərbaycan Respublikası Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidmətinin rəisi";

21.2. "Azərbaycan Respublikası Xüsusi Dövlət Mühafizə Xidmətinin rəisi"abzası aşağıdakı redaksiyada verilsin:

"Azərbaycan Respublikası Strateji Obyektlərin Mühafizəsi Dövlət Agentliyinin rəisi".

22. Azərbaycan Respublikası Prezidentinin 2008-ci il 22 aprel tarixli 744 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2008, № 4, maddə 258, № 12, maddə 1058; 2009, № 2, maddə 75, № 7, maddə 532, № 8, maddə 618, № 10, maddə 776; 2010, № 2, maddə 88, № 7, maddə 610, № 8, maddə 717, № 9, maddə 770; 2011, № 4, maddə 282, № 10, maddə 891; 2012, № 8, maddə 787; 2013, № 9, maddə 1046, № 11, maddələr 1321, 1339; 2014, № 2, maddə 122, № 9, maddələr 1027, 1062; 2015, № 2, maddə 121, № 5, maddələr 521, 543, № 9, maddə 989; 2016, № 2 (II kitab), maddə 228, № 3, maddə 470, № 5, maddələr 869, 879,№ 9, maddə 1464, № 10, maddə 1643, № 11, maddə 1816; 2017, № 2, maddələr 173, 185, № 5, maddələr 776, 817, № 8, maddə 1521; 2018, № 2, maddə 189, № 3, maddə 449, № 4, maddələr 662, 682, № 8, maddə 1688,№ 9, maddə 1840, № 10, maddə 1985, № 11, maddə 2264, № 12 (I kitab), maddələr 2565, 2585; 2019, № 6, maddə 1009; 2020, № 6, maddə 705, № 11, maddə 1356; 2021, № 1, maddə 34, № 2, maddə 129; 2022, № 2, maddə 96, № 5, maddə 469,№ 8, maddə 867) ilə təsdiq edilmiş "Giriş-çıxış və qeydiyyat" idarələrarası avtomatlaşdırılmış məlumat-axtarış sistemi haqqında Əsasnamə"də aşağıdakı dəyişikliklər edilsin:

22.1. 8.13-cü bənd aşağıdakı redaksiyada verilsin:

"8.13. Azərbaycan Respublikası Prezidentinin Təhlükəsizlik Xidməti:

8.13.1. xaricə daimi yaşamağa getmək hüququ "Dövlət sirri haqqında" Azərbaycan Respublikası Qanununun 25-ci maddəsi ilə müəyyən edilmiş qaydada məhdudlaşdırılmış dövlət sirri ilə işləməyə buraxılan və ya əvvəllər buraxılmış Azərbaycan Respublikası Prezidentinin Təhlükəsizlik Xidmətinin əməkdaşları və ya sabiq əməkdaşları haqqında məlumatların "Sərhədkeçməyə məhdudiyyət siyahısı"na daxil edilməsi və müvafiq əsaslar aradan qalxdıqda məlumatların aktiv statusunun dəyişdirilməsi;

8.13.2. əks-kəşfiyyat tədbirlərinin həyata keçirilməsi məqsədilə məlumatların "Sərhədkeçməyə məhdudiyyət siyahısı"na daxil edilməsi və müvafiq əsaslar aradan qalxdıqda məlumatların aktiv statusunun dəyişdirilməsi;

8.13.3. Sistemdə tətbiq olunan informasiya mühafizə, o cümlədən şifrləmə vasitələrinə aid təkliflərin verilməsi.";

22.2. aşağıdakı məzmunda 8.13-1-ci və 8.13-2-ci bəndlər əlavə edilsin:

"8.13-1. Azərbaycan Respublikasının Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidməti:

8.13-1.1. xaricə daimi yaşamağa getmək hüququ "Dövlət sirri haqqında" Azərbaycan Respublikası Qanununun 25-ci maddəsi ilə müəyyən edilmiş qaydada dövlət sirri ilə işləməyə buraxılan və ya əvvəllər buraxılmış Azərbaycan Respublikası Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidmətinin əməkdaşları və ya sabiq əməkdaşları haqqında məlumatların "Sərhədkeçməyə məhdudiyyət siyahısı"na daxil edilməsi və müvafiq əsaslar aradan qalxdıqda məlumatların aktiv statusunun dəyişdirilməsi;

8.13-1.2. əks-kəşfiyyat tədbirlərinin həyata keçirilməsi məqsədilə məlumatların "Sərhədkeçməyə məhdudiyyət siyahısı"na daxil edilməsi və müvafiq əsaslar aradan qalxdıqda məlumatların aktiv statusunun dəyişdirilməsi;

8.13-1.3. Sistemdə tətbiq olunan informasiya mühafizə, o cümlədən şifrləmə vasitələrinə aid təkliflərin verilməsi;

8.13.1.4. fəaliyyət istiqamətlərinə uyğun olaraq sistemdaxili audit fəaliyyətinin həyata keçirilməsi.

8.13-2. Azərbaycan Respublikasının Strateji Obyektlərin Mühafizəsi Dövlət Agentliyi:

8.13-2.1. xaricə daimi yaşamağa getmək hüququ "Dövlət sirri haqqında" Azərbaycan Respublikası Qanununun 25-ci maddəsi ilə müəyyən edilmiş qaydada dövlət sirri ilə işləməyə buraxılan və ya əvvəllər buraxılmış Azərbaycan Respublikası Strateji Obyektlərin Mühafizəsi Dövlət Agentliyinin əməkdaşları və ya sabiq əməkdaşları haqqında məlumatların "Sərhədkeçməyə məhdudiyyət siyahısı"na daxil edilməsi və müvafiq əsaslar aradan qalxdıqda məlumatların aktiv statusunun dəyişdirilməsi.";

22.3. 9-cu hissədə "Xüsusi Dövlət Mühafizə Xidməti" sözləri "Azərbaycan Respublikası Prezidentinin Təhlükəsizlik Xidməti, Azərbaycan Respublikasının Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidməti, Azərbaycan Respublikasının Strateji Obyektlərin Mühafizəsi Dövlət Agentliyi" sözləri ilə əvəz edilsin.

23. "Fərdi məlumatlar haqqında" Azərbaycan Respublikası Qanununun icrasının təmin edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2010-cu il 13 dekabr tarixli 361 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2010, № 12, maddə 1061; 2014, № 9, maddə 1027; 2017, № 8, maddə 1521; 2019, № 2, maddə 231; 2022, № 5, maddə 470) 3.2-ci bəndində "Dövlət Mühafizə Xidməti öz səlahiyyətləri daxilində" sözləri "Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidməti fəaliyyət istiqamətlərinə uyğun olaraq" sözləri ilə əvəz edilsin.

24. "Azərbaycan Respublikası Gömrük Məcəlləsinin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2011-ci il 15 sentyabr tarixli 499 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2011, № 9, maddə 793; 2014, № 5, maddə 477, № 9, maddə 1027, № 10, maddə 1194; 2016, № 8, maddə 1384; 2017, № 3, maddə 384, № 5, maddə 761, № 7, maddələr 1322, 1335, № 8, maddə 1521; 2018, № 5, maddə 906, № 9, maddə 1844, № 12 (I kitab), maddə 2609; 2020, № 5, maddə 560; 2021, № 6 (I kitab), maddə 596; 2022, № 5, maddə 470, № 8, maddə 844, № 12, maddə 1447; 2023, № 7, maddə 977) 28.9-cu bəndində "Respublikasının Xüsusi Dövlət Mühafizə Xidməti" sözləri "Respublikası Prezidentinin Təhlükəsizlik Xidməti, Azərbaycan Respublikasının Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidməti, Azərbaycan Respublikasının Strateji Obyektlərin Mühafizəsi Dövlət Agentliyi" sözləri ilə əvəz edilsin.

25. "Azərbaycan Respublikası dövlət orqanlarının internet informasiya ehtiyatlarının və elektron poçt ünvanlarının təhlükəsizliyinin təmin edilməsi ilə bağlı bəzi tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 19 iyun tarixli 654 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2012, № 6, maddə 548) 2-ci və 3-cü hissələrində "Dövlət Mühafizə" sözləri "Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət" sözləri ilə əvəz edilsin.

26. "Azərbaycan Respublikasının keçmiş Prezidentinin və onun ailə üzvlərinin təminatı haqqında" Azərbaycan Respublikasının 2012-ci il 12 iyun tarixli 376-IVKQ nömrəli Konstitusiya Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 19 iyun tarixli 664 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2012, № 6, maddə 558) 3.1-ci bəndində "Respublikasının Xüsusi Dövlət Mühafizə" sözləri "Respublikası Prezidentinin Təhlükəsizlik" sözləri ilə əvəz edilsin.

27. Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 4 sentyabr tarixli 692 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2012, № 9, maddə 844; 2016, № 7, maddə 1264; 2019, № 3, maddə 418) ilə təsdiq edilmiş "İdarələrarası elektron sənəd dövriyyəsi sistemi haqqında Əsasnamə"nin 1.2-ci bəndində "Dövlət Mühafizə" sözləri "Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət" sözləri ilə əvəz edilsin.

28. "Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin fəaliyyətinin təmin edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 5 sentyabr tarixli 706 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2012, № 9, maddə 858; 2013, № 2, maddə 109, № 3, maddə 254, № 4, maddə 377; 2014, № 2, maddə 117, № 5, maddə 486, № 9, maddələr 1027, 1044, 1048; 2015, № 6, maddə 708, № 8, maddə 917, № 10, maddə 1122; 2016, № 2 (II kitab), maddə 251, № 5, maddə 852, № 8, maddə 1384, № 9, maddə 1464; 2017, № 2, maddə 174, № 4, maddə 564, № 5, maddə 809, № 8, maddələr 1521, 1531; 2018, № 3, maddə 437, № 6, maddə 1242, № 10, maddə 2013, № 11, maddə 2253; 2019, № 1, maddə 61, № 4, maddə 647; 2020, № 8, maddələr 1039, 1044, 1047; 2021, № 8, maddə 919, № 9, maddə 990, № 11, maddə 1217; 2022, № 5, maddə 475, № 10, maddə 1153, № 11, maddə 1264;2023, № 1, maddə 84, № 2, maddə 245, № 5, maddələr 658, 665,№ 7, maddələr 957, 969, № 8 (I kitab), maddə 1176;Azərbaycan Respublikası Prezidentinin2023-cü il 15noyabrtarixli 2352nömrəli Fərmanı)7-ci hissəsində "Dövlət Mühafizə" sözləri "Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət" sözləri ilə əvəz edilsin.

29. "Azərbaycan Respublikası Xüsusi Dövlət Mühafizə Xidmətinin fəaliyyətinin təmin edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 26 dekabr tarixli 794 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2012, № 12, maddə 1268; 2013, № 7, maddə 800, № 12, maddə 1511; 2016, № 2 (II kitab), maddə 262; 2017, № 6, maddə 1091, № 10, maddə 1807; 2018, № 3, maddə 432, № 6, maddə 1217, № 10, maddə 2011; 2019, № 12, maddə 1951)1 - 4-cü hissələri ləğv edilsin.

30. "Elektron hökumət" portalı haqqında Əsasnamə"nin təsdiq edilməsi və elektron xidmətlərin genişləndirilməsi ilə bağlı tədbirlər barədə" Azərbaycan Respublikası Prezidentinin 2013-cü il 5 fevral tarixli 813 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2013, № 2, maddə 107; 2014, № 9, maddə 1027; 2017, № 8, maddə 1521, № 11, maddə 1994; 2022, № 5, maddə 474) 6-cı hissəsində "Respublikası Xüsusi Dövlət Mühafizə Xidmətinin Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Agentliyi" sözləri "Respublikasının Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidməti" sözləri ilə əvəz edilsin.

*Ardı 6-cı səh.*

## Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Respublikası Prezidentinin Təhlükəsizlik Xidməti haqqında Əsasnamə"nin təsdiq edilməsi barədə" 2021-ci il 19 fevral tarixli 1290 nömrəli, "Azərbaycan Respublikasının Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidməti haqqında Əsasnamənin, Xidmətin strukturunun, hərbi qulluqçularının və mülki işçilərinin say həddinin, ali zabit heyəti vəzifələrinin siyahısının təsdiq edilməsi barədə" 2021-ci il 22 dekabr tarixli 1509 nömrəli və "Azərbaycan Respublikasının Strateji Obyektlərin Mühafizəsi Dövlət Agentliyi haqqında Əsasnamənin, Agentliyin strukturunun, hərbi qulluqçularının və mülki işçilərinin say həddinin, ali zabit heyəti vəzifələrinin siyahısının təsdiq edilməsi barədə" 2021-ci il 22 dekabr tarixli 1510 nömrəli fərmanlarının icrası ilə əlaqədar Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarında və sərəncamlarında dəyişiklik edilməsi və bəzi fərmanlarının ləğvi haqqında

## Azərbaycan Respublikasının Prezidentinin Fərmanı

*Əvvəli 5-ci səh.*

31. Azərbaycan Respublikası Prezidentinin 2013-cü il 5 mart tarixli 833 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2013, № 3, maddə 235; 2014, № 9, maddə 1027; 2017, № 3, maddə 353; 2018, № 9, maddə 1839; 2019, № 3, maddə 410, № 12, maddə 1928; 2021, № 12, maddə 1430; 2022, № 5, maddə 476) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi yanında Elektron Təhlükəsizlik Xidməti haqqında Əsasnamə"nin 3.1.12-ci yarımbəndində "Dövlət Mühafizə" sözləri "Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət" sözləri ilə əvəz edilsin.

32. "Azərbaycan Respublikasının Miqrasiya Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə haqqında" Azərbaycan Respublikasının 2013-cü il 2 iyul tarixli 713-IVQ nömrəli Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2013-cü il 8 iyul tarixli 938 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2013, № 7, maddə 803; 2014, № 9, maddə 1050, № 11, maddələr 1382, 1413, № 12, maddə 1588; 2015, № 10, maddə 1121; 2016, № 6, maddələr 1020, 1044, № 11, maddə 1827; 2018, № 7 (I kitab), maddə 1476; 2019, № 7, maddə 1240; 2020, № 6, maddə 703; 2021, № 1, maddə 36; 2023, № 2, maddə 237, № 3, maddə 351, № 5, maddə 643) 5.5-ci bəndində "Respublikasının Xüsusi Dövlət Mühafizə Xidməti" sözləri "Respublikası Prezidentinin Təhlükəsizlik Xidməti, Azərbaycan Respublikasının Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidməti, Azərbaycan Respublikasının Strateji Obyektlərin Mühafizəsi Dövlət Agentliyi" sözləri ilə əvəz edilsin.

33. "Uyğun milli teletibb sistemlərinin yaradılması, onların gələcək inkişafı və istifadəsində MDB-nin iştirakçısı olan dövlətlərin əməkdaşlığı haqqında" Sazişin təsdiqi və həmin Saziş üzrə səlahiyyətli orqanların müəyyən edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 11 aprel tarixli 138 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014, № 4, maddə 354) 2-ci hissəsində "Dövlət Mühafizə" sözləri "Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət" sözləri ilə əvəz edilsin.

34. "Hərbi qulluqçuların statusu haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2014-cü il 17 oktyabr tarixli 1053-IVQD nömrəli Qanununun tətbiqi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 21 noyabr tarixli 365 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014, № 11, maddə 1405; 2017, № 12 (I kitab), maddə 2283) 3-cü hissəsində "Respublikasının Xüsusi Dövlət Mühafizə Xidməti" sözləri "Respublikası Prezidentinin Təhlükəsizlik Xidməti, Azərbaycan Respublikasının Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidməti, Azərbaycan Respublikasının Strateji Obyektlərin Mühafizəsi Dövlət Agentliyi" sözləri ilə əvəz edilsin.

35. "ASAN ödəniş" sistemi haqqında Əsasnamə"nin təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2015-ci il 11 fevral tarixli 463 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2015, № 2, maddə 125; 2017, № 2, maddə 175, № 7, maddə 1349, № 11, maddə 2016; 2018, № 8, maddə 1689; 2019, № 4, maddə 660; 2021, № 4, maddə 317, № 5, maddə 445) 7-ci hissəsində "Respublikası Xüsusi Dövlət Mühafizə Xidmətinin Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Agentliyi" sözləri "Respublikasının Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidməti" sözləri ilə əvəz edilsin.

36. "Yerli icra hakimiyyəti orqanlarında vətəndaşların müraciətləri üzrə vahid elektron informasiya sisteminin yaradılması haqqında" Azərbaycan Respublikası Prezidentinin 2015-ci il 29 aprel tarixli 503 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2015, № 4, maddə 382; 2016, № 5, maddə 858, № 7, maddə 1265; 2017, № 8, maddə 1521; 2022, № 5, maddə 472) aşağıdakı dəyişikliklər edilsin:

36.1. 6-cı hissədə "Respublikası Xüsusi Dövlət Mühafizə Xidmətinin Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Agentliyi" sözləri "Respublikasının Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidməti" sözləri ilə əvəz edilsin;

36.2. həmin Fərmanla təsdiq edilmiş "Yerli icra hakimiyyəti orqanlarında vətəndaşların müraciətləri üzrə vahid elektron informasiya sistemindən istifadə qaydaları" üzrə:

36.2.1. 5.1.2-ci yarımbənddə "Dövlət Mühafizə Xidmətinin Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Agentliyinə" sözləri "Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidmətinə" sözləri ilə əvəz edilsin;

36.2.2. 6.2-ci bənddə "Dövlət Mühafizə Xidmətinin Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Agentliyi" sözləri "Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidməti" sözləri ilə əvəz edilsin.

37. "Azərbaycan Respublikasının 1994-cü il 23 sentyabr tarixli 886 nömrəli Qanunu ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Qarnizon və qarovul xidmətləri Nizamnaməsi"ndə dəyişikliklər edilməsi haqqında" Azərbaycan Respublikasının 2015-ci il 18 dekabr tarixli 39-VQD nömrəli Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 14 yanvar tarixli 727 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 1, maddə 49, № 8, maddə 1379; 2019, № 1, maddə 53; 2022, № 4, maddə 324) 2.2-1-ci bəndində "Respublikasının Xüsusi Dövlət Mühafizə Xidməti" sözləri "Respublikası Prezidentinin Təhlükəsizlik Xidməti, Azərbaycan Respublikasının Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidməti, Azərbaycan Respublikasının Strateji Obyektlərin Mühafizəsi Dövlət Agentliyi" sözləri ilə əvəz edilsin.

38. "Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikasının 2015-ci il 29 dekabr tarixli 96-VQ nömrəli Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 15 fevral tarixli 795 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 2 (II kitab), maddə 259, № 3, maddə 460, № 4, maddə 670, № 6, maddələr 1025, 1063, № 7, maddə 1272, № 9, maddə 1468, № 10, maddələr 1614, 1638; 2017, № 2, maddələr 176, 202, № 3, maddə 351, № 4, maddələr 530, 537, № 6, maddə 1101, № 7, maddələr 1314, 1346, № 8, maddə 1521, № 9, maddə 1637, № 10, maddələr 1788, 1798, № 11, maddələr 2003, 2027, № 12 (I kitab), maddələr 2290, 2320; 2018, № 1, maddə 36, № 2, maddələr 198, 201, № 3, maddələr 418, 428, 443, 445, № 5, maddələr 914, 918, 926, 955, № 6, maddələr 1225, 1234, № 7 (I kitab), maddələr 1465, 1477, 1494, 1504, № 8, maddələr 1678, 1697, № 9, maddə 1840, № 11, maddələr 2244, 2256, 2273, 2289, № 12 (I kitab), maddələr 2541, 2566, 2573, 2610; 2019, № 1, maddələr 52, 68, № 3, maddə 426, № 4, maddələr 602, 630, № 5, maddələr 825, 846, 852, № 6, maddələr 1035, 1046, № 8, maddələr 1395, 1401, № 11, maddə 1700; 2020, № 3, maddələr 238, 240, 241, № 5, maddələr 540, 564, № 6, maddələr 691, 709, № 7, maddələr 863, 880, 884,№ 8, maddələr 1027, 1032, № 9, maddə 1155, № 11, maddə 1359, № 12 (I kitab), maddə 1484; 2021, № 1, maddə 36, № 4, maddə 317, № 5, maddə 444, № 6 (I kitab), maddələr 565, 575, № 7, maddələr 724, 728, 741, № 10, maddə 1101,№ 12, maddələr 1407, 1423; 2022, № 1, maddə 28, № 2, maddə 111,№ 4, maddələr 313, 323, № 5, maddə 473, № 8, maddələr 837, 861, 897, №12, maddə 1462; 2023, № 1, maddələr 52, 66, 97, № 2, maddələr 220, 226, 231, № 3, maddələr 350, 360, 375, № 4, maddə 505,№ 6, maddə 795, № 7 maddələr 946, 953, 976, № 8, maddələr 1139, 1166, 1180; Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 13 dekabr tarixli 2380 nömrəli Fərmanı) aşağıdakı dəyişikliklər edilsin:

38.1. 4.4-cü və 4.47-2-ci bəndlərdə "Respublikasının Xüsusi Dövlət Mühafizə Xidməti" sözləri "Respublikası Prezidentinin Təhlükəsizlik Xidməti, Azərbaycan Respublikasının Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidməti, Azərbaycan Respublikasının Strateji Obyektlərin Mühafizəsi Dövlət Agentliyi" sözləri ilə əvəz edilsin;

38.2. 4.13-cü bənddə "Dövlət Mühafizə" sözləri "Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət" sözləri ilə əvəz edilsin;

38.3. 4.47-1-ci bənddə "və Azərbaycan Respublikası Xüsusi Dövlət Mühafizə Xidmətinin" sözləri ", Azərbaycan Respublikası Prezidentinin Təhlükəsizlik Xidmətinin və Azərbaycan Respublikası Strateji Obyektlərin Mühafizəsi Dövlət Agentliyinin" sözləri ilə əvəz edilsin.

39. "Elektron vizaların verilməsi prosedurunun sadələşdirilməsi və "ASAN Viza" sisteminin yaradılması haqqında" Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 1 iyun tarixli 923 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 6, maddə 1019; 2017, № 2, maddə 172, № 6, maddə 1099; 2021, № 1, maddə 43) 7-ci hissəsində "Respublikası Xüsusi Dövlət Mühafizə Xidmətinin Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Agentliyi" sözləri "Respublikasının Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidməti" sözləri ilə əvəz edilsin.

40. Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 20 oktyabr tarixli 1082 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 10, maddə 1641; 2017, № 6, maddə 1098, № 12 (I kitab), maddə 2273; 2018, № 4, maddə 663, № 10, maddə 1987; 2019, № 4, maddə 612; 2021, № 9, maddə 982) ilə təsdiq edilmiş "ASAN Viza" sistemi haqqında Əsasnamə"nin 6.14-cü bəndində "Dövlət Mühafizə" sözləri "Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət" sözləri ilə əvəz edilsin.

41. "Azərbaycan Respublikasının "Şücaətə görə" medalının təsis edilməsi ilə əlaqədar "Azərbaycan Respublikasının orden və medallarının təsis edilməsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2016-cı il 14 oktyabr tarixli 356-VQD nömrəli Qanununun tətbiqi və "Hərbi xidmət sahəsində bəzi medallarla təltif edilmə qaydası haqqında" Azərbaycan Respublikası Prezidentinin 2004-cü il 25 iyun tarixli 282 nömrəli Sərəncamında dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 7 dekabr tarixli 1143 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 12, maddə 2061) 2-ci hissəsində "və Xüsusi Dövlət Mühafizə Xidməti" sözləri", Azərbaycan Respublikası Prezidentinin Təhlükəsizlik Xidməti, Azərbaycan Respublikasının Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidməti və Azərbaycan Respublikasının Strateji Obyektlərin Mühafizəsi Dövlət Agentliyi" sözləri ilə əvəz edilsin.

42. "Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişikliklər edilməsi haqqında" Azərbaycan Respublikasının 2016-cı il 28 oktyabr tarixli 366-VQD nömrəli Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 9 dekabr tarixli 1152 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 12, maddə 2070) 3-cü hissəsi ləğv edilsin.

43. "Lisenziyalar və icazələr" portalı haqqında Əsasnamə"nin təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 21 yanvar tarixli 1205 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, № 1, maddə 52; 2019, № 11, maddə 1715; 2022, № 8, maddə 857) 4.3-cü bəndində "Dövlət Mühafizə" sözləri "Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət" sözləri ilə əvəz edilsin.

44. "Rəqəmsal ticarət qovşağı kimi Azərbaycan Respublikasının mövqeyinin gücləndirilməsi və xarici ticarət əməliyyatlarının genişləndirilməsi ilə bağlı əlavə tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 22 fevral tarixli 1255 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, № 2, maddə 199; 2018, № 6, maddə 1236; 2021, № 1, maddə 43; 2022, № 12, maddə 1442; 2023, № 2, maddə 245, № 8 (I kitab), maddə 1147) 1.6-cı bəndində "Dövlət Mühafizə" sözləri "Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət" sözləri ilə əvəz edilsin.

45. "Azərbaycan Respublikasının 1994-cü il 23 sentyabr tarixli 885 nömrəli Qanunu ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin İntizam nizamnaməsi"ndə dəyişikliklər edilməsi haqqında" Azərbaycan Respublikasının 2017-ci il 1 fevral tarixli 504-VQD nömrəli Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 9 mart tarixli 1286 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, № 3, maddə 364) 3.2-ci bəndində "Respublikasının Xüsusi Dövlət Mühafizə Xidməti" sözləri "Respublikası Prezidentinin Təhlükəsizlik Xidməti, Azərbaycan Respublikasının Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidməti, Azərbaycan Respublikasının Strateji Obyektlərin Mühafizəsi Dövlət Agentliyi" sözləri ilə əvəz edilsin.

46. "Hərbi vəziyyət haqqında" Azərbaycan Respublikasının 2017-ci il 14 fevral tarixli 530-VQ nömrəli Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 5 aprel tarixli 1317 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, № 4, maddə 531) 2.4-cü bəndində "Respublikasının Xüsusi Dövlət Mühafizə Xidməti" sözləri "Respublikası Prezidentinin Təhlükəsizlik Xidməti, Azərbaycan Respublikasının Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidməti, Azərbaycan Respublikasının Strateji Obyektlərin Mühafizəsi Dövlət Agentliyi" sözləri ilə əvəz edilsin.

47. Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 3 may tarixli 1361 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, № 5, maddə 765, № 9, maddə 1650, № 10, maddə 1789, № 12 (I kitab), maddələr 2314, 2321; 2018, № 1, maddə 54, № 2, maddələr 200, 219, № 3, maddələr 416, 430, 448, № 5, maddələr 916, 919, № 6, maddə 1243, № 9, maddələr 1828, 1840, № 11, maddələr 2274, 2289, № 12 (I kitab), maddələr 2540, 2587, 2601; 2019, № 1, maddə 82, № 2, maddə 216, № 3, maddə 431, № 4, maddə 620, № 5, maddələr 819, 824, 835, 866, № 7, maddə 1221, № 8, maddə 1388, № 10, maddələr 1581, 1587, № 11, maddələr 1700, 1710; 2020, № 3, maddə 252, № 5, maddələr 538, 564, № 6, maddələr 710, 714, № 7, maddələr 865, 880, № 8, maddə 1032, № 11, maddə 1345, № 12 (I kitab), maddə 1484; 2021, № 1, maddə 33, № 6 (I kitab), maddə 566, № 8, maddə 921, № 12, maddələr 1407,1423; 2022, № 4, maddələr 305, 306, 323, 329, №7, maddə728, № 10, maddə 1146, № 11, maddələr 1251, 1267, 1269; 2023, № 1, maddələr 66, 97, № 3, maddələr 346, 375, № 4, maddələr 472, 483, 505, № 6, maddə 795, № 7, maddələr 946, 953, № 8 (I kitab), maddələr 1139, 1166, 1172, 1179, 1180, № 9, maddə 1284; Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 4 dekabr tarixli 2370 nömrəli və 13 dekabr tarixli 2380 nömrəli fərmanları) ilə təsdiq edilmiş "Rayon (şəhər) məhkəmələrinin baxdığı inzibati xətalar haqqında işlər üzrə protokol tərtib etmək səlahiyyəti olan vəzifəli şəxslərin Siyahısı"nda aşağıdakı dəyişikliklər edilsin:

47.1. 55-2.4-cü bənddə "Respublikasının Xüsusi Dövlət Mühafizə" sözləri "Respublikası Prezidentinin Təhlükəsizlik" sözləri ilə əvəz edilsin;

47.2. 55-2.7-ci bəndin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz olunsun və aşağıdakı məzmunda 55-2.8-ci və 55-2.9-cu bəndlər əlavə edilsin:

"55-2.8. inzibati xətanı aşkar etmiş Azərbaycan Respublikasının Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidməti adından - Xidmətin rəisi, onun müavinləri, Xidmətin Aparatının müvafiq strukturlarının rəhbərləri (rəisləri);

55-2.9. inzibati xətanı aşkar etmiş Azərbaycan Respublikasının Strateji Obyektlərin Mühafizəsi Dövlət Agentliyi adından - Agentliyin rəisi, onun müavinləri, Agentliyin Aparatının müvafiq strukturlarının rəhbərləri (rəisləri).";

47.3. 65-1-ci hissədə "Dövlət Mühafizə" sözləri "Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət" sözləri ilə, "Feldyeger Rabitəsi İdarəsinin" sözləri "Xidmətin Aparatının müvafiq strukturunun" sözləri ilə əvəz edilsin.

48. "Azərbaycan Respublikasının diplomatik nümayəndəlikləri və konsulluqları vasitəsilə qeyri-rezidentlərə elektron imza sertifikatının verilməsi Qaydası"nın və "www.azexport.az" internet portalı haqqında Əsasnamə"nin təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 12 sentyabr tarixli 1598 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, № 9, maddə 1645; 2019, № 6, maddə 1031; 2021, № 1, maddə 44; 2022, № 5, maddə 467, № 8, maddə 856; 2023, № 2, maddə 245, № 8 (I kitab), maddə 1147) 5.3-cü bəndində"Dövlət Mühafizə" sözləri "Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət" sözləri ilə əvəz edilsin.

49. "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının 2017-ci il 29 dekabr tarixli 968-VQD nömrəli Qanununun tətbiqi və "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 29 dekabr tarixli 435 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 5 fevral tarixli 1806 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 2, maddə 170) 4.2-ci bəndində "Dövlət Mühafizə" sözləri "Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət" sözləri ilə əvəz edilsin.

50. "Elektron hökumətin inkişafı və rəqəmsal hökumətə keçid ilə bağlı tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 14 mart tarixli 1885 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 3, maddə 435; 2022, № 11, maddə 1264) 6-cı hissəsində"Dövlət Mühafizə" sözləri "Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət" sözləri ilə əvəz edilsin.

51. "Azərbaycan Respublikası Maliyyə Nazirliyinin dövlət qurumlarına təqdim etdiyi hesabatların formaları və onların təqdim edilməsi Qaydası"nın və "Dövlət qurumlarının dövlət xəzinədarlığı məlumatlarına real vaxt rejimində çıxışının təmin edilməsi Qaydası"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 15 may tarixli 72 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 5, maddə 940, № 12 (I kitab), maddə 2556; 2019, № 5, maddə 834; 2022, № 8, maddə 856) aşağıdakı dəyişikliklər edilsin:

51.1. 6-cı hissədə "Dövlət Mühafizə" sözləri "Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət" sözləri ilə əvəz edilsin;

51.2. həmin Fərmanla təsdiq edilmiş "Dövlət qurumlarının dövlət xəzinədarlığı məlumatlarına real vaxt rejimində çıxışının təmin edilməsi Qaydası"nın 3.1 - 3.3-cü bəndlərində "Dövlət Mühafizə" sözləri "Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət" sözləri ilə əvəz edilsin.

52. "Azərbaycan Respublikasının Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin fəaliyyətinin təmin edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 26 iyun tarixli 148 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 6, maddə 1238, № 10, maddə 1991, № 11, maddə 2287; 2019, № 3, maddə 411, № 4, maddə 619, № 5, maddələr 839, 855, № 6, maddə 1027, № 12, maddə 1921; 2020, № 1, maddə 5, № 2, maddə 100, № 8, maddə 1039, № 11, maddə 1357; 2021, № 1, maddə 30, № 6 (I kitab), maddələr 579, 593, № 8, maddə 908, № 12, maddələr 1369, 1416; 2022, № 4, maddələr 305, 306, № 5, maddələr 443, 448, № 10, maddə 1136, № 12, maddə 1438; 2023, № 1, maddə 89, № 2, maddə 245, № 3, maddə 359, № 4, maddə 474, № 6, maddə 781, № 7, maddə 959) 10.1-ci bəndində"Dövlət Mühafizə" sözləri "Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət" sözləri ilə əvəz edilsin.

53. "Əmək, məşğulluq, sosial müdafiə və sosial təminat sahələrində elektron xidmətlərin tətbiqinin genişləndirilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 5 sentyabr tarixli 258 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 9, maddə 1821) 2.3-cü bəndində "Dövlət Mühafizə" sözləri "Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət" sözləri ilə əvəz edilsin.

54. "Dövlət orqanlarında (qurumlarında) daxili idarəetmə proseslərinin elektronlaşdırılması tədbirləri haqqında" Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 27 oktyabr tarixli 314 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 10, maddə 2014; 2020, № 4, maddə 399; 2021, № 9, maddə 977; 2022, № 5, maddə 462) 2-ci və 9-cu hissələrində "Dövlət Mühafizə" sözləri "Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət" sözləri ilə əvəz edilsin.

55. "Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2018-ci il 7 dekabr tarixli 1382-VQD nömrəli Qanununun tətbiqi və "Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikasının 2015-ci il 29 dekabr tarixli 96-VQ nömrəli Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 15 fevral tarixli 795 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 10 yanvar tarixli 462 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019, № 1, maddə 52) 3.2-ci bəndi ləğv edilsin.

56. "Azərbaycan Respublikası Hökuməti ilə Türkiyə Respublikası Hökuməti arasında hərbi tibb sahəsində təhsil və əməkdaşlıq haqqında Protokolun təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 20 fevral tarixli 534 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019, № 2, maddə 233) 2-ci hissəsində "Xüsusi Dövlət Mühafizə Xidməti" sözləri "Azərbaycan Respublikası Prezidentinin Təhlükəsizlik Xidməti, Azərbaycan Respublikasının Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidməti, Azərbaycan Respublikasının Strateji Obyektlərin Mühafizəsi Dövlət Agentliyi" sözləri ilə əvəz edilsin.

57. Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 21 fevral tarixli 535 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019, № 2, maddə 234) ilə təsdiq edilmiş "İnformasiya Təhlükəsizliyi üzrə Koordinasiya Komissiyası haqqında Əsasnamə"nin 5.15-ci bəndində "Respublikası Xüsusi Dövlət Mühafizə Xidmətinin Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Agentliyi" sözləri "Respublikasının Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidməti" sözləri ilə əvəz edilsin.

58. "Hökumət buludu"nun (G-cloud) yaradılması və "bulud" xidmətlərinin göstərilməsi sahəsində tədbirlər haqqında"Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 3 iyun tarixli 718 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019, № 6, maddə 1010; 2020, № 8, maddə 1043; 2022, № 5, maddə 463) aşağıdakı dəyişikliklər edilsin:

58.1. 6-cı hissədə "Dövlət Mühafizə" sözləri "Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət" sözləri ilə əvəz edilsin;

58.2. həmin Fərmanla təsdiq edilmiş "Hökumət buludu" (G-cloud) Konsepsiyası"nın 9-cu hissəsi üzrə:

58.2.1. beşinci abzasda "Respublikası Xüsusi Dövlət Mühafizə Xidmətinin Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Agentliyi" sözləri "Respublikasının Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidməti" sözləri ilə əvəz edilsin;

58.2.2. səkkizinci abzasda "Respublikasının Xüsusi Dövlət Mühafizə Xidməti Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Agentliyi" sözləri "Respublikasının Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidməti" sözləri ilə əvəz edilsin.

59. "Elektron kənd təsərrüfatı" informasiya sistemi haqqında Əsasnamə"nin təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 23 dekabr tarixli 897 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019, № 12, maddə 1940; 2020, № 7, maddə 897, № 9, maddə 1147; 2022, № 3, maddə 228, № 9, maddə 1036; 2023, № 4, maddələr 486, 489) 2.2-ci bəndində "Dövlət Mühafizə" sözləri "Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət" sözləri ilə əvəz edilsin.

60. Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 27 mart tarixli 975 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020, № 3, maddə 251; 2022, № 8, maddələr 874, 885; 2023, № 7, maddə 945) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi haqqında Əsasnamə"nin 3.0.17-ci yarımbəndində "Respublikasının Xüsusi Dövlət Mühafizə Xidməti" sözləri "Respublikası Prezidentinin Təhlükəsizlik Xidməti, Azərbaycan Respublikasının Strateji Obyektlərin Mühafizəsi Dövlət Agentliyi" sözləri ilə əvəz edilsin.

61. "e-KOB evi" portalı haqqında Əsasnamə"nin təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 9 avqust tarixli 1415 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021, № 8, maddə 907; 2022, № 5, maddələr 448, 464) 3.3-cü bəndinə "Təhlükəsizliyi" sözündən sonra "Dövlət" sözü əlavə edilsin.

62. "Azərbaycan Respublikasının Xüsusi Dövlət Mühafizə Xidmətinin Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Agentliyi haqqında Əsasnamənin və Agentliyin strukturunun təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 28 noyabr tarixli 752 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2012, № 11, maddə 1112; 2016, № 2(II kitab), maddə 263; 2019, № 12, maddə 1951) ləğv edilsin.

63. "Azərbaycan Respublikası Xüsusi Dövlət Mühafizə Xidmətinin Feldyeger Rabitəsi İdarəsi haqqında Əsasnamənin, onun strukturunun, habelə hərbi qulluqçularının və mülki işçilərinin ümumi say həddinin təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 9 fevral tarixli 1227 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, № 2, maddə 171; 2018, № 10, maddə 2021; 2022, № 8, maddə 871) ləğv edilsin.

64. "Hərbi xidmət sahəsində bəzi medallarla təltif edilmə qaydası haqqında" Azərbaycan Respublikası Prezidentinin 2004-cü il 25 iyun tarixli 282 nömrəli Sərəncamının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004, № 6, maddə 483; 2007, № 6, maddə 661; 2008, № 6, maddə 486; 2012, № 11, maddə 1098; 2016, № 12, maddə 2061; 2018, № 3, maddə 482) 1-ci hissəsində "və Azərbaycan Respublikası Xüsusi Dövlət Mühafizə Xidmətinin" sözləri ", Azərbaycan Respublikası Prezidentinin Təhlükəsizlik Xidmətinin rəisinə, Azərbaycan Respublikası Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidmətinin rəisinə və Azərbaycan Respublikasının Strateji Obyektlərin Mühafizəsi Dövlət Agentliyinin" sözləri ilə əvəz edilsin.

65. "Azərbaycan Respublikasının milli təhlükəsizlik siyasəti sahəsində İşçi Qrupunun yaradılması haqqında" Azərbaycan Respublikası Prezidentinin 2004-cü il 17 sentyabr tarixli 394 nömrəli Sərəncamının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004, № 9, maddə 712; 2005, № 4, maddə 300, № 6, maddə 494; 2007, № 10, maddə 1009; 2009, № 7, maddə 589; 2014, № 2, maddə 112, № 6, maddə 644, № 11, maddə 1414; 2016, № 8, maddə 1384; 2018, № 8, maddə 1677; 2019, № 2, maddə 294; 2022, № 12, maddə 1516; 2023, № 3, maddə 391) 1-ci hissəsində aşağıdakı dəyişikliklər edilsin:

65.1. "Azərbaycan Respublikası daxili işlər nazirinin müavini" abzasından sonra aşağıdakı məzmunda yeni abzaslar əlavə edilsin:

"Azərbaycan Respublikası Prezidentinin Təhlükəsizlik Xidməti rəisinin müavini

Azərbaycan Respublikası Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidməti rəisinin müavini";

65.2. "Azərbaycan Respublikası Xüsusi Dövlət Mühafizə Xidməti rəisinin müavini" abzası aşağıdakı redaksiyada verilsin:

"Azərbaycan Respublikası Strateji Obyektlərin Mühafizəsi Dövlət Agentliyi rəisinin müavini".

66. Azərbaycan Respublikası Prezidentinin 2008-ci il 10 mart tarixli 2715 nömrəli Sərəncamı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2008, № 3, maddə 208; 2009, № 2, maddə 66; 2016, № 6, maddə 1090; 2017, № 9, maddə 1699; 2018, № 7 (II kitab), maddə 1516; 2019, № 6, maddə 1125; 2020, № 1, maddə 58; 2021, № 2, maddə 150; 2022, № 8, maddə 926) ilə təsdiq edilmiş "Ezamiyyə xərclərinin 1 günlük normalarına əlavələr və həmin əlavələrin tətbiq olunduğu rəhbər işçilərin siyahısı"nda aşağıdakı dəyişikliklər edilsin:

66.1. 2-ci və 3-cü hissələrin "Rəhbər işçinin vəzifəsi" sütununda "Respublikasının Xüsusi Dövlət Mühafizə" sözləri "Respublikası Prezidentinin Təhlükəsizlik" sözləri ilə əvəz edilsin;

66.2. "Qeyd" hissəsiüzrə:

66.2.1. 2-ci bəndə "edilmiş" sözündən sonra "təsdiqedici" sözü əlavə edilsin;

66.2.2. aşağıdakı məzmunda 5-ci bənd əlavə edilsin:

"5. Mühafizə olunan şəxslərin səfərləri zamanı təhlükəsizliyi təmin edən Azərbaycan Respublikası Prezidentinin Təhlükəsizlik Xidmətininvə Azərbaycan Respublikasının Strateji Obyektlərin Mühafizəsi Dövlət Agentliyinin əməkdaşlarının mehmanxana xərcləri təqdim edilmiş təsdiqedici sənədlərə əsasən faktiki xərclərə uyğun olaraq ödənilir.".

67. "2008-ci il oktyabrın 10-da Bişkek şəhərində Azərbaycan Respublikası tərəfindən qeyd-şərt ilə imzalanmış "Dövlət tərəfindən mühafizə olunmalı şəxslərin təhlükəsizliyinin təmin edilməsi sahəsində Müstəqil Dövlətlər Birliyinin iştirakçısı olan dövlətlərin qarşılıqlı fəaliyyəti haqqında Saziş"in təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2010-cu il 12 noyabr tarixli 1187 nömrəli Sərəncamının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2010, № 11, maddə 993) 2-ci hissəsində "Respublikasının Xüsusi Dövlət Mühafizə Xidmətinə" sözləri "Respublikası Prezidentinin Təhlükəsizlik Xidmətinə, Azərbaycan Respublikasının Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidmətinə və Azərbaycan Respublikasının Strateji Obyektlərin Mühafizəsi Dövlət Agentliyinə" sözləri ilə və "etsin" sözü "etsinlər" sözü ilə əvəz edilsin.

68. Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 14 fevral tarixli 3672 nömrəli Sərəncamı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 2, maddə 275; 2019, № 5, maddələr 877, 899; 2020, № 8, maddə 1065, № 11, maddə 1377; 2022, № 5, maddə 532, № 8, maddə 912; 2023, № 3, maddə 390) ilə təsdiq edilmiş "2018-2025-ci illərdə Azərbaycan Respublikasında rəsmi statistikanın inkişafına dair Dövlət Proqramı"nda aşağıdakı dəyişikliklər edilsin:

68.1. 5.3.2-ci yarımbənddə "XDMX" akronimi "XRİTDX" akronimi ilə əvəz edilsin;

68.2. "Akronimlər" hissəsində "XDMX - Azərbaycan Respublikasının Xüsusi Dövlət Mühafizə Xidməti" sözləri "XRİTDX - Azərbaycan Respublikasının Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidməti" sözləri ilə əvəz edilsin.

69. "İnformasiya Təhlükəsizliyi üzrə Koordinasiya Komissiyasının yaradılması haqqında" Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 29 mart tarixli 3851 nömrəli Sərəncamında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 3, maddə 571; 2019, № 2, maddə 306, № 6, maddə 1129; 2022, № 5, maddə 532; 2023, № 3, maddə 390) aşağıdakı dəyişikliklər edilsin:

69.1. 1-ci hissədə "Dövlət Mühafizə Xidməti rəisinin müavini - Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Agentliyinin" sözləri "Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidmətinin" sözləri ilə əvəz edilsin;

69.2. 2-ci hissədə "Dövlət Mühafizə Xidmətinin Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Agentliyinə" sözləri "Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidmətinə" sözləri ilə əvəz edilsin.

70. Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 22 iyul tarixli 1334 nömrəli Sərəncamı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019, № 7, maddə 1276; 2020, № 12 (III kitab), maddə 1537; 2023, № 3, maddə 390, № 4, maddə 534) ilə təsdiq edilmiş "Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinə və narkomanlığa qarşı mübarizəyə dair 2019-2024-cü illər üçün Dövlət Proqramı"nın "4. Dövlət Proqramının həyata keçirilməsi üzrə Tədbirlər planı" hissəsinin 4.4.33-cü yarımbəndində "Xüsusi Dövlət Mühafizə Xidməti" sözləri "Azərbaycan Respublikası Prezidentinin Təhlükəsizlik Xidməti, Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidməti, Strateji Obyektlərin Mühafizəsi Dövlət Agentliyi" sözləri ilə əvəz edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 29 dekabr 2023-cü il*

# Azərbaycan Respublikasının Nazirlər Kabineti

№ 483 QƏRAR Bakı şəhəri, 27 dekabr 2023-cü il

## Azərbaycan Respublikası Nazirlər Kabinetinin "Fiziki və hüquqi şəxslərə qeyri-sərbəst və yarımsərbəst şəraitdə saxlanılmasına və yetişdirilməsinə icazə verilən vəhşi heyvanların Siyahısı, habelə onların saxlanılmasına, mühafizəsinə və istifadəsinə dair Tələblərin təsdiq edilməsi barədə" 2001-ci il 1 may tarixli 86 nömrəli və "Azərbaycan Respublikasının ərazisində ovçuluğun aparılması Qaydaları"nın və "Ovçuluq təsərrüfatları haqqında Əsasnamə"nin təsdiq edilməsi haqqında" 2005-ci il 27 yanvar tarixli 10 nömrəli qərarlarında dəyişiklik edilməsi barədə

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Respublikasının ştatdankənar (fəxri) konsulu haqqında" Əsasnamə barədə" 1997-ci il 21 aprel tarixli 575 nömrəli, "Heyvanlar aləmi haqqında" Azərbaycan Respublikası Qanununun icrasının təmin edilməsi barədə əlavə tədbirlər haqqında" 2003-cü il 23 oktyabr tarixli 951 nömrəli, "Ovçuluq haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" 2004-cü il 26 may tarixli 69 nömrəli, "Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyinin fəaliyyətinin təmin edilməsi haqqında" 2017-ci il 13 noyabr tarixli 1681 nömrəli və "Baytarlıq haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının 2018-ci il 23 fevral tarixli 1010-VQD nömrəli Qanununun tətbiqi və "Baytarlıq haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2005-ci il 22 noyabr tarixli 316 nömrəli Fərmanında dəyişikliklər edilməsi haqqında" 2018-ci il 16 aprel tarixli 1921 nömrəli fərmanlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2023-cü il7 iyun tarixli 2173 nömrəli Fərmanının icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2001-ci il 1 may tarixli 86 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001, № 5, maddə 336; 2005, № 1, maddə 49) ilə təsdiq edilmiş "Fiziki və hüquqi şəxslərə qeyri-sərbəst və ya yarımsərbəst şəraitdə saxlanılmasına və yetişdirilməsinə icazə verilən vəhşi heyvanların Siyahısı, habelə onların saxlanılmasına, mühafizəsinə və istifadəsinə dair Tələblər"in 3.1-ci bəndinin altıncı abzasında "müvafiq icra hakimiyyəti orqanlarına" sözləri "Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyinə, Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyinə və Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyinə" sözləri ilə əvəz edilsin.

2. "Azərbaycan Respublikasının ərazisində ovçuluğun aparılması Qaydaları"nın və "Ovçuluq təsərrüfatları haqqında Əsasnamə"nin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2005-ci il 27 yanvar tarixli 10 nömrəli Qərarında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005, № 1, maddə 54, № 6, maddə 535; 2008, № 2, maddə 132; 2014, № 11, maddə 1511; 2017, № 9, maddə 1761; 2023, № 9, maddə 1352) aşağıdakı dəyişikliklər edilsin:

2.1. həmin Qərarla təsdiq edilmiş "Azərbaycan Respublikasının ərazisində ovçuluğun aparılması Qaydaları"nın III hissəsinin on üçüncü abzasında "və Ekologiya və Təbii Sərvətlər Nazirliyinə," sözləri ", Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyinə və Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyinə" sözləri ilə əvəz edilsin;

2.2. həmin Qərarla təsdiq edilmiş "Ovçuluq təsərrüfatları haqqında Əsasnamə"nin 2.6-cı bəndində "Kənd Təsərrüfatı Nazirliyinə və Ekologiya və Təbii Sərvətlər Nazirliyinə" sözləri "Azərbaycan Respub-likasının Kənd Təsərrüfatı Nazirliyinə, Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyinə və Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyinə" sözləri ilə əvəz edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Azərbaycan Respublikasının Nazirlər Kabineti

№ 484 QƏRAR Bakı şəhəri, 28 dekabr 2023-cü il

## "Radiotezliklərin müddətli ayrılmasına keçid ilə əlaqədar olaraq, radiotezlik istifadəçilərinə vurulan zərərə görə kompensasiyanın verilməsi şərtləri və mexanizmi"nin təsdiq edilməsi barədə

"Telekommunikasiya haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2022-ci il 27 dekabr tarixli 768-VIQD nömrəli Qanununun tətbiqi və "Telekommunikasiya haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2005-ci il 9 avqust tarixli 277 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin2023-cü il 4 fevral tarixli 2022 nömrəli Fərmanının 2.1.3-cü yarımbəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

"Radiotezliklərin müddətli ayrılmasına keçid ilə əlaqədar olaraq, radiotezlik istifadəçilərinə vurulan zərərə görə kompensasiyanın verilməsi şərtləri və mexanizmi" təsdiq edilsin (əlavə olunur).

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

*Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2023-cü il 28 dekabr tarixli 484 nömrəli Qərarı ilə təsdiq edilmişdir.*

## Radiotezliklərin müddətli ayrılmasına keçid ilə əlaqədar olaraq,radiotezlik istifadəçilərinə vurulan zərərə görə kompensasiyanın verilməsi ŞƏRTLƏRİ VƏ MEXANİZMİ

**1. Ümumi müddəalar**

1.1. Bu sənəd "Telekommunikasiya haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2022-ci il 27 dekabr tarixli 768-VIQD nömrəli Qanununun 2-ci maddəsinə uyğun olaraq hazırlanmışdır və radiotezliklərin (radiotezlik zolaqlarının) müddətli ayrılmasına keçid (bundan sonra - keçid) ilə əlaqədar olaraq radiotezlik istifadəçilərinə vurulan zərərə görə kompensasiyanın (bundan sonra - kompensasiya) verilməsi şərtlərini və mexanizmini müəyyən edir.

1.2. Kompensasiya Azərbaycan Respublikası Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin tabeliyində olan Dövlət Radiotezliklər İdarəsinin hesabına maliyyələşdirilir.

**2. Əsas anlayışlar**

2.1. Bu sənədin məqsədləri üçün istifadə olunan əsas anlayışlar aşağıdakı mənaları ifadə edir:

2.1.1. **radiotezlik istifadəçisi** - Azərbaycan Respublikasının qanunvericiliyində nəzərdə tutulmuş qaydada radiotezlikdən istifadəyə icazəsi olan hüquqi və fiziki şəxs;

2.1.2. **radioelektron vasitələr** - radiodalğaların ötürülməsi və (və ya) qəbulu üçün nəzərdə tutulmuş, köməkçi avadanlıqlar da daxil olmaqla bir və ya bir neçə ötürücü və (və ya) qəbuledici qurğulardan və ya belə cihazların komplektləşdiricilərindən ibarət texniki vasitələr;

2.1.3. **kompensasiya** - keçid ilə əlaqədar olaraq ayrılmış radiotezliklərin (radiotezlik zolaqlarının) qüvvədə olan tezlik zolaqlarının ayrılması cədvəlinə və radiotezliklər spektrinin perspektiv istifadə planına uyğunlaşdırılması zamanı vurulan zərərə görə verilən ödəniş.

2.2. Bu sənəddə istifadə olunan digər anlayışlar Azərbaycan Respublikasının digər normativ hüquqi aktları ilə müəyyən edilmiş mənaları ifadə edir.

**3. Kompensasiya məbləğinin müəyyən edilməsi qaydası**

3.1. Ayrılmış radiotezliklərin (radiotezlik zolaqlarının) qüvvədə olan tezlik zolaqlarının ayrılması cədvəlinə və radiotezliklər spektrinin perspektiv istifadə planına uyğunlaşdırılması məqsədilə Azərbaycan Respublikasının Radiotezliklər üzrə Dövlət Komissiyası (bundan sonra-Dövlət Komissiyası) tərəfindən müvafiq qərar qəbul edilir.

3.2. Dövlət Komissiyasının qəbul etdiyi qərar 10 (on) iş günü müddətində keçid ilə əlaqədar radiotezlik istifadəçisinə vurulan zərərə görə kompensasiyanın məbləğinin müəyyən edilməsi məqsədilə Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinə (bundan sonra - Nazirlik) göndərilir.

3.3. Radiotezlik istifadəçisinə vurulan zərərə görə kompensasiyanın məbləği Nazirlik tərəfindən müəyyən edilir.

3.4. Nazirlik kompensasiya məbləğini müəyyən etmək üçün aşağıdakı tədbirləri həyata keçirir:

3.4.1. radiotezlik istifadəçisi tərəfindən istifadə edilən radiotezliklərdə (radiotezlik zolaqlarında) istifadə olunan dövlət qeydiyyatında olan radioelektron vasitələrinin mövcudluğu və onların sayı haqqında məlumat toplayır və təhlil edir;

3.4.2. radioelektron vasitələrin bazar qiymətləri və amortizasiyası haqqında məlumat toplayır və təhlil edir;

3.4.3. radiotezlik istifadəçisinə ödəniləcək kompensasiya ilə əlaqədar müzakirələr aparır;

3.4.4. razılaşma əldə edilmədikdə və ya kompensasiya məbləğinin müəyyən edilməsində əlavə mütəxəssis rəyinə ehtiyac yarandıqda, radiotezlik istifadəçisinin hesabına müstəqil qiymətləndirici cəlb edir;

3.4.5. radiotezlik istifadəçisi tərəfindən istifadə edilən radiotezliklərdə (radiotezlik zolaqlarında) işləyən radioelektron vasitələri, onların sayı, bazar qiymətləri, amortizasiyası haqqında toplanılmış məlumatları təhlil edir və vurulmuş zərər üzrə ödəniləcək kompensasiyanın məbləğini müəyyən edir.

3.5. Dövlət Komissiyasının qərarı qeydiyyata alındığı tarixdən 30 (otuz) iş günü müddətində qiymətləndirmə təşkil olunur.

# Azərbaycan Respublikasının Nazirlər Kabineti

№ 486 QƏRAR Bakı şəhəri, 28 dekabr 2023-cü il

## Azərbaycan Respublikası Müdafiə Nazirliyinin Xüsusi Təyinatlı Qüvvələrinin zabit, gizir və müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçularına ödəniləcək artım əmsalının məbləğinin yuxarı həddinin müəyyən edilməsi və "Azərbaycan Respublikası Müdafiə Nazirliyinin hərbi və mülki işçilərinin aylıq vəzifə (tarif) maaşlarının və hərbi qulluqçularının hərbi rütbəyə görə maaşlarının məbləğlərinin təsdiq edilməsi, Azərbaycan Respublikası Nazirlər Kabinetinin "Azərbaycan Respublikası Müdafiə Nazirliyinin hərbi qulluqçularının və mülki işçilərinin vəzifə (tarif) maaşlarının artırılması haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2004-cü il 21 avqust tarixli 115-12 nömrəli qərarına əlavə edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2006-cı il 14 mart tarixli 73-3 nömrəli qərarına və "Azərbaycan Respublikası Müdafiə Nazirliyinin hərbi qulluqçularının (müddətli həqiqi hərbi xidmət hərbi qulluqçuları istisna olmaqla) və mülki işçilərinin aylıq vəzifə (tarif) maaşlarının məbləğinin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2006-cı il 12 sentyabr tarixli 199-20 nömrəli qərarına dəyişikliklər edilməsi haqqında" 2008-ci il 26 yanvar tarixli 16-2 nömrəli, "Azərbaycan Respublikası Müdafiə Nazirliyinin hərbi qulluqçularının və dövlət qulluqçusu olmayan mülki işçilərinin aylıq vəzifə (tarif) maaşlarının məbləğlərinin təsdiq edilməsi və "Azərbaycan Respublikasının Müdafiə Nazirliyinin hərbi qulluqçularının və dövlət qulluqçusu olmayan mülki işçilərinin aylıq vəzifə (tarif) maaşlarının məbləğlərinin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2016-cı il 4 mart tarixli 115-5 nömrəli qərarında dəyişikliklər edilməsi haqqında" 2018-ci il 13 aprel tarixli 148-10 nömrəli qərarlarında dəyişikliklər edilməsi və "Azərbaycan Respublikası Müdafiə Nazirliyinin hərbi qulluqçularının və dövlət qulluqçusu olmayan mülki işçilərinin aylıq vəzifə (tarif) maaşlarının məbləğlərinin təsdiq edilməsi və "Azərbaycan Respublikası Müdafiə Nazirliyinin hərbi qulluqçularının və dövlət qulluqçusu olmayan mülki işçilərinin aylıq vəzifə (tarif) maaşlarının məbləğlərinin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2016-cı il 4 mart tarixli 115-5 nömrəli qərarında dəyişikliklər edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2018-ci il 13 aprel tarixli 148-10 nömrəli Qərarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 11 aprel tarixli 154-4 nömrəli Qərarının ləğv edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 6 sentyabr tarixli 394 nömrəli Qərarında dəyişiklik edilməsi barədə

"Azərbaycan Respublikası Müdafiə Nazirliyinin Xüsusi Təyinatlı Qüvvələrinin hərbi qulluqçularının vəzifə maaşlarının artırılması haqqında" Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 7 noyabr tarixli 2342 nömrəli Fərmanının 4-cü hissəsinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. Azərbaycan Respublikası Müdafiə Nazirliyinin Xüsusi Təyinatlı Qüvvələrinin və Hərbi Dəniz Qüvvələrinin Dəniz Xüsusi Təyinatlı hərbi hissəsinin hərbi qulluqçularına vəzifələr üzrə ödəniləcək artım əmsalının məbləğinin yuxarı həddi müəyyən edilsin (1 nömrəli əlavə, məxfi).

2. "Azərbaycan Respublikası Müdafiə Nazirliyinin hərbi və mülki işçilərinin aylıq vəzifə (tarif) maaşlarının və hərbi qulluqçularının hərbi rütbəyə görə maaşlarının məbləğlərinin təsdiq edilməsi, Azərbaycan Respublikası Nazirlər Kabinetinin "Azərbaycan Respublikası Müdafiə Nazirliyinin hərbi qulluqçularının və mülki işçilərinin vəzifə (tarif) maaşlarının artırılması haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2004-cü il 21 avqust tarixli 115-12 nömrəli qərarına əlavə edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2006-cı il 14 mart tarixli 73-3 nömrəli qərarına və "Azərbaycan Respublikası Müdafiə Nazirliyinin hərbi qulluqçularının (müddətli həqiqi hərbi xidmət hərbi qulluqçuları istisna olmaqla) və mülki işçilərinin aylıq vəzifə (tarif) maaşlarının məbləğinin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2006-cı il 12 sentyabr tarixli 199-20 nömrəli qərarına dəyişikliklər edilməsi haqqında" 2008-ci il 26 yanvar tarixli 16-2 nömrəli, "Azərbaycan Respublikası Müdafiə Nazirliyinin hərbi qulluqçularının və dövlət qulluqçusu olmayan mülki işçilərinin aylıq vəzifə (tarif) maaşlarının məbləğlərinin təsdiq edilməsi və "Azərbaycan Respublikasının Müdafiə Nazirliyinin hərbi qulluqçularının və dövlət qulluqçusu olmayan mülki işçilərinin aylıq vəzifə (tarif) maaşlarının məbləğlərinin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2016-cı il 4 mart tarixli 115-5 nömrəli qərarında dəyişikliklər edilməsi haqqında" 2018-ci il 13 aprel tarixli 148-10 nömrəli qərarlarında dəyişikliklər edilməsi və "Azərbaycan Respublikası Müdafiə Nazirliyinin hərbi qulluqçularının və dövlət qulluqçusu olmayan mülki işçilərinin aylıq vəzifə (tarif) maaşlarının məbləğlərinin təsdiq edilməsi və "Azərbaycan Respublikası Müdafiə Nazirliyinin hərbi qulluqçularının və dövlət qulluqçusu olmayan mülki işçilərinin aylıq vəzifə (tarif) maaşlarının məbləğlərinin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2016-cı il 4 mart tarixli 115-5 nömrəli qərarında dəyişikliklər edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2018-ci il 13 aprel tarixli 148-10 nömrəli Qərarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 11 aprel tarixli 154-4 nömrəli Qərarının ləğv edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 6 sentyabr tarixli 394 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019, № 9, maddə 1548; 2022, № 8, maddə 999; 2023, № 2, maddə 323; Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2022-ci il 28 yanvar tarixli 32 nömrəli, 15 mart tarixli 86 nömrəli və 8 iyul tarixli 262 nömrəli qərarları) ilə təsdiq edilmiş 1 nömrəli əlavənin 3.6-cı, 4.3-cü və 6.1-ci hissələri yeni redaksiyada verilsin (2 nömrəli əlavə, məxfi).

3. Azərbaycan Respublikasının Müdafiə Nazirliyi, Azərbaycan Respublikasının Maliyyə Nazirliyi və Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi bu Qərardan irəli gələn məsələləri həll etsinlər.

4. Bu Qərar 2022-ci il dekabrın 1-dən (bu Qərarın 2-ci hissəsində göstərilən əlavənin 4.3-cü bəndinin ilk on dörd sətrindəki vəzifələr üzrə 2023-cü il yanvarın 1-dən) tətbiq edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Azərbaycan Respublikasının Nazirlər Kabineti

№ 485

QƏRAR

Bakı şəhəri, 28 dekabr 2023-cü il

## ”Dövlət orqanlarının (qurumlarının) və yerli özünüidarəetmə orqanlarının istifadə etməli olduqları texnoloji avadanlığa və proqram təminatına dair tələblərə uyğunluğun müəyyənləşdirilməsi Qaydası”nın təsdiq edilməsi haqqında

"İnnovasiya və Rəqəmsal İnkişaf Agentliyinin fəaliyyətinin təmin edilməsi və Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Respublikası Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin tabeliyində İnnovasiyalar Agentliyinin yaradılması haqqında" 2018-ci il 6 noyabr tarixli 325 nömrəli, "Azərbaycan Respublikası Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin tabeliyində İnnovasiyalar Agentliyinin fəaliyyətinin təmin edilməsi haqqında" 2019-cu il 22 fevral tarixli 545 nömrəli fərmanlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 21 oktyabr tarixli 1862 nömrəli Fərmanının 2.1-ci bəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. "Dövlət orqanlarının (qurumlarının) və yerli özünüidarəetmə orqanlarının istifadə etməli olduqları texnoloji avadanlığa və proqram təminatına dair tələblərə uyğunluğun müəyyənləşdirilməsi Qaydası" təsdiq edilsin (əlavə olunur).

2. Bu Qərarda dəyişiklik Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 6 oktyabr tarixli 2328 nömrəli Fərmanı ilə təsdiq edilmiş "İcra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının layihələrinin hazırlanması, razılaşdırılması, qəbul edilməsi və dərc edilməsi qaydası haqqında Əsasnamə"nin 3.5-ci bəndinə uyğun edilə bilər.

*Əli ƏSƏDOV,*
*Azərbaycan Respublikasının Baş naziri*

**Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2023-cü il 28 dekabr tarixli 485 nömrəli Qərarı ilə təsdiq edilmişdir.**

## Dövlət orqanlarının (qurumlarının) və yerli özünüidarəetmə orqanlarının istifadə etməli olduqları texnoloji avadanlığa və proqram təminatına dair tələblərə uyğunluğun müəyyənləşdirilməsi Qaydası

### 1. Ümumi müddəalar

1.1. Bu Qayda dövlət orqanlarının (qurumlarının) və yerli özünüidarəetmə orqanlarının informasiya sistemlərinin və ehtiyatlarının formalaşdırılması, aparılması, inteqrasiyası və arxivləşdirilməsi, habelə elektron xidmətlərin təşkili və göstərilməsi üçün istifadə etməli olduqları texnoloji avadanlığın və proqram təminatının bu Qaydanın 1.2-ci bəndində qeyd olunan texniki tələblərə uyğunluğunun müəyyənləşdirilməsi (bundan sonra - uyğunluğun müəyyənləşdirilməsi) ilə bağlı məsələləri tənzimləyir.

1.2. Dövlət orqanlarının (qurumlarının) və yerli özünüidarəetmə orqanlarının istifadə etməli olduqları texnoloji avadanlığa və proqram təminatına dair texniki tələblər "İnnovasiya və Rəqəmsal İnkişaf Agentliyinin fəaliyyətinin təmin edilməsi və Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Respublikası Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin tabeliyində İnnovasiyalar Agentliyinin yaradılması haqqında" 2018-ci il 6 noyabr tarixli 325 nömrəli, "Azərbaycan Respublikası Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin tabeliyində İnnovasiyalar Agentliyinin fəaliyyətinin təmin edilməsi haqqında" 2019-cu il 22 fevral tarixli 545 nömrəli fərmanlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 21 oktyabr tarixli 1862 nömrəli Fərmanının 3.1-ci bəndinə əsasən Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi (bundan sonra - Nazirlik) tərəfindən müəyyən edilir.

1.3. Dövlət orqanları (qurumları) və yerli özünüidarəetmə orqanları (bundan sonra - qurum) bu Qaydanın 1.2-ci bəndində qeyd olunan texniki tələblərə uyğunluğu bu Qaydaya müvafiq olaraq müəyyənləşdirilən texnoloji avadanlıqdan və proqram təminatından istifadə etməlidir.

1.4. Bu Qayda ali kateqoriya dövlət orqanları, mühafizə olunan şəxslər, kəşfiyyat və əks-kəşfiyyat fəaliyyətinin subyektləri tərəfindən, habelə qorunan obyektlər və dövlət sirri təşkil edən məlumatların işlənilməsi üzrə istifadə edilməsi nəzərdə tutulan texnoloji avadanlığa və proqram təminatına şamil olunmur.

### 2. Uyğunluğun müəyyənləşdirilməsinin həyata keçirilməsi qaydaları

2.1. Uyğunluğun müəyyənləşdirilməsi üçün qurum ərizə ilə Nazirliyə müraciət edir. Ərizədə qurumun adı, hüquqi ünvanı, VÖEN-i, əlaqə telefonu, internet informasiya ehtiyatı, elektron poçt ünvanı, fəaliyyət sahəsi, eləcə də qurumu səlahiyyətli nümayəndə təmsil etdikdə onun soyadı, adı, atasının adı, FİN-i, əlaqə telefonu və elektron poçt ünvanı qeyd edilir. Ərizə ona əlavə edilmiş sənədlərlə birlikdə elektron qaydada Nazirliyə təqdim olunur. Ərizə qurumun rəhbəri və ya səlahiyyətli nümayəndəsi tərəfindən imzalanır.

2.2. Ərizə hazırlanan proqram təminatına və istehsal edilən texnoloji avadanlığa münasibətdə nümunənin hazırlanma mərhələsində, alınan texnoloji avadanlığa və proqram təminatına münasibətdə isə satınalınma ilə bağlı Müqavilə imzalandıqdan sonra təqdim olunur.

2.3. Ərizəyə aşağıdakı sənədlər (məlumatlar) əlavə olunur:

2.3.1. qurumun vergi ödəyicisi kimi uçota alınması haqqında şəhadətnamənin surəti (olduqda), hüquqi şəxs olduqda isə hüquqi şəxslərin dövlət reyestrindən çıxarışının surəti;

2.3.2. qurumu səlahiyyətli nümayəndə təmsil etdikdə onun şəxsiyyətini təsdiq edən sənədin surəti və səlahiyyətini təsdiq edən sənəd;

2.3.3. müvafiq proqram təminatının lisenziyası, habelə texnoloji avadanlığın və proqram təminatının istifadə edildiyi informasiya təminatı üçün nəzərdə tutulan və ya konfidensial informasiyanın işlənməsini həyata keçirən informasiya sistemlərinin və ehtiyatlarının, eləcə də bu sistemlərin və ehtiyatların mühafizə vasitələrinin, habelə texnoloji avadanlığın sertifikatları (nömrəsi, verilmə tarixi, qüvvədə olma müddəti və sənədi verən qurum);

2.3.4. texnoloji avadanlıq və proqram təminatı haqqında məlumat (sayı, modeli, istehsal tarixi, təyinatı, funksiyaları və digər parametrləri);

2.3.5. texnoloji avadanlığın və proqram təminatının istehsalçısı haqqında məlumat (adı, VÖEN-i, elektron poçt ünvanı, hüquqi ünvanı, telefon və faks nömrələri);

2.3.6. texnoloji avadanlığa və proqram təminatına texniki dəstək verən şəxs haqqında məlumat (VÖEN-i, elektron poçt ünvanı, telefon və faks nömrələri, hüquqi şəxsin adı və hüquqi ünvanı, fiziki şəxsin adı və soyadı, qeydiyyat və fəaliyyət ünvanı);

2.3.7. proqram təminatı ilə bağlı texniki şərtlərə və texniki tapşırıqlara (həllər toplusuna) dair sənədlər;

2.3.8. proqram təminatını hazırlayan və ya hazırlanmasına sifariş verən şəxs (qurum) tərəfindən proqram təminatı ilə bağlı verilən dizayn sənədi;

2.3.9. proqram təminatı komponentlərinin və parametrlərinin baza vəziyyətinin inventar uçotu sənədi;

2.3.10. proqram təminatını hazırlayan və ya hazırlanmasına sifariş verən şəxs (qurum) tərəfindən proqram təminatının arxitekturası ilə bağlı müəyyən edilən tələblərə dair sənəd;

2.3.11. proqram təminatını hazırlayan və ya hazırlanmasına sifariş verən şəxs (qurum) tərəfindən proqram təminatının istismara verilməsi üçün verilən arxitektura dizaynı sənədləri;

2.3.12. proqram təminatının istismara verilməsi üçün istifadəçi təlimatları;

2.3.13. proqram təminatının istismara verilməsi üçün inzibatçı təlimatları;

2.3.14. proqram təminatının istismara verilməsi üçün quraşdırılma, sazlama və texniki xidmət üzrə təlimatlar;

2.3.15. proqram təminatının istismara verilməsi üçün təhlükəsizlik və funksionallıq testləri üzrə ssenarilər və testlərin nəticələri, o cümlədən uyğunsuzluqlar barədə hesabat (olduqda);

2.3.16. proqram təminatının istismara verilməsi üçün mənbə kodlarının saxlanma yeri və mənbə koduna təhlükəsiz giriş üçün təlimat (hazır həllər istisna olmaqla);

2.3.17. proqram təminatının istismarı müddətində formalaşan məlumatların ehtiyat nüsxələrinin çıxarılması və bərpası prosesinə dair sənəd;

2.3.18. proqram təminatının fəaliyyətinin dayandığı hallar üçün onun bərpaedilmə müddəti və həmin müddət ərzində istifadə ediləcək alternativ üsullara (vasitələrə) dair sənəd;

2.3.19. proqram təminatının istismarı müddətində texniki dəstək səviyyələri və onların göstərilmə prosesinə dair sənəd;

2.3.20. proqram təminatının istismardan çıxarılması və ya yenisi ilə əvəzlənməsi üzrə təlimat;

2.3.21. proqram təminatında bütün zəruri əməliyyat tarixçələrinin qeydiyyatının aparılmasına, həmin qeydiyyatların təhlükəsizliyini (tamlığını, əlçatanlığını və konfidensiallığını) təminetmə mexanizminə, qeydiyyat prosesinə və həmin qeydiyyatın saxlanma müddətinə dair sənəd;

2.3.22. texnoloji avadanlığın texniki göstərici və xüsusiyyətlərinə dair sənəd;

2.3.23. texnoloji avadanlığın istismara qəbulu prosesinə dair sənəd;

2.3.24. texnoloji avadanlığın təhlükəsizliyin qiymətləndirilməsi testlərinin nəticələrinə dair sənəd;

2.3.25. texnoloji avadanlığın saxlanılması, istismarı və istifadəsi ilə bağlı təlimatlar;

2.3.26. texnoloji avadanlığın istismarı müddətində texniki dəstək səviyyələri və onların göstərilmə prosesinə dair sənəd;

2.3.27. texnoloji avadanlığın fəaliyyətinin dayandığı hallar üçün alternativ üsullara dair sənəd;

2.3.28. texnoloji avadanlığa istehsalçı tərəfindən dəstək dayandırıldıqda onun istismardan çıxarılması planı.

2.4. Bu Qaydanın 2.3.1-ci, 2.3.2-ci, 2.3.5-ci və 2.3.6-cı yarımbəndlərində göstərilən sənədlərin və ya məlumatların Elektron Hökumət İnformasiya Sistemi vasitəsilə müvafiq dövlət orqanından (qurumundan) əldə edilməsi mümkün olduqda, həmin sənədlər və ya məlumatlar qurumdan tələb edilmir. Belə sənədlərin və ya məlumatların Elektron Hökumət İnformasiya Sistemi vasitəsilə əldə edilməsi mümkün olmadığı hallarda onların təqdim edilməsi qurumun razılığı ilə sorğu əsasında müvafiq dövlət orqanından (qurumundan) tələb olunur və ya qurum tərəfindən təmin edilir.

2.5. Ərizə Nazirliyə daxil olduğu gün qeydiyyata alınır. Nazirlik ərizənin qeydiyyata alındığı vaxtdan 30 (otuz) gün müddətində şəhadətnamənin verilməsi və ya verilməsindən imtina haqqında əsaslandırılmış qərar qəbul edir. Həmin müraciətlər üzrə icraatın yekunlaşdırılması üçün sənədləri araşdırmaq, əlavə məlumatları əldə etmək, aidiyyəti üzrə sorğu göndərmək məqsədilə icraatın müddəti Nazirlik tərəfindən 30 (otuz) gün müddətində uzadıla bilər. Nazirlik tərəfindən müddətin uzadılması barədə ərizə verən quruma 2 (iki) iş günü müddətində məlumat verilir.

2.6. Ərizədə və ona əlavə edilmiş sənədlərdə (məlumatlarda) aradan qaldırılması mümkün olan, eləcə də bu Qaydanın 1.2-ci bəndində qeyd edilən texniki tələblərə uyğunluğa dair şəhadət-namənin (bundan sonra - şəhadətnamə) verilməsindən imtinaya səbəb olmayan çatışmazlıqlar aşkar edildikdə, ərizənin qeydiyyata alındığı tarixdən 15 (on beş) gündən gec olmayaraq, Nazirlik onların aradan qaldırılması barədə məlumatı quruma təqdim edir. Eyni zamanda quruma formal tələblərə əməl olunmamasının hüquqi nəticələri izah edilir və bütün çatışmazlıqlar bildirilir.

2.7. Qurum bu Qaydanın 2.6-cı bəndində göstərilən çatışmazlıqları məlumatı aldığı tarixdən ən geci 10 (on) iş günü müddətində aradan qaldırmalıdır. Bu zaman bu Qaydanın 2.5-ci bəndində nəzərdə tutulmuş müddətin axımı dayandırılır və dayandırılmış müddət uyğunluğun müəyyənləşdirilməsi müddətinə daxil edilmir. Çatışmazlıqların aradan qaldırılması barədə qurumun müraciətindən sonra müddətin axımı bərpa olunur.

2.8. Qurum ərizədə və ona əlavə edilmiş sənədlərdə (məlumatlarda) aşkar olunmuş çatışmazlıqları bu Qaydanın 2.7-ci bəndində göstərilən müddətdə aradan qaldırmadıqda, Nazirlik ərizənin baxılmamış saxlanılması haqqında qərar qəbul edir və bu barədə məlumatı 2 (iki) iş günü müddətində quruma təqdim edir.

2.9. Qurum aşkar olunmuş çatışmazlıqları aradan qaldırdıqdan sonra uyğunluğun müəyyənləşdirilməsi üçün bu Qaydanın 2.1-2.3-cü bəndlərinin tələblərinə əməl etməklə təkrar ərizə ilə Nazirliyə müraciət edə bilər.

2.10. Ərizədə və ona əlavə edilmiş sənədlərdə (məlumatlarda) çatışmazlıqlar aşkar edilmədikdə, yaxud bu Qaydanın 2.7-ci bəndinə uyğun olaraq çatışmazlıqlar aradan qaldırıldıqda həmin sənədlər (məlumatlar) baxılması məqsədilə Nazirlikdə yaradılmış və daimi əsaslarla fəaliyyət göstərən İşçi qrupa təqdim edilir. İşçi qrup Nazirlik tərəfindən aşağıdakı tərkibdə formalaşdırılır:

2.10.1. Nazirlik;

2.10.2. Azərbaycan Milli Elmlər Akademiyası;

2.10.3. İnnovasiya və Rəqəmsal İnkişaf Agentliyi;

2.10.4. İnformasiya Kommunikasiya Texnologiyaları Agentliyi;

2.10.5. "AzInTelecom" Məhdud Məsuliyyətli Cəmiyyəti;

2.10.6. Nazirlik tərəfindən cəlb edilən müstəqil ekspertlər.

2.11. İşçi qrup qurumun istifadə etməli olduğu texnoloji avadanlığa və proqram təminatına baxış keçirir və test edir, nəticələrini aktla rəsmiləşdirir, eləcə də təqdim olunan sənədləri (məlumatları) araşdırır və təhlil edir. Bundan sonra həmin texnoloji avadanlığın və proqram təminatının bu Qaydanın 1.2-ci bəndində qeyd olunan texniki tələblərə uyğunluğunun müəyyənləşdirilməsi məqsədilə keçirilən iclasda müvafiq rəy tərtib olunur və təsdiq edilir.

2.12. Qurumun istifadə etməli olduğu texnoloji avadanlığa və proqram təminatına baxış keçirilməsi və test edilməsi barədə aktda aşağıdakılar göstərilir:

2.12.1. aktın tərtib edilmə tarixi və yeri;

2.12.2. baxış keçirən və test edən şəxslərin vəzifəsi, adı, soyadı və atasının adı;

2.12.3. baxış keçirilən və test edilən texnoloji avadanlıq və proqram təminatı haqqında məlumat (sayı, təqdim edən qurumun adı, istehsalçısı (adı, VÖEN-i, elektron poçt ünvanı, hüquqi ünvanı, telefon və faks nömrələri), modeli, istehsal tarixi, təyinatı, funksiyaları və digər parametrləri);

2.12.4. keçirilən baxış və test zamanı müəyyən edilən hallar;

2.12.5. baxış keçirən və test edən şəxslərin imzası.

2.13. İşçi qrupun fəaliyyətinə Nazirlik tərəfindən bu Qaydanın 2.10.1-ci yarımbəndində qeyd olunan şəxslər sırasından təyin edilən üzv sədrlik edir. İşçi qrupun iclasları üzvlərinin yarıdan çoxu iştirak etdikdə səlahiyyətlidir. İşçi qrupun iclasında hər üzvün bir səsi olmaqla, qərarlar açıq səsvermə yolu və sadə səs çoxluğu ilə qəbul edilir. Səsvermə zamanı üzvlərin bitərəf qalmasına icazə verilmir. Səslərin sayı bərabər olduqda, iclasa sədrlik edənin səsi həlledicidir. İşçi qrupun sadə səs çoxluğu ilə təsdiq edilmiş müvafiq rəyi (texnoloji avadanlığın və proqram təminatının bu Qaydanın 1.2-ci bəndində qeyd olunan texniki tələblərə uyğun olması və ya olmaması barədə) Nazirliyə təqdim edilir. Qeyd edilən rəylə razılaşmayan İşçi qrupun üzvü bununla bağlı özünün xüsusi rəyini Nazirliyə təqdim edə bilər.

2.14. Uyğunluğun müəyyənləşdirilməsi informasiya ehtiyatlarının və sistemlərinin, habelə elektron xidmətlərin formalaşdırılması ilə bağlı layihələrin hazırlanması, sınağının aparılması, təkmilləşdirilməsi və səmərəli istifadə imkanlarının artırılması, eləcə də onların texniki və səmərəliliyi baxımından məqsədəuyğunluğu barədə rəy verilməsi və ya qiymətləndirilməsinə dair proseslərin həyata keçirilməsi zamanı bu Qaydanın 2.1-ci və 2.3-cü bəndlərində qeyd olunan sənədlər (məlumatlar) üzrə, bu Qaydanın 2.4-2.13-cü bəndlərinə və 3-cü hissəsinə uyğun olaraq həyata keçirilir.

2.15. Uyğunluğun müəyyənləşdirilməsi məqsədilə texnoloji avadanlığa və proqram təminatına baxış keçirilməsi və test edilməsi, o cümlədən bu Qaydanın 2.14-cü bəndində qeyd olunan fəaliyyətlərin həyata keçirilməsi zamanı Nazirlik tərəfindən 5 (beş) iş günü əvvəl qurumlar məlumatlandırılır.

2.16. Bu Qaydanın 2.14-cü bəndində qeyd olunan fəaliyyətlərin həyata keçirilməsi zamanı bu Qaydanın 2.1-ci və 2.3-cü bəndlərində qeyd olunan sənədlərdə (məlumatlarda) çatışmazlıqlar aşkar etdikdə, qurumlar ən geci 2 (iki) iş günü ərzində Nazirliyə müvafiq sənədləri (məlumatları) təqdim etməli, həmçinin texnoloji avadanlığa və proqram təminatına baxış keçirilməsi və test edilməsi üçün zəruri şərait yaratmalıdır.

### 3. Uyğunluğun müəyyənləşdirilməsinin nəticələrinin rəsmiləşdirilməsi

3.1. Nazirlik informasiya təhlükəsizliyi üzrə rəy verilməsi üçün qurumun istifadə etməli olduğu texnoloji avadanlığın və proqram təminatının bu Qaydanın 1.2-ci bəndində qeyd olunan texniki tələblərə uyğunluğuna dair İşçi qrupun rəyini və bu Qaydanın 2.3-cü bəndində göstərilən sənədləri (məlumatları) Azərbaycan Respublikasının Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidmətinə (bundan sonra - Dövlət Xidməti) təqdim edir.

3.2. Müvafiq sənədlər (məlumatlar) təqdim olunduqdan sonra Dövlət Xidməti 5 (beş) iş günü müddətində informasiya təhlükəsizliyi üzrə əsaslandırılmış rəyini Nazirliyə təqdim edir.

3.3. Nazirlik İşçi qrupun və Dövlət Xidmətinin rəylərinə əsasən qurumun istifadə etməli olduğu texnoloji avadanlığın və proqram təminatının bu Qaydanın 1.2-ci bəndində qeyd olunan texniki tələblərə uyğunluğuna dair şəhadətnamənin verilməsi və ya verilməsindən imtina haqqında əsaslandırılmış qərar qəbul edir.

3.4. Qərarda aşağıdakılar göstərilir:

3.4.1. qərarın adı, qəbul olunma tarixi və yeri, qeydiyyat nömrəsi;

3.4.2. qərarı qəbul etmiş qurumun adı;

3.4.3. qərarın ünvanlandığı qurumun adı, hüquqi ünvanı və VÖEN-i;

3.4.4. barəsində qərar qəbul edilən texnoloji avadanlıq və proqram təminatı;

3.4.5. inzibati qaydada və məhkəməyə şikayət etmək hüququ haqqında məlumat;

3.4.6. Azərbaycan Respublikası rəqəmsal inkişaf və nəqliyyat nazirinin (o olmadıqda isə onun vəzifələrini icra edən şəxsin) imzası, soyadı, adı və atasının adı;

3.4.7. Nazirliyin möhürü.

3.5. Şəhadətnamənin verilməsi haqqında qərar şəhadətnamə ilə birlikdə qərarın qəbul edildiyi tarixdən 3 (üç) iş günü müddətində quruma təqdim edilir.

3.6. Şəhadətnamə bu Qaydanın əlavəsi ilə müəyyən edilmiş formada və müddətsiz verilir.

3.7. Şəhadətnamənin verilməsindən aşağıdakı hallarda imtina edilir:

3.7.1. bu Qaydanın 2.6-cı bəndində nəzərdə tutulmuş hal istisna olmaqla, ərizədə və ona əlavə olunmuş sənədlərdə (məlumatlarda) səhv və ya təhrif olunmuş məlumatlar olduqda;

3.7.2. qurumun istifadə etməli olduğu texnoloji avadanlıq və proqram təminatı bu Qaydanın 1.2-ci bəndində qeyd edilən texniki tələblərə uyğun olmadıqda;

3.7.3. Dövlət Xidməti tərəfindən mənfi rəy verildikdə.

3.8. Nazirlik şəhadətnamənin verilməsindən imtina haqqında qərarı 3 (üç) iş günü müddətində quruma təqdim edir.

3.9. Şəhadətnamənin verilməsindən imtina edilən texnoloji avadanlığın və proqram təminatının qurumlar tərəfindən istifadə edilməsinə yol verilmir.

3.10. Qurum şəhadətnamənin verilməsindən imtina haqqında qərardan inzibati qaydada və (və ya) məhkəməyə şikayət verə bilər.

### 4. Şəhadətnamənin dublikatının verilməsi qaydası

4.1. Şəhadətnamə itirildikdə və ya zədələndikdə, şəhadətnamənin sahibi olan qurum onun dublikatının verilməsi üçün Nazirliyə bu Qaydanın 2.1-ci bəndinin tələbinə əməl etməklə kağız və ya elektron qaydada ərizə ilə müraciət edir. Zədələnmiş şəhadətnamə qurum tərəfindən qeyd edilən ərizə ilə birlikdə Nazirliyə təqdim olunur.

4.2. Nazirlik ərizənin daxil olduğu tarixdən 3 (üç) iş günü müddətində şəhadətnamənin dublikatını hazırlayaraq quruma təqdim edir.

4.3. Şəhadətnamənin dublikatı itirilmiş və ya zədələnmiş şəhadətnamə ilə eyni hüquqi qüvvəyə malikdir.

### 5. Şəhadətnamənin ləğv edilməsi qaydası

5.1. Şəhadətnamə aşağıdakı hallarda ləğv edilir:

5.1.1. şəhadətnamənin sahibi olan qurum ləğv edildikdə;

5.1.2. şəhadətnamə verilən texnoloji avadanlığın və proqram təminatının istismarı dayandırıldıqda (istismar müddəti başa çatdıqda, texnoloji avadanlıq məhv edildikdə, proqram təminatı arxivləşdirildikdə);

5.1.3. şəhadətnamə verilən texnoloji avadanlıqda və proqram təminatında bu Qaydanın 1.2-ci bəndində qeyd olunan texniki tələblərə uyğun olmayan dəyişikliklər edildikdə.

5.2. Şəhadətnamə bu Qaydanın 5.1-ci bəndində göstərilən hallara istinad edilməklə, Nazirliyin qərarı (qurumun müraciəti və ya Nazirliyin müəyyən etdiyi hallar əsasında qəbul edilən) ilə ləğv edilir. Həmin qərar qəbul olunduğu tarixdən 2 (iki) iş günü müddətində şəhadətnamənin sahibinə təqdim edilir. Şəhadətnamə ləğv edildikdə 3 (üç) iş günü müddətində həmin şəhadətnamə qurum tərəfindən Nazirliyə qaytarılır.

5.3. Qurumun adı dəyişdirildikdə və ya bu qurum adının dəyişdirilməsinə səbəb olan birləşmə, qoşulma, çevrilmə yolu ilə yenidən təşkil edildikdə, əvvəlki adı əks etdirən şəhadətnamənin ad dəyişmə hissəsində Nazirlik tərəfindən dəyişikliklər edilir. Belə dəyişikliklər edilənədək əvvəlki adı əks etdirən şəhadətnamə dəyişdirilmiş (yeni yaradılmış) quruma tam həcmdə şamil olunur.

**"Dövlət orqanlarının (qurumlarının) və yerli özünüidarəetmə orqanlarının istifadə etməli olduqları texnoloji avadanlığa və proqram təminatına dair tələblərə uyğunluğun müəyyənləşdirilməsi Qaydası"na əlavə**

### Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi

### ŞƏHADƏTNAMƏ

№ _____ “____” __________ 20__ il

______________________________(şəhadətnamənin verildiyi dövlət orqanının (qurumunun) və ya yerli özünüidarəetmə orqanının tam adı və VÖEN-i)

(şəhadətnamənin verildiyi dövlət orqanının (qurumunun) və ya yerli özünüidarəetmə orqanının hüquqi ünvanı)

(texnoloji avadanlıq və proqram təminatı)

Bu şəhadətnamə dövlət orqanlarının (qurumlarının) və yerli özünüidarəetmə orqanlarının istifadə etməli olduqları texnoloji avadanlığın və proqram təminatının texniki tələblərə uyğunluğunu təsdiq edir.

__________ (soyadı, adı) __________ (məsul şəxsin vəzifəsi) __________ (imzası)

MY.



Heydər Əliyev İli 2023

# Ümummilli Lider Heydər Əliyev diaspor quruculuğunun banisidir

**Tarix ən böyük dərsdir, onu öyrənmək və doğru qiymətləndirməyi bacarmaq lazımdır. Tarixi düzgün qiymətləndirmək həm perspektivlə bağlı daha doğru düşüncəyə sahib olmağa, həm də daha gözəl planlar qurmağa imkan verir. Məhz bu baxımdan diasporumuzun formalaşma tarixinə, xaricdəki icmalarımızın təşəkkülünə nəzər salanda görkəmli dövlət xadimi, Ulu Öndər Heydər Əliyevin böyük bir tarixi əsəri - güclü Azərbaycan diasporu qarşımızda durur.**



## Tarixdən dərs götürmək

Diasporla İş üzrə Dövlət Komitəsi diaspor siyasətinin həyata keçirilməsinə məsul bir qurum kimi fəaliyyətinin istənilən məqamında məhz həmin tarixi dərsdən - Ümummilli Liderin yaratdığı konsepsiyadan, təməl prinsiplərdən faydalanır.

Ulu Öndər hər xarici səfərində müxtəlif ölkələrdə yaşayan azərbaycanlılarla görüşüb, onlara tövsiyələrini verib və təşkilatlanmağın, Azərbaycanla bağlarını möhkəmləndirməyin yollarını göstərməklə yanaşı, bunun mühüm tarixi əhəmiyyətini izah edib. Görkəmli dövlət xadiminin hər bir tövsiyəsi bu gün də aktualdır, müasirdir və məhz bu səbəbdəndir ki, diaspor siyasəti sahəsində Azərbaycanda yaradılmış mexanizmi müxtəlif ölkələrin oxşar qurumları öyrənir, istifadə edir.

## Diaspor hərəkatının inkişafı üçün sistemli iş

Ümummilli Lider xarici səfərlərinin birində soydaşlarımızla görüşərkən bu fikirləri ifadə etmişdi: "Siz bilirsiniz ki, dekabrın 31-ni Dünya Azərbaycanlılarının Həmrəylik Günü elan etmişik. Həmin gün mən Azərbaycan Respublikasının vətəndaşlarını Yeni il bayramı münasibətilə təbrik edərkən həm Azərbaycanda, həm də bütün dünyada yaşayan azərbaycanlıları Həmrəylik Günü münasibətilə təbrik etdim. Üzümü bütün dünya azərbaycanlılarına tutub müraciət etdim: bilin ki, sizin Vətəniniz var və hamınız öz Vətəninizlə əlaqədə olun".

Heydər Əliyev xaricdəki soydaşlarımızın hər nəslinə xitab edib, diasporun, sözün həqiqi mənasında, "hərəkət trayektoriyası"nı cızıb. Ulu Öndərin siyasi uzaqgörənliyi nəticəsində diaspor hərəkatının inkişafı üçün xüsusi sistem yaradılıb. Bu sistem xaricdəki azərbaycanlıların sıx birləşməsinə, öz bilik, bacarıq və təcrübələrini ana vətən üçün sərf etməsinə şərait yaradıb, milli birliyə mane olan bütün amillərin heçə endirilməsinə təkan verib. Diasporla hər görüşündə müstəqillik amilini xüsusilə vurğulayan görkəmli dövlət xadiminin "Mən fəxr edirəm ki, azərbaycanlıyam!" ifadəsinin bütün dünyada yaşayan soydaşlarımıza ideoloji təsiri danılmaz və ölçüyəgəlməzdir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sərəncamı ilə 2023-cü ilin "Heydər Əliyev İli" elan edilməsi dünya azərbaycanlıları arasında böyük rəğbətlə qarşılanıb və soydaşlarımız, diaspor təşkilatları bu ilə öz layiqli töhfələrini vermək üçün əllərindən gələni əsirgəməyiblər.

Xaricdəki Azərbaycan icmaları, diaspor təşkilatları, koordinasiya şuraları, Azərbaycan evləri, "Qarabağ" məktəbləri və həftəsonu məktəbləri Diasporla İş üzrə Dövlət Komitəsinin dəstəyi ilə "Heydər Əliyev İli" çərçivəsində 200-dən çox tədbir təşkil edib, dekabrın 12-si Ümummilli Liderin anım günündə çoxsaylı kütləvi tədbirlər həyata keçiriblər. Tədbirlərdə Heydər Əliyevin həyat və fəaliyyətindən söhbət açılıb, görkəmli dövlət xadiminin Azərbaycan xalqı və dövlətçiliyi qarşısında misilsiz xidmətlərindən, əbədiyaşarlığından bəhs olunub. Müxtəlif ölkələrdə yaşayan soydaşlarımız Azərbaycan xalqına və dövlətçiliyinə əvəzsiz xidmət edən dahi siyasətçini sonsuz sayğı ilə yad ediblər.

Dərin mahiyyəti, çoxçeşidliliyi və əhatə dairəsi ilə diqqət çəkən, azərbaycanlılarla bərabər, əcnəbilərin də iştirak etdiyi bu tədbirlər xüsusi həssaslıqla hazırlanıb, dünya ictimaiyyətinin Ulu Öndərin həyat və fəaliyyəti ilə bağlı geniş məlumatlandırılmasında əvəzsiz rol oynayıb. Diasporumuz bu il çərçivəsindəki uğurlu fəaliyyəti ilə Ulu Öndərin ideyalarına sadiq qaldığını bir daha sübut edib.

Ümummilli Liderin 100 illiyinə həsr olunan beynəlxalq-elmi konfranslar, forumlar, simpoziumlar, təntənəli konsert proqramları, fotosərgilər, beynəlxalq idman yarışları, açıq dərslər, festivallar, intellektual oyunlar, ağacəkmə aksiyaları, sərgilər və digər tədbirlər onlarla ölkəni, yüzlərlə şəhəri əhatə edib. Xaricdəki icma nümayəndələri Heydər Əliyevin həyat və fəaliyyətindən bəhs edən sənədli filmlərin hazırlanmasına, təqaüd proqramlarının təsis edilməsinə, videoçarxlar istehsal edərək geniş yayılmasına və bununla da dünyada Ulu Öndərin daha geniş təbliğ olunmasına nail olublar. Diasporumuzun səyi nəticəsində xarici KİV-də "Heydər Əliyev İli" çərçivəsində yüzlərlə məqalə dərc olunub. Bununla da diasporumuz görkəmli siyasi və dövlət xadimi Heydər Əliyevin müasir Azərbaycan dövlətinin qurucusu olduğunu, türk dünyasının birliyinə, xalqımızın milli həmrəyliyinə, milli kimliyimizin qorunmasına, tariximizin, elm və mədəniyyətimizin inkişafına verdiyi töhfələri, ölkəmizin regionda lider ölkəyə çevrilməsi sahəsindəki addımlarını dünya ictimaiyyətinə bir daha xatırladıb.

Azərbaycan diasporunun tədbirləri nəinki ABŞ, Avropa və Asiyanı, hətta Afrikanı da əhatə edib. Ümumiyyətlə, bu gün azərbaycanlıların məskunlaşdığı elə bir ölkə yoxdur ki, orada Heydər Əliyevin 100 illiyi ilə bağlı hər hansı tədbir təşkil olunmasın.

## Həmrəylik

31 Dekabr Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü Ümummilli Liderin adı ilə bağlıdır və bu, Ulu Öndərin dünya azərbaycanlılarına bəxş etdiyi ən böyük bayramdır. Hər il məhz bu günü xaricdəki soydaşlarımız böyük coşqu ilə, birlik, bərabərlik ruhu içərisində qeyd edirlər.

Son illər komitənin təşkilatçılığı ilə 31 Dekabr Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü münasibətilə keçirilən "Bir olaq, həmrəy olaq" adlı bayram tədbiri artıq ənənə xarakteri daşıyır və ildən-ilə tədbirdə daha böyük qələbəlik müşahidə olunur. Heydər Əliyevin 100 illiyi münasibətilə keçirilən bayram tədbirinə 700 nəfərə yaxın soydaşımız qatılıb. Zoom-konfransda dünyanın hər yerindən azərbaycanlılar iştirak edib, icma üzvləri Ümummilli Lideri böyük ehtiramla yad edib, tövsiyələrini xatırlayıb və Ulu Öndərin təməlini qoyduğu diaspor siyasətinin bu gün böyük müvəffəqiyyətlə davam etdirilməsindən məmnunluq ifadə ediblər. Hər il olduğu kimi, bu il də bir çox soydaşımız "Diaspor fəaliyyətində xidmətə görə" Azərbaycan Respublikasının medalı ilə təltif olunub, təşəkkürnamələrə layiq görülüb. Konfransda komitənin təqdim etdiyi "Heydər Əliyev və Azərbaycan diasporu" sənədli filmi rəğbətlə qarşılanıb.

Berlində "Gallery Berlin" rəsm qalereyasında təşkil olunan "Heydər Əliyev və Azərbaycanın mədəni irsi" adlı fotosərgi, Almaniyanın Maqdeburq şəhərində Heydər Əliyev adına Dünya Boks Komitəsinin, Diaspor Boks Liqasının idman zalının və "Ana dili" məktəbinin açılış mərasimi, Rusiyanın Sankt-Peterburq şəhərindəki Tavriya sarayında keçirilən qala-konsert və onlarla digər tədbirdə görkəmli dövlət xadimi Heydər Əliyevin həyat və fəaliyyətindən, tarixi xidmətlərindən danışılıb, əziz xatirəsi böyük ehtiramla yad edilib.

Azərbaycan Diasporuna Dəstək Fondunun ölkəmizin ərazi bütövlüyü uğrunda canlarından keçən şəhidlərin övladlarının iştirakı ilə baş tutan "Qardaşlaşmış Qarabağ Məktəbləri" layihəsi bu il Ümummilli Liderin 100 illiyinə həsr olunub və layihə gənclər arasında böyük rəğbətlə qarşılanıb.

Xaricdə yaşayan və böyük uğur qazanan xeyli sayda soydaşımız var ki, onlar məhz Ulu Öndərin təhsil məqsədilə xaricə göndərdiyi azərbaycanlılardır. Dövlət proqramı xətti ilə bu gün də xaricdə təhsil alan azərbaycanlılar diasporumuzun inkişafına, güclənməsinə əvəzsiz xidmətlər göstərir. Bu baxımdan "Heydər Əliyev İli" çərçivəsində Berlində keçirilən Almaniyadakı Azərbaycanlı Həkimlərin II Forumu ölkəmiz və diasporumuz üçün tarixi hadisə idi.

Diqqəti diaspor gənclərini əhatə edən bəzi başqa layihələrə də cəlb etmək yerinə düşər. Diaspor Gənclərinin IV Yay Düşərgəsi, Gürcüstanın Borjomi şəhərində qonşu ölkədə yaşayan azərbaycanlı gənclərin "Regional Gənclər Şəbəkəsi Borjomi-2023" Yay Düşərgəsi, Özbəkistanda fəaliyyət göstərən Azərbaycan icması tərəfindən təşkil olunan azərbaycanlı gənclərdən ibarət birgünlük Yay Düşərgəsi yeni nəsil diasporun şəbəkələşməsi və müasir platformalar üzərindən daha güclü fəaliyyət göstərməsi üçün ciddi zəmin yaradıb. "Heydər Əliyev İli" çərçivəsində Naxçıvanda keçirilən Diaspor Gənclərinin IV Yay Düşərgəsi xaricdə yaşayan azərbaycanlı gənclərin və ölkəmizə dost münasibəti bəsləyən xalqların nümayəndələrinin məhz Naxçıvana gələrək dünya miqyasında ən nüfuzlu siyasətçilərdən olan Heydər Əliyevin irsi ilə tanış olmalarına, dahi şəxsiyyətin ideyalarının, siyasi kursunun bu gün də uğurla davam etdirildiyini müşahidə etmələrinə şərait yaradıb. Bu, bənzəri olmayan bir layihədir və yeni nəsil diasporun təşkilatlanmasında, onların azərbaycançılıq ideyası ətrafında birləşmələrində mühüm rola malikdir.

Ümumilikdə Diasporla İş üzrə Dövlət Komitəsinin təşəbbüsü ilə Ümummilli Liderin anadan olmasının 100 illiyi münasibətilə keçirilən silsilə tədbirlər diasporumuzun yumruq kimi birləşməsində ölçüyəgəlməz təsirə malik olub.

Bu mühüm tədbirlər həm də onu göstərir ki, xaricdəki Azərbaycan icmalarının daha sıx birləşməsi, ölkəmizdən kənardakı elmi potensialımızdan həm də Azərbaycanın inkişafı üçün səmərəli istifadə olunması Ümummilli Liderin siyasi kursunu müvəffəqiyyətlə davam etdirən Prezident İlham Əliyevin və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın diqqətindədir.

## Ana dili

Hakimiyyətdə olduğu bütün dövrlərdə Heydər Əliyev Azərbaycan dilini milli mənliyin ən mühüm məsələsi kimi diqqət mərkəzində saxlayıb. Hələ 1978-ci ildə Heydər Əliyev böyük cəsarət göstərərək Azərbaycan dilini dövlət dili kimi Azərbaycan SSR-in yeni Konstitusiyasına daxil edib. Sonralar bu təhlükəli tarixi məqamı belə xatırlayırdı: "Yadımdadır, 1978-ci ildə biz Azərbaycanın Konstitusiyasına Azərbaycan dilinin dövlət dili olması haqqında maddə daxil edəndə, Moskvadan bizim başımıza nə qədər oyunlar açıldı, nə qədər təzyiqlər göstərildi. Ancaq biz bu təzyiqlərə dözdük".

Heydər Əliyev diasporumuzla hər görüşündə onların Azərbaycan dilini unutmaması, yeni nəsil diasporun dilimizi öyrənməsi üçün tövsiyələrini verib. Prezident İlham Əliyevin ötən il Şuşada keçirilən Dünya Azərbaycanlılarının V Zəfər Qurultayındakı tarixi çıxışında da ana dili məsələsi xüsusi qeyd olunub: "...Əlbəttə, çox istəyirik ki, ikinci, üçüncü nəsil azərbaycanlılar öz mədəniyyətinə bağlı olsunlar. Əlbəttə, bu o qədər də asan məsələ deyil. Burada onlar ilk növbədə Azərbaycan dilini bilməlidirlər. Burada, əlbəttə ki, təkcə ailələrdə Azərbaycan dilini yaşatmaq mümkündür, ancaq kifayət deyil. Ona görə Azərbaycan məktəblərinin, bazar günü məktəblərinin açılması istiqamətində də biz hər zaman kömək göstərməyə hazırıq. Əslində bunu edirik. Bəlkə də bunu daha da təşkilatlanmış şəkildə etmək lazımdır. Çünki ana dili əsas amildir. Ana dili bütün Azərbaycan vətəndaşlarını birləşdirir".

Həm Ulu Öndərin, həm də cənab Prezidentin bu tövsiyələri DİDK-nin, eləcə də diasporumuzun fəaliyyət planının tərkib hissəsidir. Azərbaycan Respublikasının vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın təşəbbüsü və dəstəyi ilə xarici ölkələrdə açılan həftəsonu Azərbaycan məktəblərində minlərlə azərbaycanlı uşaq təhsil alır. Komitə məktəbləri zəruri vəsaitlərlə, xüsusi dərsliklə təmin edib. Bu gün xarici ölkələrdə 100-ə yaxın həftəsonu məktəbi var və həmin məktəblərdə də "Heydər Əliyev İli" çərçivəsində bir sıra tədbirlər baş tutub, bu tədbirlər dilimizin inkişafı və gələcək nəsillərə ötürülməsi, ana dilinin diaspor arasında geniş təbliği istiqamətində az əhəmiyyət daşımır.

## Diasporun daha da güclənməsinə aparan yol

Ulu Öndər Dünya Azərbaycanlılarının I Qurultayındakı çıxışı zamanı demişdi: "Biz çox iş görməliyik ki, güclü Azərbaycan diasporu yaransın və müxtəlif ölkələrdə yaşayan azərbaycanlılar daha da güclənsinlər".

Azərbaycanın hüdudlarından kənarda məskunlaşmış milyonlarla soydaşımızın vahid bir amal ətrafında birləşərək güclənməsi, bu sahədə atılan ilk addımlar Ümummilli Liderimiz Heydər Əliyevin adı ilə bağlıdır. Bu gün Heydər Əliyevin siyasi kursunun layiqli davamçısı, onun müəyyənləşdirdiyi ümummilli inkişaf strategiyasını müvəffəqiyyətlə həyata keçirən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev diasporumuzun formalaşması sahəsindəki nailiyyətləri yeni mərhələyə qaldırıb. Xaricdəki icmalarımız dövlət başçısının siyasi kursunu daim dəstəkləyir və fəaliyyətlərinin əsas prioriteti sayırlar.

Xaricdəki Azərbaycan icmaları həm müharibə dövründə, həm də "Heydər Əliyev İli"ndə ana vətən üçün əllərindən gələni əsirgəmədilər. 44 günlük Vətən müharibəsi dövründə xaricdə yaşayan soydaşlarımız həm maddi olaraq, həm də mənəvi müstəvidə Azərbaycanın yanında oldular, əsgər və qazilərimiz, onların ailələri üçün bacardıqlarını etdilər. Diaspor təşkilatları Ümummilli Liderin 100 illiyi münasibətilə reallaşdırdığı layihələrlə dünya ictimaiyyətinin məlumatlandırılmasına, qələbəmizin mahiyyətinin təbliğinə, işğalçının ifşa olunması və dezinformasiyaların qarşısının alınmasına böyük töhfələr verdilər. Bu, vətənə böyük xidmət idi. Ölkə daxilində müharibə bitib, amma diasporumuz informasiya müharibəsini hər zaman davam etdirməlidir.

Azərbaycan dövləti diasporun daha güclü, daha mütəşəkkil olması üçün lazım olan bütün dəstəyi göstərir, diasporumuz maddi və mənəvi müstəvidə vətənin gücünü tam mənası ilə hiss edir. Komitənin nəzdində yaradılan Azərbaycan Diasporuna Dəstək Fondu diaspor təşkilatlarının çoxistiqamətli layihələrinin həyata keçirilməsinə ciddi dəstək verir. Məhz düşünülmüş, uğurla həyata keçirilən diaspor siyasətinin nəticəsidir ki, Azərbaycan icmalarının güclərini birləşdirməsi və fəaliyyətlərini təmərküzləşdirməsi üçün yaradılan koordinasiya şuralarının, Azərbaycan evlərinin əhatə dairəsi daha da genişlənir. Diasporumuzun məqsəd və istəyi bu gün fəaliyyətdə olan 20 Azərbaycan Evinin sayının yaxın gələcəkdə daha da artırılmasıdır.

*Güclənən Azərbaycan diasporu gələcəkdə "yumşaq güc"ə məxsus olan bütün təsirli vasitələrdən istifadə etməli, özü hər bir öhdəliyi yerinə yetirməyi bacarmalıdır. Fəaliyyətimizin mühüm bir hissəsi də məhz bu zəminin hazırlanmasına yönəlib. Dövlət başçısının tapşırıq və tövsiyələrini əsas götürərək bu zəminin yaranması, daha etibarlı olması üçün əlimizdən gələni edirik və bunu fəaliyyətimizin əsas prinsipinə çevirmişik.*

**Fuad MURADOV,**
***Azərbaycan Respublikası Diasporla İş üzrə Dövlət Komitəsinin sədri***



# Heydər Əliyev İli 2023

## Tarixi şəxsiyyətin zəngin irsinin öyrənilməsi və təbliği fəaliyyət prioritetidir

**Möhtərəm Prezident tərəfindən "Heydər Əliyev İli" elan edilmiş 2023-cü il ərzində Azərbaycanda və ölkəmizdən kənarda reallaşdırılan çoxşaxəli və müxtəlif formatlı fəaliyyətlər qədirbilən xalqımızın Ümummilli Liderinə olan dərin ehtiramını və sonsuz sevgisini bir daha nümayiş etdirdi. Müasir Azərbaycan dövlətinin memarı olan Heydər Əliyevin anadan olmasının 100-cü ildönümü çərçivəsində həyata keçirilmiş tədbirlər dahi şəxsiyyətin zəngin irsinin nəhəng əzəmətini və qlobal miqyasını daha dolğun dərk etməyimizə imkan yaratdı.**

Gəldiyimiz əsas qənaət ondan ibarətdir ki, dünyaşöhrətli siyasi xadim, xalqımızın xilaskarı, Ümummilli Lider Heydər Əliyev dövlət müstəqilliyimizin qorunması və gücləndirilməsi, ölkəmizin hərtərəfli və davamlı inkişafı naminə həyata keçirdiyi uzaqgörən və qətiyyətli siyasəti, çoxşaxəli titanik fəaliyyəti ilə hər bir azərbaycanlının qəlbində özünün əbədi heykəlini ucaldıb. Həqiqət odur ki, hazırda tarixinin ən qüdrətli dövrünü yaşayan və zəfərin şanlı səhifələrini yazmaqda davam edən müasir Azərbaycan Ümummilli Liderimizin şah əseridir.

Qürurverici və fərəhləndirici haldır ki, "Azərbaycanı qüdrətli dövlətə çevirmək üçün ən başlıcası, ölkədə Heydər Əliyevin siyasəti davam etdirilməlidir" deməklə Ümummilli Liderin ideyalarına və siyasi kursuna sadiqliyini ifadə edən möhtərəm Prezident İlham Əliyev son 20 ildə nəhəng uğurlara və tarixi qələbələrə imza atıb və bununla da, Ulu Öndərin müəyyən etdiyi siyasi xəttin əbədiyaşarlığını bir daha təsdiqləyib.

Ümummilli Liderimizin zəngin irsini hərtərəfli öyrənmək, araşdırmaq, gənc nəslə ötürmək və geniş ictimaiyyət arasında təbliğ etmək hər bir vətəndaşın, xüsusilə də təhsil işçilərinin əsas və şərəfli vəzifələrindəndir. Bu vəzifənin öhdəsindən layiqincə gəlmək hazırda yeni dövrün universitetinə çevrilməyi hədəfləyən, yüksəkixtisaslı mütəxəssis və layiqli vətəndaş hazırlamaq missiyasını reallaşdırmağa çalışan Mingəçevir Dövlət Universitetində (MDU) daimi diqqət mərkəzində saxlanılır. Bu baxımdan, Ulu Öndərimizin 100 illik yubileyini fəxarətlə qeyd etdiyimiz "Heydər Əliyev İli" çərçivəsində universitetdə müvafiq tədbirlər planının yüksək səviyyəsində icrasına xüsusi əhəmiyyət verilib.

2023-cü təqvim ili ərzində MDU-da Ümummilli Liderimizin anadan olmasının 100 illiyinə həsr olunan ümumilikdə 20 elmi konfrans keçirilib. Bunlardan biri respublika, üçü beynəlxalq səviyyəli konfrans olub. 4-5 may tarixlərində "Heydər Əliyev-100: müstəqil Azərbaycanın qurucusu və hərtərəfli inkişaf strategiyasının müəllifi" mövzusunda keçirilən respublika elmi konfransı böyük marağa səbəb olub. Konfransın bölmələri "Heydər Əliyevin azərbaycançılıq və dövlətçilik ideologiyası", "Heydər Əliyevin dövlət və ordu quruculuğu siyasəti", "Heydər Əliyevin xarici siyasəti", "Heydər Əliyevin davamlı iqtisadi inkişaf strategiyası", "Heydər Əliyevin Azərbaycan dili və ədəbiyyatının inkişafı siyasəti", "Heydər Əliyevin elm və təhsil siyasəti", "Heydər Əliyevin təhsil siyasəti", "Heydər Əliyevin mədəni və milli-mənəvi inkişaf siyasəti", "Heydər Əliyevin gənclərin inkişafı siyasəti" və "Heydər Əliyevin iqtisadiyyatın sahələri üzrə inkişaf siyasəti" mövzularına həsr edilib. Konfransın nəfis tərtibatda dərc edilən kitabında Ulu Öndərimizin zəngin irsindən bəhs edən 220 elmi məqalə yer alıb.









İyunun 19-da MDU, Azərbaycan Respublikasının Türkiyə Respublikasındakı səfirliyi və Qazi Universitetinin birgə təşkilatçılığı ilə Ankarada "Heydər Əliyev və Azərbaycan-Türkiyə əlaqələrinin inkişafı" mövzusunda beynəlxalq elmi konfrans keçirilib. MDU nümayəndə heyətinin qatıldığı konfransda hər iki universitetin alimləri "Heydər Əliyev və "Bir millət, iki dövlət" anlayışı", "Heydər Əliyevin Türk Dünyasının birliyinə töhfələri", "Heydər Əliyev dönəmi və Türkiyə-Azərbaycan mədəni əlaqələri" və "Azərbaycanın sevinci bizim sevincimiz, kədəri bizim kədərimizdir" və "Bir millət, iki dövlət" sözlərinin türk sənətində izləri" mövzusunda məruzələrlə çıxış ediblər.

İyunun 20-də MDU, Azərbaycan Respublikasının Türkiyə Respublikasındakı səfirliyi və Ankara Hacı Bayram Veli Universitetinin birgə təşkilatçılığı ilə Ankarada "Azərbaycan və Türkiyə: Bir millət, iki dövlət, tək yumruq" mövzusunda növbəti beynəlxalq elmi konfrans keçirilib. Hər iki universitetin alimlərinin çıxış etdiyi konfransda Azərbaycan-Türkiyə münasibətləri, Heydər Əliyevin bu sahədəki misilsiz xidmətləri, Ümummilli Liderimizin türk xalqlarının ədəbiyyatına töhfələri və digər mövzularda elmi müzakirələr aparılıb.

Dekabrın 8-9-da Elm və Təhsil Nazirliyi, İqtisadiyyat Nazirliyi və Mingəçevir Şəhər İcra Hakimiyyətinin dəstəyi ilə MDU-da Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 100-cü ildönümünə həsr olunmuş "Davamlı inkişaf strategiyası: qlobal trendlər, milli təcrübələr və yeni hədəflər" mövzusunda II beynəlxalq elmi konfrans keçirilib. 5 ölkənin (Azərbaycan, Türkiyə, Litva, Ukrayna, Qırğız Respublikası) 7 universitetinin (Qazi Universiteti, Ankara Hacı Bayram Veli Universiteti, Kayseri Universiteti, Mikolas Romeris Universiteti, Kiyev Milli Texnologiyalar və Dizayn Universiteti, Qırğız İqtisad Universiteti) birgə təşkilatçılığı ilə baş tutan konfransın məqsədi davamlı iqtisadi inkişaf, dördüncü sənaye inqilabı, postkonflikt dövründə müasir tendensiyalar, keyfiyyətli təhsil, "yaşıl enerji" və digər mövzularda elmi müzakirələrin aparılmasından ibarət olub. Konfransa 159-u xaricdən olmaqla ümumilikdə 562 tezis və məqalə daxil olub.

Bundan başqa, MDU 2023-cü ildə Yeni Azərbaycan Partiyası Mingəçevir şəhər təşkilatı ilə birgə "Ümummilli Lider: tarix yaradan Heydər Əliyev nümunəsi", Mingəçevir Şəhər İcra Hakimiyyəti ilə birgə "Heydər Əliyev və Azərbaycanda milli intibah dövrü", Mərkəzi Aran Regional Təhsil İdarəsi və Yevlax Şəhər İcra Hakimiyyəti ilə birgə "Heydər Əliyev və Azərbaycan təhsili", Ağdam Rayon İcra Hakimiyyəti ilə birgə "Heydər Əliyevin zəngin dövlətçilik irsinin əsas istiqamətləri", "Azərbaycan İES" MMC ilə birgə "Azərbaycanda mühəndisliyin inkişafında Ulu Öndər Heydər Əliyevin rolu", Lənkəran Dövlət Universiteti və Azərbaycan Texnologiya Universiteti ilə birgə "Heydər Əliyevin xilaskar qayıdışı" mövzusunda elmi-praktiki konfranslar təşkil edib.

"Heydər Əliyev İli" çərçivəsində universitetdə 10 elmi-praktik seminar, 7 "dəyirmi masa" keçirilib və 5 mühazirə oxunub. MDU və Mərkəzi Aran Regional Təhsil İdarəsinin birgə təşkilatçılığı ilə 7 şəhər və rayonda (Mingəçevir, Yevlax, Ağdaş, Göyçay, Ucar, Zərdab və Kürdəmir) "Heydər Əliyevin zəngin dövlətçilik irsinin əsas istiqamətləri" mövzusunda elmi seminarlar keçirilib. Geniş təhsil ictimaiyyətinin qatıldığı bu tədbirlərdə MDU alimləri məruzələrlə çıxış edərək Ümummilli Liderin müstəqil Azərbaycanın qurulmasında, milli-mənəvi dəyərlərimizin, eləcə də Azərbaycan dilinin qorunmasında və zənginləşməsində, milli ədəbiyyatın inkişafında göstərdiyi misilsiz xidmətlərdən danışıblar.

Bununla yanaşı, cari ildə MDU-da "Azərbaycanın sosial siyasətinin inkişaf tendensiyaları və prioritetləri" və "Ulu Öndər Heydər Əliyev Azərbaycanda müstəqil enerji sisteminin yaradıcısıdır" mövzusunda elmi-praktik seminarlar, habelə "Heydər Əliyev İli" çərçivəsində doktorant, dissertant və gənc tədqiqatçıların elmi seminarı təşkil olunub. Həmçinin universitetdə "Azərbaycanın dövlət müstəqilliyi əbədidir, sarsılmazdır və dönməzdir", "Heydər Əliyev və müasir Azərbaycan", "14 iyul 1969-cu il: Müstəqil və qüdrətli Azərbaycanın təməlinin qoyulduğu gün", "Heydər Əliyev və Azərbaycan dili", "Əsrin müqaviləsi tarixi zəfərimizə gedən yolun başlanğıcıdır", "Ümummilli Lider müasir Azərbaycanın qurucusudur" və "Tarix yazan əbədiyaşar lider" mövzularında keçirilən "dəyirmi masa"larda əbədiyaşar liderin titanik fəaliyyətinin müxtəlif aspektlərindən bəhs edilib.

Habelə, MDU və Mərkəzi Aran Regional Təhsil İdarəsinin birgə təşkilatçılığı ilə Mingəçevir, Yevlax, Zərdab və Ağdaş məktəblərində "Heydər Əliyev müstəqil Azərbaycanın qurucusudur" mövzusunda keçirilən mühazirələr Ümummilli Liderimizin zəngin dövlətçilik irsinin öyrənilməsi və gələcək nəsillərə çatdırılması sahəsində görülən işlərə töhfə vermək məqsədi daşıyıb. Eləcə də, universitetdə "Heydər Əliyev: əbədiyaşar lider, müstəqil Azərbaycan dövlətinin qurucusu və yaradıcısı" və "Azərbaycan tarixində Heydər Əliyev zirvəsi" mövzusunda təşkil olunan mühazirələrdə əbədiyaşar liderin rəhbərliyi dövründə Azərbaycanda baş vermiş intibah, tərəqqi, milli oyanış və müstəqil dövlət quruculuğundan və Ulu Öndərin müəllifi olduğu azərbaycançılıq ideologiyasının tarixi əhəmiyyətindən danışılıb.

2023-cü ildə MDU-da "Heydər Əliyev xatirələrdə" adlı layihə uğurla icra olunub. Layihə çərçivəsində universitetdə keçirilən görüşlərdə elm və təhsil nazirinin müavini Firudin Qurbanov, "Şöhrət" ordenli, professor Şahlar Əsgərov və ETN Riyaziyyat və Mexanika İnstitutunun baş direktoru, professor Misir Mərdanov Ulu Öndərimizlə bağlı xatirələrini Mingəçevir təhsil ictimaiyyəti ilə bölüşüblər.

Sevindirici haldır ki, "Heydər Əliyev İli" çərçivəsində keçirilən tədbirlərdə MDU-nun tələbə, magistrant və doktorantları xüsusi fəallıq göstəriblər. Belə ki, 2023-cü il ərzində tələbə, magistrant və doktorantların iştirakı ilə ümumilikdə 9 elmi konfrans keçirilib.

Tələbələr Ümummilli Liderimizin 100 illik yubileyinə həsr olunmuş "Heydər Əliyev və Azərbaycan tarixi" lX ümumrespublika bilik yarışında, respublika bədii yaradıcılıq festivalında, "Heydər Əliyev və gəncliyimiz" adlı esse müsabiqəsində, eləcə də respublika və şəhər miqyaslı digər çoxsaylı idman oyunlarında və intellektual müsabiqələrdə MDU-nu uğurla təmsil ediblər. MDU-nun 2 tələbəsi Azərbaycan Respublikası Prezidentinin müvafiq sərəncamı ilə təsis edilmiş "Heydər Əliyev adına təqaüd"ə layiq görülüb.

İl ərzində MDU-da Ulu Öndərin 100 illik yubileyinə həsr olunan çoxsaylı ağacəkmə aksiyası təşkil olunub, universitetin hər iki tədris korpusunda olan Heydər Əliyev guşələri müasir formatda tamamilə yenidən qurulub, akademik heyət üzvləri mətbuatda və televiziya kanallarında mütəmadi çıxışlar ediblər.

Tarixi şəxsiyyətin zəngin irsinin öyrənilməsi və təbliği növbəti illərdə də MDU-nun əsas prioritetlərindən olacaq.

**Şahin BAYRAMOV,**
***Mingəçevir Dövlət Universitetinin rektoru***

## "Heydər Əliyev və müasir biologiya elminin inkişafı: nailiyyətlər və çağırışlar" mövzusunda beynəlxalq konfrans keçirilmişdir





**Azərbaycan xalqının tarixində böyük hadisələr və möhtəşəm qələbələrlə yadda qalan 2023-cü - "Heydər Əliyev İli" yekunlaşmaq üzrədir. Xalqımız il ərzində Ulu Öndərin 100 illik yubileyini təntənə ilə qeyd etmişdir.**

Bu günlər Milli Elmlər Akademiyasının Mərkəzi Elmi Kitabxanasında AMEA Biologiya və Tibb Elmləri Bölməsinin Elm və Təhsil Nazirliyi Molekulyar Biologiya və Biotexnologiyalar İnstitutunun birgə təşkilatçılığı ilə "Heydər Əliyev və müasir biologiya elminin inkişafı: nailiyyətlər və çağırışlar" mövzusunda beynəlxalq konfrans keçirilmişdir.

Hibrid formatda (canlı iştirak və Zoom proqramı üzərindən onlayn qoşulma) keçirilən konfransda iştirakçılar əvvəlcə Ümummilli Lider Heydər Əliyevin müasir biologiya elminin inkişafında göstərdiyi xidmətlərə həsr olunmuş sərgi ilə tanış olmuşlar. Sonra tədbir AMEA-nın vitse-prezidenti, akademik İradə Hüseynovanın sədrliyi ilə işə başlamışdır. Öncə beynəlxalq konfransın proqramına uyğun olaraq AMEA-nın prezidenti akademik İsa Həbibbəylinin tədbir iştirakçılarına videomüraciəti təqdim olunmuşdur. Akademik "Heydər Əliyev İli" çərçivəsində AMEA-da təşkil olunan tədbirlərin ölkəmizdə vətənpərvərlik, azərbaycançılıq ideyalarının, müstəqil dövlətçilik düşüncəsinin daha da dərinləşməsinə xidmət edən bir proqrama çevrildiyini bildirmişdir: "Akademiyanın institut və təşkilatlarında il ərzində Ulu Öndərlə bağlı 40-dan çox kitab hazırlanıb çap olunmuşdur. Kitablar əvvəlki illərdə AMEA-da Ümummilli Liderin fəaliyyəti ilə bağlı nəşr olunan əsər və monoqrafiyalardan sistemli fundamental elmi tədqiqatlardan ibarət olması ilə fərqlənir. Bu isə Azərbaycanın son 50 ildə keçdiyi yolu, bu istiqamətdə yaşanılan çətinlikləri, aparılan mübarizələri, qazanılan uğurları elmi cəhətdən və sistemli şəkildə təhlil edib dəyərləndirən və ümumiləşdirən Əliyevşünaslığın konkret bir elmi istiqamətə çevrildiyini nümayiş etdirir".

Azərbaycanda biologiya elminin inkişafında Ulu Öndərin böyük xidmətləri haqqında danışan akademik İradə Hüseynova qeyd etmişdir ki, yeni elmi müəssisələrin və laboratoriyaların yaradılması, onların maddi-texniki bazasının gücləndirilməsi, yüksəkixtisaslı elmi kadrların hazırlanması, ümumən elmə verilən dəyər, göstərilən dövlət dəstəyi dahi liderin siyasətinin ayrılmaz tərkib hissəsi olmuşdur. Natiq bu siyasətin günümüzdə Ulu Öndərin layiqli davamçısı Prezident İlham Əliyev tərəfindən uğurla və uzaqgörənliklə davam etdirildiyini bildirmişdir.

Akademik İ.Hüseynova Ümummilli Lider Heydər Əliyevin elmin müasir və perspektiv sahələrində yüksəkixtisaslı kadrların hazırlığı ilə bağlı məqsədyönlü siyasətin həyata keçirilməsində görkəmli alim və ictimai-siyasi xadim akademik Cəlal Əliyev tərəfindən atılmış addımları, görülmüş işləri də diqqətə çatdırmışdır. Bildirmişdir ki, akademik Cəlal Əliyevin uzaqgörənliyi sayəsində Azərbaycanda biokimya, molekulyar biologiya, molekulyar genetika, biofizika, gen və hüceyrə biotexnologiyaları, riyazi biologiya, bioinformatika, kompüter biologiyası və s. kimi mühüm elmi istiqamətlərin təşəkkülü və inkişafı, müxtəlif elm sahələri üzrə savadlı mütəxəssislərin biologiya üzrə tədqiqatlara cəlb olunması, kadrların hazırlanmasında keçmiş ittifaqın və uzaq xaricin tanınmış elm və təhsil mərkəzlərindən istifadə edilməsi elmə böyük töhfə vermişdir. "Bu il 95 illik yubileyini qeyd etdiyimiz akademik Cəlal Əliyevin yaratdığı böyük məktəbin nümayəndələri elmə ləyaqətlə xidmət edir, Azərbaycana dünya səviyyəsində nüfuz qazandırırlar", - deyə akademik İradə Hüseynova bildirmişdir.

O, son illər dünyada süni intellekt, robototexnika, canlı orqan çapı, nano və biotexnologiyalar, gen redaktəsi və digər sahələrdə əldə olunmuş yüksək nailiyyətlərdən bəhs edərək, hazırda sürətlə inkişaf edən elmin qarşısında texniki deyil, hüquqi, normativ və etik məhdudiyyətlərin dayandığını, bu baxımdan bioetik problemlərin də konfransın aktual mövzuları sırasında yer aldığını diqqətə çatdırmışdır. Akademik çıxışının sonunda müasir dövrlə səsləşən ideyalara malik olan, aktual elmi problemlərə həsr edilən beynəlxalq tədbirin elm və təhsilin inteqrasiyasına əhəmiyyətli töhfələr verəcəyinə də diqqət çəkmişdir.

Böyük Britaniyanın Tibbi Tədqiqatlar Şurasının (MRC) Molekulyar Biologiya İnstitutunun Hesablama struktur biologiyası qrupunun və Molekulyar Biologiya və Biotexnologiyalar İnstitutunun Hesablama struktur biologiyası beynəlxalq laboratoriyasının rəhbəri, Azərbaycanın Əməkdar elm xadimi, professor Qərib Mürşüdov tədbirdə onlayn şəkildə çıxış edərək bu kimi konfransların gənc tədqiqatçıların elmə marağının artırılması, onların fəaliyyətinin stimullaşdırılması baxımından mühüm əhəmiyyət kəsb etdiyini bildirmişdir.

Beynəlxalq tədbirdə həmçinin elm və təhsil nazirinin müşaviri Nicat Məmmədli, Molekulyar Biologiya və Biotexnologiyalar İnstitutunun laboratoriya müdiri, AMEA-nın müxbir üzvü Novruz Quliyev, ABŞ-nin Emory Universitetinin Emerson adına Elmi Hesablamalar Mərkəzinin direktoru, professor Camal Musayev, ABŞ-nin Nebraska Tibb Universitetinin Eppley Tədqiqat İnstitutunun Fred və Pamela Buffett Xərçəng Mərkəzinin professoru Tahir Tahirov, Böyük Britaniynın Oksford Universitetinin MRC Weatherall Molekulyar Tibb İnstitutunun professoru Uolter Bodmer, Bakı Dövlət Universitetinin kafedra müdiri, AMEA-nın müxbir üzvü Elşad Qurbanov, Türkiyənin İnönü Universitetinin rektoru, professor Ahmet Kızılay, Almaniyanın Osnabrueck Tətbiqi Elmlər Universitetinin professoru Ali Naz, Rusiyanın Biologiyanın Fundamental Problemləri İnstitutunun professoru Tatyana Savçenko, Bakı Dövlət Universiteti Biologiya fakültəsinin dekanı professor Afət Məmmədova, eləcə də Oksford Universitetinin doktorantı Gülnar Abdullayeva çıxış etmişlər.

Sonra konfrans işini plenar və seksiya iclaslarında davam etdirmişdir. Konfransa təqdim edilən 185 tezisin müəllifləri Azərbaycanla yanaşı, ABŞ, Böyük Britaniya, Rusiya, Ukrayna, Özbəkistan, Türkiyə, İran, Cənubi Koreya, Çin, Macarıstan, Gürcüstan, Belarus, Qazaxıstan və s. kimi ölkələri təmsil etmişlər.

İclaslara 200-ə qədər yerli, həmçinin dünyanın 30-a yaxın ölkəsindən 100-ə yaxın alim və mütəxəssis qoşulmuş, 100-dən çox məruzə dinlənilmiş, 40-dan çox poster nümayiş etdirilmiş və onlar ətrafında geniş müzakirələr aparılmışdır.

***E.QƏNİYEV,***
***"Azərbaycan"***



## MƏRKƏZİ SEÇKİ KOMİSSİYASINDA

# Azərbaycan Respublikası Prezidenti seçkilərində xüsusi seçki hesablarının açılması, seçki fondlarının formalaşdırılması qaydaları və şərtləri

**2024-cü il fevralın 7-nə təyin edilmiş növbədənkənar Azərbaycan Respublikası Prezidenti seçkilərinin yüksək səviyyədə təşkil olunub, azad, ədalətli və şəffaf keçirilməsi məqsədilə bütün tədbirlər Seçki Məcəlləsinin tələblərinə və Mərkəzi Seçki Komissiyası tərəfindən hazırlanıb təsdiq edilən əsas hərəkət və tədbirlərin Təqvim planına uyğun, ardıcıl və sistemli şəkildə reallaşdırılır.**



Prezident seçkilərində həyata keçirilən əsas seçki hərəkətlərindən biri xüsusi seçki hesablarının açılmasıdır. Qanunvericiliyin tələbinə əsasən, xüsusi seçki hesabı namizədlərin irəli sürülməsinə dair bildiriş və ya siyasi partiya, siyasi partiyaların blokunun buna dair qərarı Mərkəzi Seçki Komissiyasına təqdim edildikdən sonra, lakin namizədin qeydə alınması üçün tələb olunan sənədlərin MSK-ya təqdim edilməsi gününə azı 5 gün, o cümlədən namizədin qeydiyyatı üçün zəruri olan seçici imzalarının yığılmasına azı 24 saat qalmış açılmalıdır.

Namizədlərin yalnız bir xüsusi seçki hesabı olmalı və bu hesab yalnız Azərbaycan Respublikasının Beynəlxalq Bankında və onun filiallarında açılmalıdır.

Namizəd özü və ya seçicilərin təşəbbüs qrupu tərəfindən irəli sürüldükdə, xüsusi seçki hesabının açılması üçün müvafiq banka qanunun tələblərinə uyğun olaraq bir sıra sənədlər təqdim edilməlidir. Bunlar xüsusi seçki hesabının açılması üçün ərizə, müraciət edənin şəxsiyyətini təsdiq edən sənəd, namizədliyin irəli sürülməsi ilə əlaqədar Mərkəzi Seçki Komissiyasına təqdim olunmuş bildirişin MSK tərəfindən təsdiq edilmiş surətidir.

Yuxarıda göstərilən sənədlərlə yanaşı, Seçki Məcəlləsinin tələbinə uyğun olaraq tərtib edilmiş və namizədliyi irəli sürülmüş şəxsin məhkumluğunun olub-olmamasına, vətəndaşlıq vəziyyətinə və başqa dövlətlər qarşısında öhdəliyinin olub-olmamasına dair məlumatlar, habelə prezident seçiləcəyi halda, həmin vəzifə ilə uzlaşmayan fəaliyyətinə xitam verəcəyi barədə öhdəliyi göstərilmiş ərizə, namizədin səlahiyyətli nümayəndəsinin notariat qaydasında rəsmiləşdirilmiş vəkalətnaməsi (əgər səlahiyyətli nümayəndə təyin edilibsə) və notariat qaydasında təsdiq edilmiş imza nümunəsi vərəqəsi (xüsusi seçki hesabı üzrə əməliyyat aparan şəxsin) də təqdim edilir.

Namizəd siyasi partiya tərəfindən irəli sürüldükdə isə xüsusi seçki hesabının açılması üçün səlahiyyət verilmiş şəxs aşağıdakı sənədləri müvafiq banka təqdim edir: xüsusi seçki hesabının açılması üçün ərizə, siyasi partiyanın dövlət qeydiyyatına alınması haqqında sənədin (şəhadətnamənin) notariat qaydasında təsdiq edilmiş surəti, siyasi partiyanın qüvvədə olan nizamnaməsinin notariat qaydasında təsdiq edilmiş surəti (bank tələb etdikdə təqdim olunur), namizədin irəli sürülməsi barədə siyasi partiyanın qurultayının (konfransının, rəhbər orqanı iclasının) qərarı və müvafiq iclasın protokolu (bank tələb etdikdə təqdim olunur), Seçki Məcəlləsinin tələbinə uyğun olaraq tərtib edilmiş və namizədliyi irəli sürülmüş şəxsin məhkumluğunun olub-olmamasına, vətəndaşlıq vəziyyəti və başqa dövlətlər qarşısında öhdəliyinin olub-olmamasına dair məlumatlar, habelə prezident seçiləcəyi halda, həmin vəzifə ilə uzlaşmayan fəaliyyətinə xitam verəcəyi barədə öhdəliyi göstərilmiş razılıq ərizəsi (bank tələb etdikdə təqdim olunur), siyasi partiyanın maliyyə məsələləri üzrə səlahiyyətli nümayəndəsinin vəkalətnaməsi və notariat qaydasında təsdiq edilmiş imza və möhür nümunələri vərəqi təqdim edilir.

Namizəd siyasi partiyaların bloku tərəfindən irəli sürülərsə, xüsusi seçki hesabının açılması üçün tələb edilən bir sıra sənədlər səlahiyyət verilmiş şəxs tərəfindən müvafiq banka təqdim olunmalıdır. Bu sıraya xüsusi seçki hesabının açılması üçün ərizə, siyasi partiyalar blokuna daxil olan siyasi partiyaların qurultaylarının (konfranslarının, rəhbər orqanı iclasının) namizəd irəli sürmək barədə qərarları ilə birlikdə müvafiq iclasların protokolları (bank tələb etdikdə təqdim olunur), siyasi partiyalar blokuna daxil olan siyasi partiyaların nümayəndələrinin iclasının (qurultayının, konfransının) siyasi partiyaların bloku adından namizəd irəli sürülməsi haqqında qərarı və müvafiq iclasın protokolu (bank tələb etdikdə təqdim olunur), Seçki Məcəlləsinin tələbinə uyğun olaraq tərtib edilmiş və namizədliyi irəli sürülmüş şəxsin məhkumluğu, vətəndaşlıq vəziyyəti, başqa dövlətlər qarşısında öhdəliyinin olub-olmamasına dair məlumatlar, habelə prezident seçiləcəyi halda, həmin vəzifə ilə uzlaşmayan fəaliyyətinə xitam verəcəyi barədə öhdəliyi göstərilmiş razılıq ərizəsi (bank tələb etdikdə təqdim olunur), maliyyə məsələləri üzrə səlahiyyətli nümayəndənin notariat qaydasında və ya Azərbaycan Respublikası Mülki Məcəlləsinin müəyyən etdiyi qaydada təsdiq edilmiş vəkalətnaməsi, notariat qaydasında təsdiq edilmiş imza nümunəsi vərəqəsi (bu xüsusi seçki hesabı üzrə əməliyyat aparan şəxsin imza nümunəsidir) daxildir.

Yuxarıda göstərilən sənədlər təqdim edildikdə, müvafiq bank namizədə dərhal, lakin 3 gündən artıq olmayan müddətdə xüsusi seçki hesabı açmalıdır. Bütün pul vəsaiti xüsusi seçki hesablarına manatla köçürülür.

Xüsusi seçki hesabının vəsaitləri üzərində sərəncam verilməsi namizədin özü, onun təyin etdiyi səlahiyyətli nümayəndə və yaxud namizədlə razılaşdırılmaqla onun namizədliyini irəli sürmüş siyasi partiya və ya siyasi partiyalar bloku tərəfindən təyin edilmiş maliyyə məsələləri üzrə səlahiyyətli nümayəndə tərəfindən həyata keçirilir. Bundan əlavə, prezidentliyə namizədlərin, qeydə alınmış namizədlərin fəaliyyətinin maliyyələşdirilməsi üçün seçki fondları yaradılır. Namizədlərin seçki fondu məbləğinin yuxarı həddi 10 milyon manatdan çox ola bilməz.

Prezidentliyə namizədlərin seçki fondu yalnız namizədin özü tərəfindən 250 min manatdan çox olmamaq şərtilə xüsusi vəsaiti (bu xüsusi vəsait siyasi partiyalar, siyasi partiyalar bloku tərəfindən irəli sürülən prezidentliyə namizədlər üçün siyasi partiyaların, siyasi partiyaların bloklarını yaratmış siyasi partiyaların verdiyi vəsaitlər hesabına formalaşır) və vətəndaşların və hüquqi şəxslərin könüllü ianələri (vətəndaşların köçürdüyü vəsait 3 min manatdan, hüquqi şəxslərin köçürdüyü vəsait 50 min manatdan çox ola bilməz) hesabına formalaşır.

Könüllü ianələr yalnız Azərbaycan Respublikasının vətəndaşlarından rabitə şöbələri və ya bank təşkilatları vasitəsilə ianəçinin soyadı, adı, atasının adı, doğum tarixi və yaşayış yerinin ünvanı göstərilməklə şəxsiyyət vəsiqəsi, yaxud onu əvəz edən sənədin təqdim edilməsi əsasında qəbul olunur.

Hüquqi şəxslərin könüllü ianələri isə seçki fonduna yalnız nağdsız köçürülmə yolu ilə, müvafiq hüquqi şəxsin nizamnamə kapitalında dövlət və ya bələdiyyə kapitalının, xarici kapitalın olub-olmaması və ya payı qeyd edilməklə, onun adı, qeydiyyat tarixi, vergi ödəyicisinin eyniləşdirmə nömrəsi, bank rekvizitləri göstərilməklə qəbul olunur.

Vətəndaşların və hüquqi şəxslərin könüllü ianələri xüsusi seçki hesabına poçt və ya bank təşkilatları vasitəsilə müvafiq ödəniş sənədi alındıqdan sonra ən geci iki gün ərzində köçürülməlidir.

Namizədlərin seçki fonduna ianələr buna hüququ olmayan subyektlərdən daxil olubsa, yaxud qanunla nəzərdə tutulan məbləğdən artıq köçürülübsə, müvəkkil bank müəyyən olunmuş formada Mərkəzi Seçki Komissiyasına məlumat verir və ianənin xüsusi seçki hesabına daxil olduğu gündən sonrakı 10 gün müddətində namizəd ianənin bütünlüklə və ya onun müəyyənləşdirilmiş yuxarı həddini aşan hissəsinin geri qaytarılmasının səbəbini göstərməklə və göndərilmə xərclərini çıxmaqla, ianəçiyə qaytarmalıdır. Göstərilən müddət ərzində ianə ianəçiyə geri qaytarılmadıqda, bank bu barədə Mərkəzi Seçki Komissiyasına yazılı məlumat verməklə həmin ianəni bütünlüklə ianəçiyə geri qaytarmalıdır.

Xüsusi seçki hesabına daxil olmuş anonim ianələr daxil olduğu gündən sonra 10 gün müddətində namizəd, siyasi partiya, siyasi partiyaların bloku tərəfindən dövlət büdcəsinə köçürülür.

Namizədlərin seçki fondlarına könüllü ianə ayırmaq, yaxud natura şəklində və ya xidmət göstərilməsi yolu ilə yardım etmək xarici dövlətlərə və xarici hüquqi şəxslərə, xarici vətəndaşlara, vətəndaşlığı olmayan şəxslərə, 18 yaşına çatmamış şəxslərə, seçkilərin təyin edilməsi haqqında qərarın rəsmi dərc edildiyi günə olan vəziyyətə görə Azərbaycan Respublikasının hüquqi şəxsinin nizamnamə kapitalında yuxarıda göstərilən şəxslərin iştirak (mülkiyyət) payı 30 faizdən çox olarsa, Azərbaycan Respublikasının hüquqi şəxslərinə, beynəlxalq təşkilatlara və beynəlxalq ictimai hərəkatlara, dövlət hakimiyyəti orqanlarına və bələdiyyə qurumlarına, dövlət və bələdiyyə təşkilatları və idarələrinə, seçkilərin təyin edilməsi haqqında qərarın rəsmi dərc edildiyi günə olan vəziyyətə görə nizamnamə kapitalında dövlətin və ya bələdiyyənin iştirak payı 30 faizdən artıq olan hüquqi şəxslərə, hərbi hissələrə, xeyriyyə təşkilatlarına, dini birliklərə, idarələrə və təşkilatlara, aşağıdakı məlumatlardan hər hansı birini göstərməyən anonim ianə köçürənlərə (vətəndaş üçün - soyadını, adını, atasının adını, şəxsiyyət vəsiqəsinin və ya onu əvəz edən sənədin seriyasını, nömrəsini, verilmə tarixini, yaşayış yerinin ünvanını, doğum tarixini; hüquqi şəxs üçün - vergi ödəyicisinin eyniləşdirmə nömrəsini, adını, qeydiyyat tarixini, bank rekvizitlərini, nizamnamə kapitalında dövlət və ya bələdiyyə payının olmasını, bunlar olduğu halda - miqdarını, nizamnamə kapitalında xarici kapitalın pay miqdarını göstərməyənlərə və ya qeyri-düzgün göstərənlərə) qadağan edilir.

Seçki fondlarında olan vəsaitlər təyinatlı məqsəd daşıyır. Namizədlər, qeydə alınmış namizədlər, siyasi partiyalar, siyasi partiyaların blokları səsvermə gününədək qanunvericiliklə müəyyənləşdirilmiş qaydada seçki fondlarının hesablarına köçürülmüş pul vəsaitindən istifadə edirlər. Qanunun tələbinə uyğun olaraq həmin subyektlərə seçkiqabağı təşviqat fəaliyyəti və imzaların yığılması üçün seçki fondlarına daxil olan vəsaitdən başqa, digər pul vəsaitindən istifadə etmək qadağandır.

*Validə KAZIMOVA,*
*Azərbaycan Respublikası*
*Mərkəzi Seçki*
*Komissiyasının üzvü*

# Naxçıvanda seçki hüququ ilə bağlı müraciətlərə baxılmasına həsr olunan seminar keçirilib




**Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyası tərəfindən təşkil olunan tədbirdə Mərkəzi Seçki Komissiyasının katibi Arifə Muxtarova və Hüquq və İnsan Haqları İnstitutunun İnsan hüquqları üzrə təlim və ekspertiza şöbəsinin müdiri Vüsalə Muradxanlı çıxış ediblər.**

AZƏRTAC xəbər verir ki, çıxışlarda vətəndaşların seçki hüququnu pozan hərəkətlərdən (hərəkətsizlikdən) və qərarlardan müraciət və şikayətlərinin araşdırılması məqsədilə dairə seçki komissiyaları nəzdində fəaliyyət göstərən ekspert qrupu üzvlərinin məlumatının artırılmasından, bilik, bacarıq və işgüzar vərdişlərin daha da təkmilləşdirilməsindən, Avropa İnsan Hüquqları Konvensiyasında azad seçki hüququndan danışılıb.

Sonra Mərkəzi Seçki Komissiyasının üzvü İlkin Şahbazovun və institutun İnsan hüquqları üzrə təlim və ekspertiza şöbəsinin təlimçi-eksperti Hamlet Babayevin seçki hüququnun pozulması ilə əlaqədar müraciət və şikayətlərə baxılması üzrə qanunvericiliyin tələbləri və şikayətlərin araşdırılması prinsipləri, seçkilərlə bağlı müraciətlərə dairə seçki komissiyaları tərəfindən baxılmasına dair çıxışları dinlənilib, slayd vasitəsilə mövzular barədə ətraflı məlumat verilib.

Seminara qatılan dairə seçki komissiyalarının ekspert qrupu üzvlərinə Mərkəzi Seçki Komissiyası tərəfindən hazırlanan, şikayət və müraciətlərin araşdırılması müddətləri, ardıcıllığı, qaydaları və sübutların qiymətləndirilməsi, habelə rəylərin və qərar layihəsinin hazırlanması prosedurlarını aydın və əhatəli əks etdirən yeni "Yaddaş kitabçası" təqdim olunub.

Qeyd edək ki, seminarda Naxçıvan Muxtar Respublikası üzrə 6 dairə seçki komissiyasının sədr, katib və ekspert qrupunun 36 üzvü iştirak edib.

# Masallıda MSK-nın təşkilatçılığı ilə ekspert qruplarının üzvləri üçün regional seminar baş tutub

**Gələn il fevralın 7-də ölkəmizdə növbədənkənar prezident seçkiləri keçiriləcək. Seçkilərin şəffaf, azad və ədalətli təşkili məqsədilə Mərkəzi Seçki Komissiyası paytaxt Bakı ilə yanaşı, regionlarda da tədbirlər təşkil edir. AZƏRTAC xəbər verir ki, Mərkəzi Seçki Komissiyasının Hüquq və İnsan Haqları İnstitutu ilə birgə layihəsi çərçivəsində "Seçki hüququ ilə bağlı müraciətlərə baxılmasına həsr edilən" növbəti regional seminar Masallı rayonunda baş tutub.**



Tədbirdə hüquq və insan haqları üzrə mütəxəssislər, eləcə də region üzrə 19 dairə seçki komissiyasından ekspert qruplarının üzvləri iştirak ediblər.

Mərkəzi Seçki Komissiyasının üzvü Tofiq Həsənov seminarda "Seçki hüquqlarının pozulması ilə əlaqədar müraciət və şikayətlərə baxılması üzrə qanunvericiliyin tələbləri və şikayətlərin araşdırılması prinsipləri" mövzusunda geniş məruzə söyləyib.

Hüquq və İnsan Haqları İnstitutunun ekspert şurasının üzvü Vəfaddin İbayev "Avropa İnsan Hüquqları Konvensiyasında azad seçki hüququ (I hissə)" mövzusunda təqdimatla çıxış edib.

Həmçinin iştirakçılar əyani vəsaitlərdən istifadə etməklə bağlı ətraflı məlumatlandırılıblar.





Digər çıxış edənlər "Seçkilərlə bağlı müraciətlərə dairə seçki komissiyaları tərəfindən baxılması, ekspert qruplarının fəaliyyətinin əsasları", "Avropa İnsan Hüquqları Konvensiyasında azad seçki hüququ (II hissə)", seçkilərlə bağlı ekspert qruplarının fəaliyyətlərinin əsasları, kazuslar üzrə praktiki məşğələlər, sınaq testlərin həlli və digər məsələlər barədə məlumat veriblər.

Tədbirin praktiki hissəsi başa çatandan sonra MSK nümayəndələri seçki qanunvericiliyi və ekspert fəaliyyəti ilə bağlı kazuslar üzrə məşğələlər keçib, dairə seçki komissiyalarının üzvləri sınaq testlərinin həllinə cəlb olunublar.

Ekspert qrupunun üzvləri üçün hazırlanan, onlara yardımçı olacaq yeni "Yaddaş kitabçası" paylanılıb.

# Bakı siyasi-diplomatik cəbhədə Fransanı küncə sıxışdırıb

**Bakının siyasi, diplomatik cəbhədə Fransanı küncə sıxışdırmasının, beynəlxalq tribunalarda müstəmləkəçi əməllərini açıb göstərməsinin, casus şəbəkəsini ifşa etməsinin sarsıdıcı təsiri ilə Paris ard-arda səhv qərarlar verir, yanlış addımlar atır və dünyada nüfuzunu daha sürətlə itirir.**





Bu baxımdan, Fransanın heç bir hüquqi səbəb olmadan Azərbaycan Səfirliyinin iki əməkdaşını "persona-non-grata" (arzuolunmaz şəxs) elan etməsi də növbəti səhv, yersiz və uğursuz qərar kimi Makron hökumətinin adına yazıldı.

Dekabrın 26-da Fransanın Azərbaycandakı səfiri Ann Buayon Xarici İşlər Nazirliyinə çağırıldı və ona Fransa Səfirliyinin iki əməkdaşının diplomatik statuslarına uyğun olmayan və "Diplomatik əlaqələr haqqında" 1961-ci il Vyana Konvensiyası ilə ziddiyyət təşkil edən fəaliyyətlərinə görə ciddi etiraz bildirildi. Onların Azərbaycan hökuməti tərəfindən "persona-non-grata" elan olunduğu Fransa səfirinin diqqətinə çatdırıldı.

Bəs diplomatlarının beynəlxalq hüquqazidd əməllərini araşdırmaq əvəzinə Paris nə etdi?! Heç bir dəlil, fakt göstərmədən Azərbaycan Səfirliyinin iki əməkdaşını arzuolunmaz şəxs elan etdi, öz aləmində Bakıya qarşılıqlı cavab verdi.

Amma Azərbaycandan fəaliyyətlərində qanunsuzluqlar aşkarlanan fransız "diplomat"ların qovulması ilə, heç bir səbəb olmadan Fransadakı Azərbaycan səfirliyinin əməkdaşlarının arzuolunmaz şəxs elan edilmələri arasında dağlar qədər fərq var.

### Əməkdaşlarının günahsızlığından əmin idilərsə...

Bunu Makron hökuməti də yaxşı bildiyi üçün Azərbaycan Səfirliyinin əməkdaşlarını "persona-non-grata" elan edərək diqqətləri əsas hadisədən yayındırmağa çalışdı.

İlin yekunlarına dair keçirdiyi mətbuat konfransında xarici işlər naziri Ceyhun Bayramov da məhz bu məqama toxunaraq bildirib ki, Fransa Azərbaycandakı səfirliyinin əməkdaşlarının fəaliyyəti ilə bağlı faktların araşdırılmasından imtina edib

Nazir məlumat verib ki, Fransanın Azərbaycandakı səfirliyinin iki əməkdaşının arzuolunmaz şəxs elan edilməsindən iki gün əvvəl Fransa səfirliyinə nota göndərilib. Azərbaycan dövlət qurumlarında bu şəxslərlə bağlı ciddi faktların mövcudluğu, onların araşdırılmasının vacibliyi, zəruriliyi bildirilib, lakin onlar araşdırmadan imtina ediblər: "Fransa dövləti öz əməkdaşlarının günahsızlığından əmin idisə, o, buna gedə bilərdi. Onlardan heç bir cavab daxil olmadı".

"Dünən Fransa bizim səfirliyin iki əməkdaşını arzuolunmaz şəxs elan etdi. Bizim və Fransanın atdığı addımlar arasında fərq var. Biz sübut və faktlarla danışırıq. Fransa tərəfinin heç bir əsası olmayan bu addımı həmin ölkənin atdığı növbəti səhv addım idi", - deyə C.Bayramov vurğulayıb.

### Parisin növbəti rüsvayçılığı

Parisin Bakıda üzə çıxarılan növbəti rüsvayçı fəaliyyəti özündə yalnız diplomatik deyil, siyasi, hərbi təhlükələri ehtiva edir və bu, təkcə ölkəmiz üçün yox, bütövlükdə region üçün təhdiddir.

Dünyada siyasi dayaqlarını, müstəmləkələrini itirən Fransanın yeni planının Cənubi Qafqaza yerləşmək olduğu hər kəsə bəllidir. O da reallıqdır ki, Ermənistanın torpaqlarımızı işğalı dövründə Fransa həm erməni lobbisinə yalan vədlər verməklə onlardan xeyli pul qoparıb, həm də Qarabağ və Şərqi Zəngəzurda sərvətlərimizin qanunsuz istismarı ilə məşğul olub. Buna görə onilliklər boyu vasitəçilik statusundan da məhz danışıqların sonsuzadək sürməsi yönündə istifadə edib.

2020-ci ildə 44 günlük müharibədə zəfər qazanan Azərbaycanın bölgədə yeni reallıqlar yaratması Fransanın məkrli planlarını da alt-üst etdi. Cənubi Qafqaza yerləşməyin başqa yolla mümkün olmadığını anlayan Paris Azərbaycan-Ermənistan arasında normallaşmada tərəf kimi iştirak etmək iddiasına düşdü.

Amma bu dəfə də Fransa məkrli niyyətini çox gizlədə bilmədi. Azərbaycana qarşı BMT TŞ-də qətnamə qəbul olunmasına cəhd göstərdi, rəsmi səviyyədə ölkəmizlə bağlı yalan və uydurmalarla dolu ittihamlar irəli sürdü, təcavüzkar Ermənistana siyasi, hərbi dəstək verməyə çalışdı. Nəticədə Bakının qətiyyətli siyasi mövqeyi ilə yerində otuzduruldu və Azərbaycan ilə Ermənistan arasında danışıqlar prosesindən birdəfəlik uzaqlaşdırıldı.

Azərbaycanın 2023-cü ildə suverenliyini tam təmin etməsi ilə həm Parisin separatizmə uzanan dəstək əli sındırıldı, həm də ümumilikdə Fransanın Cənubi Qafqaza yerləşmək siyasəti iflasa uğradıldı.

### Bakıdan başlayan beynəlxalq hərəkat

Paralel olaraq Azərbaycan Parisin neokoloniolist siyasətini dünyada ifşa etməsi ilə Fransanın qlobal səviyyədə siyasətdə yer almasının, beynəlxalq təşkilatlarda təmsil olunmasının mümkünsüzlüyünü də təkzibolnmaz faktlarla ortaya qoyub.

Azərbaycanın uğurlu sədrliyi dövründə Qoşulmama Hərəkatı neokolonializmə qarşı çıxan beynəlxalq platformalardan birinə çevrilib.

Oktyabrın 20-də Bakıda keçirilən "Neokolonializm: İnsan Hüquqlarının Pozulması və Ədalətsizlik" mövzusunda beynəlxalq konfransın üzvlərinə müraciətində Prezident İlham Əliyev də bildirdi ki, Azərbaycan XXI əsrdə kolonializmin davam etməsindən və kolonializmin yeni təzahürləri meyillərinin artmasından olduqca narahatdır: "Bandunq konfransından 70 ilə yaxın dövrün keçməsinə rəğmən kolonializmi hələ də davam etdirən ölkələr var. Belə ölkələrdən biri və birincisi Fransadır".

Qanlı cinayətlərlə zəngin kolonializm tarixindən utanmaq, törətdiyi vəhşiliklərə görə üzr istəmək, müstəmləkəçilik siyasətindən əl çəkmək əvəzinə, Fransa bu gün də ölkələri, xalqları əsarəti altında saxlamağa, yeni müstəmləkələr əldə etməyə çalışır. Lakin Bakının neokolonializmə qarşı başlatdığı uğurlu beynəlxalq hərəkat Fransanın bu iyrənc planlarını suya saldı. İllərdir Fransanın zülmü altında əzilən xalqlar artıq öz etiraz səslərini ucaldır, azadlıq, müstəqillik istəyirlər.

### Paris ona görə boyun qaçırıb ki...

Bu günlərdə Bakı Fransa xüsusi xidmət orqanlarının casuslarını üzə çıxarmaqla Parisi növbəti dəfə dünyada faş etdi. Belə ki, Azərbaycan xüsusi xidmət orqanlarının diqqətini Fransa səfirliyinin daxili rezidenturasının Azərbaycan ərazisində, əslində, Fransanın "tərəfdaşı" kimi bilinən ölkələrin nümayəndələrinə qarşı çox arxayın kəşfiyyat əməlləri çəkib. Deməli, geniş əlaqələrindən istifadə edən rezidentura region ölkələrində fəal hərəkət etməklə yeni məqsədlər formalaşdırmaq və təsir dairəsini genişləndirmək istəyinə düşüb. Fransanın dünyadakı imicinə sarsılmaz zərbə olan bu "ifşa əməliyyatı" onu da üzə çıxardı ki, Parisin agentura şəbəkəsi ölkəmizlə yanaşı, Ukrayna, Moldova, Gürcüstan, Şərqi Avropa, Yaxın Şərq və Mərkəzi Asiyanın bir sıra ölkələrində də müxtəlif əməliyyatlarda iştirak edib.

Qərb mətbuatı yazır ki, Azərbaycan xüsusi xidmət orqanlarının həyata keçirdiyi bu əməliyyat Fransa kəşfiyyatının son 50 ildə uğradığı ən böyük fiaskodur.

Bu sayədə Fransanın nəinki Azərbaycanda, eləcə də region ölkələrində beynəlxalq hüquqazidd siyasət yeritdiyi üzə çıxarılıb, agentura şəbəkəsi çökdürülüb. Fransanın Azərbaycandakı iki səfirlik əməkdaşının qovulması məhz casus şəbəkəsinin ifşası ilə birbaşa bağlıdır.

Bu səbəblə də Fransa tərəfi diplomatları ilə bağlı faktları araşdırmaqdan boyun qaçırıb, dünyada ifşa olunan və imicini yerlə bir edən mənfur əməllərinin üstünü örtməyə növbəti uğursuz cəhd edib.

*Yasəmən MUSAYEVA,*
*"Azərbaycan"*

# Azərbaycan Fransanın məkrini qlobal miqyasda ifşa etdi

**"Fransanın ölkəmizə qarşı qərəzli addımları bu dövlətin xarici siyasətinin tərkib hissəsinə çevrilib və məqsədli xarakter daşıyır. Bütün bunlar Azərbaycana qarşı aparılan nifrət kampaniyasının davamlı olduğunu göstərir".**



Bu sözləri "Azərbaycan" qəzetinə açıqlamasında Milli Məclisin deputatı Kamran Bayramov deyib. Deputat bildirib ki, Fransanın ermənipərəst mövqeyini açıq şəkildə ortaya qoyması birinci hal deyil. Vətən müharibəsinin elə ilk günlərində Fransa prezidentinin "Azərbaycan Dağlıq Qarabağı fəth etmək istəyir və biz buna icazə vermərik", - deyə beynəlxalq hüquqazidd olan bəyanatını yaxşı xatırlayırıq. Vətən müharibəsindən artıq üç ildən çox vaxt keçməsinə baxmayaraq, Fransa keçmiş münaqişənin həllində heç vaxt maraqlı olmadığını, özünün əsl ermənipərəst mövqeyini gizlətmədən bu gün də həyasızcasına nümayiş etdirir.

K.Bayramov qeyd edib ki, Fransanın bu mövqeyi Azərbaycan və Ermənistan arasında sülh müqaviləsinin imzalanmasına əngəl törədir, xalqların rifahına və təhlükəsizliyinə xidmət etmir. "Fransanın Azərbaycana qarşı uğursuz həmləleri, regionda möhkəmlənmək cəhdlərinin iflasa uğraması bu ölkənin regiondakı nüfuzuna ciddi zərbə oldu. Dövlət Təhlükəsizlik Xidməti Fransa casus şəbəkəsini zərərsizləşdirməklə, tək Azərbaycanı deyil, region ölkələrini və müəyyən qədər MDB dövlətlərini Parisin çirkin siyasətindən qorudu. İfşa edilən şəbəkə bizim regionda kök salmışdı və onların Azərbaycandakı uzantılarının məhvi Fransa kəşfiyyatına çox böyük zərbə oldu", - deyə o əlavə edib.

Fransanın Azərbaycandakı səfiri Ann Buayonun Xarici İşlər Nazirliyinə çağırılmasının gözlənilən olduğunu deyən deputat xatırladıb ki, səfirliyin iki əməkdaşı diplomatik statuslarına uyğun olmayan fəaliyyətə görə "persona-non-grata" (arzuolunmaz şəxs) elan olunublar. Azərbaycanın Fransanın şər və böhtanlarını, qərəzli addımlarını cavabsız qoymayacağı bəlli idi. Əvvəlcə agentura şəbəkəsinin ifşası, sonra da iki fransız diplomatın arzuolunmaz şəxs elan edilməsi Bakının cavab addımlarıdır. Paris Azərbaycana qarşı yürütdüyü siyasətdə artıq bütün hədləri aşıb. Fransanın bəzi şəhərlərində Azərbaycana aid sözlər silinir, heykəllər götürülür. Özünü demokratiyanın beşiyi, dünya mədəniyyətinin mərkəzi sayan bir dövlət heç bir bəşəri dəyərlərə sığmayan addımlar atır.

Deputat diqqətə çatdırıb ki, Fransa digər regionlardakı itkilərini Qafqazda kompensasiya etmək istəsə də, alınmadı. Bu dövlətin Azərbaycanın ərazi bütövlüyünə, suverenliyinə qarşı təhdidləri cavabsız qalmadı.

Fransanın hazırda Hindistanla əlbir olub Ermənistanı silahlandırmaqla məşğul olduğunu vurğulayan K.Bayramov bildirib ki, Qafqazı münaqişə ocağına çevirməklə regionda təsirini saxlamaq istəyən Paris Ermənistandakı revanşist qüvvələri qızışdırır: "Onların əsas hədəfi bölgədə gedən proseslərə müdaxilə edərək, öz silah-sursatını, hərbi texnikasını Ermənistana satmaqdır. Hesab edirəm ki, Fransız silahları gələcəkdə bölgənin digər dövlətlərinə qarşı da istifadə oluna bilər. Sülh barədə düşünməyən Ermənistan isə dərk etməlidir ki, nə qədər silah-sursat əldə etsə də, ölkəmizə qarşı heç nə edə bilməyəcək. Bəzi dövlətlərin məğlub Ermənistanı silahlandırıb növbəti müharibəyə sövq etmək cəhdi nəticəsiz olacaq".

K.Bayramov əlavə edib ki, Fransanın siyasi yolla Azərbaycana qarşı istər BMT, istərsə də digər beynəlxalq qurumlar səviyyəsində səsləndirdiyi yanlış iddialarının hər biri iflasa uğrayıb. Tarixən insan hüquqlarını kobud şəkildə pozmaqdan çəkinməyən Fransa siyasətinin hansı mərama xidmət etdiyi gün kimi aydındır. Bütün baş verən neqativ halların aradan qaldırılması üçün Korsikadakı vəziyyətin BMT Təhlükəsizlik Şurasının gündəliyinə salınması da zəruridir.

*Nəzrin QAFARZADƏ,*
*"Azərbaycan"*

# Erməni diasporu Paşinyanı siyasi alverə təhrik edir



**Hayastanla Azərbaycan arasında 30 il davam edən keçmiş Qarabağ münaqişəsinə son qoyulsa da, ölkəmiz ərazi bütövlüyünü, suverenliyini bərpa etsə də, hələ də tərəflər arasında sülh müqaviləsinin imzalanmaması regionda sabitliyin təmin olunmasına rəvac vermir. Bunun da yeganə səbəbi cəmi 44 günə Azərbaycan qarşısında diz çöküb savaşın dayandırılmasını xahiş edən Hayastanın cəfəng iddiaları, bəhanələri və hərbi təxribatları idi.**

Son günlərdə erməni siyasi ekspertlərin verdiyi açıqlamalar göstərir ki, Hayastanın rifahı, ümumiyyətlə, xalq olaraq varlıqları Azərbaycanla normal münasibətlərdən keçir. Buna görə də, düşdükləri ağır durumdan xilas olmağın yollarını axtarırlar. Çünki artıq xaricdəki diaspor da onların imdadına çata bilmir.

Politoloq Stepan Movsisyan deyib ki, daha əvvəlki zaman keçib, köhnə dünyanın nizamı çoxdan dağılıb. İndi regionda mühüm hadisələr baş verir. Deməli, Azərbaycanın iradəsi regionda mühüm rol oynayır. Yeni dünya düzəninin formalaşması zamanı bütün münaqişələr həll edilməlidir.

Ancaq revanşist qüvvələr bu prosesin baş tutmaması üçün məkrli niyyətlərini gizlətmədən nümayiş etdirirlər. Buna əngəl olmaq üçün nə daxili, nə də xarici dəstəyə malik olduqlarını da çox yaxşı başa düşürlər. Onlar anlayırlar ki, sülh müqaviləsi bağlandıqdan sonra bir daha Azərbaycana ərazi iddiaları irəli sürə bilməyəcəklər.

Son günlər Paşinyanı siyasi alverə təhrik edənlər isə diaspordakı erməni icmasının üzvləridir. Belə ki, Fransadakı erməni icması birmənalı şəkildə sülh müqaviləsinə qarşıdır. Marseldəki Abovyan kollecinin rəhbəri, yazıçı Karen Xurşudyan deyib ki, İrəvanla Bakı arasında real sülh müqaviləsinə nail olmağın yeganə yolu Hayastanın hərbi cəhətdən güclənməsidir: "Heç bir avropalı Hayastanın sərhədlərini tam müdafiə etməyə gəlməyəcək, heç bir avropalı Azərbaycanı Haaqa Məhkəməsinin qərarını yerinə yetirməyə məcbur etməyəcək. Əsl sülh müqaviləsi ancaq hərbi paritet şəraitində imzalana bilər".

Xurşudyan qeyd edib ki, Fransa Hayastanın hərbi baxımdan gücləndirilməsinin vacibliyini çox yaxşı anlayır. Hayastan öz xarici siyasət əlaqələrini şaxələndirməyi bacarmalıdır, özü üçün lazımi fayda əldə etməlidir. Bu yolda xarici oyunçularla ümumi maraqların yaradılması vacibdir. Əks halda, başqaları həmişə İrəvandan öz məqsədləri üçün istifadə edəcəklər.

Göründüyü kimi, hər iki ölkə arasında sülh müqaviləsinin imzalanmasının aktual olduğu bir dönəmdə hərbi xunta və onları dəstəkləyən diaspor, erməni xalqını növbəti dəfə fəlakətə sürükləyir. Unutmasınlar ki, Azərbaycanla müharibədəki məğlubiyyət Hayastanı elə bir uçuruma yuvarladıb ki, xilası mümkün deyil. Əslində, revanşist qüvvələr çox yaxşı başa düşürlər ki, böyük siyasətə qayıtmaq üçün heç bir şansları yoxdur - xalq hələ onların hakimiyyət dövrünü unutmayıb.

*Elçin CƏFƏROV,*
*"Azərbaycan"*

# Müstəmləkəçi Fransa Afrikadan əl çəkə bilmir

**Tarixən Afrikada Qərb ölkələri əsl yırtıcılar kimi davranmışlar. Onların arasında, məlum olduğu kimi, Fransa aparıcı yerlərdə qərarlaşıb. 1960-cı illərdə Qara qitənin rəsmi müstəmləkəsizləşdirilməsinə baxmayaraq, Paris o zaman artıq keçmiş koloniyaları üzərində qeyri-rəsmi kuratorluq sistemi qurub. "Françafrique" adlanan strategiya, əslində, bir sıra Afrika ölkələrini keçmiş "ağ ağalardan" iqtisadi, hərbi-siyasi asılı vəziyyətə salıb.**



Bu təcrübəyə yaxşı bələd olan ekspertlərin fikrincə, Fransanın regionda hökmranlıq mexanizmi ənənəvi olaraq birbaşa hərbi iştirak (qitədə dörd daimi fransız bazası var - Cibuti, Fil Dişi Sahili, Seneqal və Qabonda), Qərbi Afrika CFA frankı zonası vasitəsilə maliyyə dominantlığı (2019-cu ildə ekoya çevrilib), korrupsiyalaşmış Afrika siyasətçilərinin rüşvətxorluğu və keçmiş metropoliyanın universitetlərində yerli frankofoniya isteblişmentinin "təlqin edilməsi"indən ibarətdir.

Parisin məqsədləri "asılı" ölkələrdə siyasi və iqtisadi proseslərə tam nəzarəti əldə etməkdən ibarət idi. Və faktiki olaraq müstəqil Afrika ölkələrinə sırınan müqavilələr, onların daxili işlərinə birbaşa müdaxilə, hərbi çevrilişlər və hakimiyyətin zorakılıqla fransız tərəfdarı rejimlərə dəyişdirilməsi onların neokolonial siyasətinin alətlərinə çevrilib.

Getdikcə daha çox afrikalıların gözündə nüfuzdan düşmüş Fransa kursu bu gün iflasa uğramaqdadır. Belə ki, Parisin Saheldə terrorun yayılmasına qarşı mübarizə üçün bəyan etdiyi səylərin səmərəsizliyi ilə üzləşən (bu ilin iyun ayında regionda kəskin eskalasiya fonunda Fransa prezidenti Emmanuel Makron 2014-cü ildən bəri davam edən "Barxan" əməliyyatının başa çatdığını və fransız hərbi varlığının kəskin azalmasını elan etmişdi) Mərkəzi Afrika Respublikası və Mali səlahiyyətliləri öz təhlükəsizliklərini təmin etmək üçün artıq alternativ variantlara müraciət ediblər. Belə sorğuların Rusiyanın özəl hərbi şirkəti (ÇVK) tərəfindən alınması faktını daha əvvəl Rusiyanın xarici işlər naziri Sergey Lavrov da təsdiqləyib.

Ancaq keçmiş Afrika koloniyalarının belə müstəqil hərəkətləri Yelisey çöllərində əsəbi reaksiyaya səbəb olub. Bangi və Bamakoya cavab olaraq, fransızlar bütün hərbi və iqtisadi yardımları tamamilə dayandıracaqları ııə bağlı birbaşa şantaj və hədə yolunu tutublar.

Hələ 2015-ci ilin aprelində "The Guardian" Fransa hərbçilərinin CAR-da yetkinlik yaşına çatmayanlara qarşı cinsi zorakılıq hallarında iştirak etdiyi barədə məlumat yayılmışdı. Düzdür, Parisdə bunu xatırlamamağa üstünlük verirlər. Eynilə özlərinin Afrikadakı siyasi problemlərini həll etmək üçün Geos və Defence Conseil International özəl hərbi şirkətlərinin imkanlarından fəal istifadə etmələri faktı kimi...

Qərbdə son vaxtlar irqi gərginliyin artması fonunda fransız siyasətçiləri dəfələrlə öz ölkələrinin müstəmləkə keçmişini yenidən nəzərdən keçirmək və nəhayət, neokolonial qalıqlardan ayrılmaq niyyətlərini bəyan ediblər. Bununla belə, Parisin əməli hərəkətləri bunun əksini göstərir - Fransanın bir sıra Afrika ölkələrində onların suverenliyinə hörmət etmədən və afrikalıların milli maraqlarına məhəl qoymadan, iflasa uğrayan hegemonluğunu saxlamaq istəyindən xəbər verir.

Təəssüf ki, Fransa Qara qitəyə öz müstəmləkəçi yanaşmasından heç cür əl çəkə bilmir.

*Rizvan CƏFƏROV,*
*"Azərbaycan"*

İŞİMİZ, GÜZƏRANIMIZ

# İqtisadi inkişafın əsas hədəfi - sosial rifah

## Təkcə son 5 ildə ölkə üzrə əməkhaqqı fondu 2,7, ünvanlı sosial yardımın aylıq məbləği 3 dəfə artıb

**Hər bir ölkənin iqtisadi inkişafı əhalisinin rifahı, vətəndaşının firavanlığı ilə ölçülür. Bu mənada Prezident İlham Əliyevin həyata keçirdiyi milli inkişaf strategiyası, reallaşdırdığı islahatlar Azərbaycanın qüdrətli iqtisadiyyata və orduya, dünya birliyində mötəbər mövqeyə sahib olması ilə yanaşı, həm də güvənli sosial siyasətə malik bir ölkəyə çevrilməsi ilə nəticələnib.**

Faktlara müraciət edək: son 5 il ərzində həyata keçirilən çoxmiqyaslı və çoxşaxəli sosial islahat proqramları sayəsində Azərbaycanda orta aylıq əməkhaqqı 80 faizədək, median əməkhaqqı 2,2, əməkhaqqı fondu isə 2,7 dəfə artıb. Azərbaycan dövlətinin siyasətində məşğulluq ana xətdir. Məşğulluq təmin edilmədən ölkə iqtisadiyyatı inkişaf edə, əhalinin rifahı təmin oluna bilməz. Dövlət başçısı tərəfindən həyata keçirilən islahatlara, müxtəlif tədbirlərə, qəbul edilən proqramlara nəzər saldıqda bütün tədbirlərin əhalinin rifahına, onun həyat şəraitinin daha da yaxşılaşmasına, o cümlədən məşğulluğun genişləndirilməsinə yönəldiyini görürük. Məlumdur ki, ünvanlı sosial yardım aztəminatlı ailələrə dövlət tərəfindən göstərilən pul yardımıdır. Son beş ildə ünvanlı sosial yardımın aylıq məbləği 3 dəfə artıb. Ümumilikdə ötən 20 ildə isə hər ailəyə düşən orta aylıq məbləğdə 11 dəfə artım olub.

2018-ci ildə yenidən Prezident seçilən İlham Əliyev andiçmə mərasimində demişdir: "Hamımızın amalı ondan ibarətdir ki, ölkəmiz daha da güclənsin, daha da qüdrətli dövlətə çevrilsin, Azərbaycan vətəndaşları daha da yaxşı yaşasınlar". Bu sözlər dövlət başçısının sosial islahatlarla bağlı verdiyi qanun və sərəncamların ana xəttini təşkil etməklə yanaşı, həm də gələcək proqramların, layihələrin anonsu idi. Hər il həm əməkhaqlarında, həm də sosial təminatın növləri üzrə ödənişlərdə artımlar müşahidə olunması isə həmin anonsların reallaşmasıdır.

Dövlət başçısının sosial sahəyə olan diqqət və qayğısı onu deməyə əsas verir ki, ölkəmizin son 20 ildə qazandığı iqtisadi uğurların nəticəsi əhalinin güzəranının yaxşılaşmasında özünü göstərir. Yenə də faktlara nəzər salaq: son 20 ildə sosial müdafiə və sosial təminat xərclərində 20, minimum əməkhaqqında 38, minimum pensiyada 14, orta aylıq əməkhaqqında 12, orta aylıq pensiyada 18, yaşa görə orta aylıq pensiyada 19, pensiya üzrə ödənilən illik vəsaitdə 30 dəfədən çox artım olub. Hər ilin əvvəlində pensiyaların və fərdi hesablardakı pensiya kapitallarının indeksləşdirilərək artırılması da diqqətçəkən məqamlardandır. Hazırda yaşa görə orta aylıq pensiyanın məbləği (467 manat) pensiyaçılar üçün yaşayış minimumundan (199 manat) 2,3 dəfə çoxdur. Xalis minimum aylıq əməkhaqqının xalis orta aylıq əməkhaqqına nisbəti isə 2003-cü ildəki 11,7 faizdən 2018-ci ildə 26,5, bu ilin əvvəlində isə 41,1 faizə çatıb. 2018-2023-cü illərdə orta aylıq pensiya 208 manatdan 437, yaşa görə orta aylıq pensiya 234 manatdan 467 manata, orta aylıq əməkhaqqı 545 manatdan 921 manata çatıb. Median əməkhaqqında 2,2, əməkhaqqı fondunda 2,7, sosial müavinət və təqaüd ödənişlərində 5 dəfə artıma nail olunub. Ehtiyac meyarı 130 manatdan 246, yaşayış minimumu 173 manatdan 246 manata çatdırılıb.



Ölkəmizdə əlillərə, sağlamlıq imkanları məhdud və valideyn himayəsindən məhrum olan uşaqlara diqqət və dəstəyin artırılması sosial ədalətin təcəssümüdür. Məsələn, 12 reabilitasiya və sosial xidmət müəssisəsinin əsaslı təmir və yenidənqurmadan sonra istifadəyə verilməsini, Qəbələdə Uşaq Reabilitasiya Mərkəzinin açılmasını sosial ədalətin təzahürü kimi dəyərləndirmək olar. Bu ilin 11 ayında 78 min 900 nəfər əlilə reabilitasiya xidmətləri göstərilib, 9 min 700 şəxsə 80 min 800 reabilitasiya vasitəsi verilib. Qarşıdakı dövrdə reabilitasiya mərkəzləri şəbəkəsi Azərbaycanın bir çox ərazilərini əhatə edəcək. Quba, Ağcabədi, Kəlbəcər, Şamaxı rayonlarında belə mərkəzlərin açılması nəzərdə tutulub.

Əhalinin ən həssas təbəqəsi şəhid ailələri, qazilərdir. Son islahat paketində bu insanlara verilən təqaüd və müavinətlərin artımı önə çəkilib. Şəhid ailələrinin, qazilərin mənzil-məişət şəraitinin yaxşılaşdırılması, onlara ev tikmək üçün torpaq sahəsinin və fərdi mənzillərin verilməsi üçün dövlət başçısının tapşırığı ilə çox mühüm addımlar atılır. Prezidentin göstərişi ilə şəhid ailələri və müharibə iştirakçıları ilə bağlı sosial dəstək proqramı hazırlanıb. Proqram çərçivəsində qeyd olunan kateqoriyadan olan 126 min şəxs sosial dəstək yönümlü 322 min xidmətlə təmin edilib.

2007-ci ilin əvvəlindən şəhid ailələri, 2008-ci ilin sentyabrından isə müharibə ilə əlaqədar əlilliyi olan şəxslər Prezidentin aylıq təqaüdü ilə təmin edilirlər. Həmin təqaüdlərin məbləği ötən dövrdə şəhid ailələri üçün 6 dəfə artırılaraq 100 manatdan 600, müharibə ilə əlaqədar orqanizmin funksiyalarının 81-100 faiz pozulmasına görə (I dərəcə) əlilliyi olan şəxslər üçün 5,6 dəfə artırılaraq 90 manatdan 500, orqanizmin funksiyalarının 61- 80 faiz pozulmasına görə (II dərəcə) əlilliyi olan şəxslər üçün 5,7 dəfə artırılaraq 70 manatdan 400, orqanizmin funksiyalarının 31- 60 faiz pozulmasına görə (III dərəcə) əlilliyi olanlar üçün 6,6 dəfə artırılaraq 50 manatdan 330 manata çatdırılıb.

Bundan əlavə, postmüharibə dövründə şəhid ailələri və müharibə iştirakçılarından ibarət 104 min nəfərə 117 min sosial ödəniş təyinatı həyata keçirilib, 11 min nəfərə 54,5 min sosial-psixoloji dəstək və reabilitasiya xidməti göstərilib. 453 hərbçi 472 yüksəktexnologiyalı son nəsil protezlə, 21,9 min şəxs birdəfəlik ödəmə ilə təmin olunub. 20 min 500 nəfərin məşğulluğunun təminatı həyata keçirilməklə, onlardan 10 min 300 nəfər üçün özünüməşğulluq proqramı çərçivəsində kiçik ailə təsərrüfatları qurulub. Şəhid ailələri və qazilərə ünvanlanan müavinət və təqaüdlər də orta hesabla 2 dəfə artıb. Onlara Vətən müharibəsindən sonra 5 min 800, ümumilikdə, 14 min 600 mənzil verilib. Həmçinin qazilər müharibədən sonra 424, ümumən ötən dövrdə 7 min 600 avtomobillə təmin olunublar.

Böyük uayıdış proqramının icrası uğurla davam edir. Artıq Zəngilan rayonunun Ağalı, Tərtər rayonunun Talış, Laçın rayonunun Zabux kəndlərinin, Laçın və Füzuli şəhərlərinin sakinlərinin bir qismi öz doğma yurdlarına köçüblər. Sakinlərin işğaldan azad olunmuş ərazilərə qayıdışı təmin edildikcə diqqət mərkəzində saxlanılan vacib məsələlərdən biri də həmin ərazilərdə məşğulluğun təmin edilməsidir. Bir müddətdir ki, Laçın, Şuşa, Füzuli, Zəngilan, Cəbrayıl şəhərləri, Laçının Zabux və Sus, Füzulinin Dövlətyarlı, Cəbrayılın Horovlu və Şükürbəyli, Qubadlının Mahruzlu və Zilanlı, Ağdərənin Talış və Suqovuşan, Ağdamın Xıdırlı, Kəngərli və Sarıcalı kəndlərinin sakinləri üçün peşə hazırlığı kurslarının təşkilinə başlanılıb. Kurslarda həmin ərazilərdə məskunlaşan işsizlər sənət öyrənəcəklər. Bu bölgələrdə ilkin mərhələdə 12 min şəxsin peşə hazırlığına cəlb edilməsi planlaşdırılır.

Sosial sahədə durmadan aparılan yeniliklər burada xidmətlərin şəffaf, operativ və əlçatan şəkildə təşkil olunmasına istiqamətlənib. Qarabağ Regional DOST Mərkəzində Ambulator Reabilitasiya Mərkəzinin açılması ən son yenilikdir. Ümumilikdə müasirləşən sosial infrastruktur əlilliyi olan və bənzər kateqoriyaya məxsus insanların bərpa prosesinin sürətləndirilməsinə xidmət edir.

***Züleyxa ƏLİYEVA,***
***"Azərbaycan"***

## Pandemiyadan zərərçəkmiş 41 sahibkarın kredit borcunu dövlət ödəyib

**Nazirlər Kabinetinin 2020-ci il 9 iyul tarixli qərarına əsasən, koronavirus pandemiyasından zərərçəkmiş sahibkarlıq subyektlərinə maliyyə dəstəyinin göstərilməsi tədbirləri çərçivəsində 2020-2021-ci illər ərzində kommersiya bankları tərəfindən sahibkarlara ayrılan kredit məbləğinin 60 faizinədək olan hissəsinin qaytarılmasına dövlət zəmanətinin verilməsi nəzərdə tutulmuşdur.**

Maliyyə Nazirliyinin yaydığı məlumatda bildirilir ki, dövlət dəstəyi sayəsində 2628 sahibkara ümumilikdə 499,5 milyon manat kredit ayrılıb. Onun 291,6 milyon manat hissəsi dövlət zəmanəti ilə təmin olunub. Maliyyə Nazirliyi ilə Sahibkarlığın İnkişafı Fondu, fondun isə qeyd edilən banklarla və sahibkarlarla bağladığı sazişlərə uyğun olaraq nazirlik həmin kreditlər üzrə dövlət zəmanətinin verilməsində zamin tərəf müəyyən olunub.

Dövlət zəmanətli kreditlərin ayrıldığı müddətdən etibarən əsas borc öhdəliyi vaxtında yerinə yetirilmədiyindən Maliyyə Nazirliyi ümumilikdə 7 bank qarşısında zamin tərəf olaraq "Dövlət borcu və zəmanəti üzrə öhdəliklərin Təminat Fondu"nun vəsaiti hesabına 2022-ci ildə 14 sahibkarın əvəzinə 658,2 min, 2023-cü ilin 12 ayı ərzində isə 27 sahibkarın əvəzinə 1 milyon 531,1 min manat həcmində vəsait ödəyib. Beləliklə, proqramın qüvvədə olduğu iki il ərzində ümumilikdə 41 sahibkarın 2 milyon 189 min 300 manat məbləğində vaxtı ötmüş kredit borc öhdəlikləri dövlət tərəfindən qarşılanıb.

Dövlət zəmanətlərinin verilməsi şərtlərinə uyğun olaraq, Sahibkarlığın İnkişafı Fondu dövlət zəmanəti əsasında sahibkarlıq subyektlərinin əvəzinə banklara ödənilmiş kredit borcunu həmin sahibkarlıq subyektlərindən tələb etmək hüququna malikdir.

## Gələn ildən tibb müəssisələrinə vergi güzəşti tətbiq ediləcək

**Vergi Məcəlləsində edilmiş dəyişikliklərin əsas hədəfi sahibkarlıq fəaliyyəti subyektlərinin vergi yükünün optimallaşdırılması, sahibkarlıq fəaliyyətinin təşviqi, sosial xarakterli vergi güzəştləri ilə əhalinin vergi yükünün azaldılması, "kölgə iqtisadiyyatı"na qarşı mübarizə tədbirlərinin təkmilləşdirilməsidir.**

Dövlət Vergi Xidmətinin yaydığı məlumata görə, biznesin vergi yükünün azaldılması və sahibkarlıq fəaliyyətinin təşviqi istiqamətində mühüm dəyişikliklərdən biri də tibb müəssisələri üzrə vergi güzəştinin tətbiqi ilə bağlıdır. Səhiyyə sahəsi üzrə əməliyyatların şəffaflaşdırılması və vergi yükünün optimallaşdırılması məqsədilə tibb müəssisələrinə və özəl tibbi praktika ilə məşğul olan şəxslərə ƏDV üzrə güzəştlər verilib.

Qanunvericilikdə edilmiş son dəyişikliklərə əsasən, səhiyyə müəssisələrinin və özəl tibbi praktika ilə məşğul olan fiziki şəxslərin hesabat dövrü ərzində əhaliyə göstərilən tibbi xidmətlər üzrə nağdsız qaydada POS-terminal vasitəsilə aparılan ödəmələr əsasında formalaşan dövriyyəsinin 50 faizinin 2024-cü il yanvarın 1-dən 3 il müddətinə vergi tutulan ümumi dövriyyədən çıxılması nəzərdə tutulur. Eyni zamanda dövlət büdcəsinə hesablanarkən ƏDV məbləğinin azaldılmasından əldə edilən gəlirlər mənfəət və gəlir vergisindən azad olunub.

## Regionun ilk virtual sərgi və konfrans məkanı

**İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin (İİTKM) operatoru olduğu "Azexport.az" portalı tərəfindən Azərbaycanın və regionun ilk virtual sərgi və konfrans məkanı istifadəyə verilib.**

Virtual sərgi zalında pilot olaraq 10 şirkət və media nümayəndələri üçün stendlər hazırlanıb. Bu stendlərdə məhsulların 3D forması ilə tanış olmaq və onlayn ticarət əməliyyatları aparmaq üçün müvafiq imkanlar yaradılıb.

Bununla yanaşı, hər stend üzrə təmsilçinin videogörüntülü və səsli olmaqla sərgi ziyarətçiləri ilə müzakirələrə qatılmaq fürsəti verilib. Bu, stendə yaxınlaşan sərgi ziyarətçiləri ilə daha rahat ünsiyyət qurmağa imkan verir. Virtual məkanda sərgilərin təşkili ilə yanaşı, yeni brendlərin təqdimatı, virtual görüşlərin təşkili, təlim və seminarların həyata keçirilməsi imkanları mövcuddur. Bunun üçün 500 nəfərlik rəqəmsal konfrans zalı yaradılıb. Virtual məkan zamandan və məkandan asılı olmadan dünyanın istənilən nöqtəsindən istifadəyə açıq olmaqla, "Made in Azerbaijan" brendli məhsulları daha geniş auditoriyaya çatdırmağa xidmət edir.

Qeyd edək ki, "MTradeVerse" platformasının dəstəyi ilə hazırlanmış rəqəmsal məkanın təqdimatında virtual ziyarətçilər sərgi və konfrans zallarında yaradılan imkanlarla tanış olublar. İştirakçılara yaradılan imkanlar barədə məlumat verilib. Növbəti mərhələdə platformaya əcnəbi ziyarətçilərin qatılması və sərgi ərazisinin genişləndirilməsi ilə yeni şirkət və məhsulların əlavə olunması nəzərdə tutulub.

## Vergi ödəyiciləri üçün yeni nəsil rəqəmsal "Asan İmza" xidməti istifadəyə verilib

**İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidməti "BEST Solutions" şirkəti ilə birlikdə elektron SİM əsaslı (eSİM) yeni nəsil gücləndirilmiş mobil rəqəmsal "Asan İmza" xidmətini təqdim edib. eSİM SİM-kart vasitəsilə əldə edilən "Asan İmza"nın elektron formasıdır.**

Müasir smartfonların dəstəklədiyi eSİM "Asan İmza" ilkin mərhələdə mobil operatorlardan birinin abunəçiləri üçün nəzərdə tutulub, sonrakı mərhələdə isə digərlərinin abunəçiləri tərəfindən də istifadəsi mümkün olacaq. Yeni nəsil eSİM "Asan İmza" həllinin bir sıra üstünlükləri mövcuddur. Bu həll, ilk növbədə, elektron sənədlərin etibarlı şifrələnməsi və deşifrə olunmasını, müasir kriptoalqoritmlər vasitəsilə təhlükəsizliyi təmin edir. Eyni zamanda virtual eSİM kartının tətbiqi fiziki SİM-kartın oğurlanması və ya itirilməsi riskini aradan qaldırır.

Smartfonlara quraşdırılan yeni nəsil texnologiyaya əsaslanan eSIM fiziki SİM-kartı əvəz edir. eSİM həllinin üstünlüklərinə yalnız yüksək təhlükəsizlik deyil, həmçinin ekoloji cəhətdən səmərəli, plastik kartlardan imtina konsepsiyasına uyğunluq və təkmilləşdirilmiş funksionallıq xüsusiyyətləri daxildir. eSİM istifadəçisi telefonunda bir neçə nömrəni aktiv saxlamaq imkanı əldə edir.

Xatırladaq ki, 2024-cü il yanvarın 1-dən vergi ödəyicilərinin məlumatlarının təhlükəsizliyi və mühafizəsinin təmin edilməsi məqsədilə İnternet Vergi idarəsinə (www.e-taxes.gov.az) istifadəçi kodu, parol və şifrə vasitəsilə daxil olmaq imkanı məhdudlaşdırılacaq.

"Asan İmza" "Elektron imza və elektron sənəd haqqında" qanuna uyğun olaraq, əl imzası ilə bərabər hüquqi qüvvəyə malikdir, dövlət və özəl sektorda 2000-dən çox elektron xidmətdə fəal istifadə edilir. Bu günə qədər 3 milyondan çox "Asan İmza" sertifikatı verilib və 300 milyondan çox tranzaksiya icra edilib.

# *AMB:* "Gələn il iqtisadi artımın 3-3,5 faiz civarında olacağı gözlənilir"

**Yola salmağa hazırlaşdığımız 2023-cü ildə ölkəmizdə makroiqtisadi göstəricilərin artımı müşahidə olunmuşdur. Yanvar-noyabr aylarında əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə ÜDM real ifadədə 0,8, o cümlədən qeyri-neft-qaz sektoru üzrə 3,2 faiz artmışdır. Qeyri-neft-qaz sektorunda iqtisadi artımı həm daxili, həm də xarici tələb dəstəkləmişdir. Sözügedən dövr ərzində məşğulluğun səviyyəsində də artım müşahidə edilmişdir.**

Mərkəzi Bankın real sektorun monitorinqi üzrə apardığı sorğunun nəticələri iqtisadi fəallığın davam etdiyini təsdiqləyir. Belə ki, 11 ayda ticarət, xidmət və tikinti sektorları üzrə biznes inamı indeksi ötən ilin eyni dövrünə nisbətən artmışdır. Qeyri-neft-qaz sənayesi müəssisələrində istehsal güclərinin yüklənməsi səviyyəsi yüksəlmişdir. Ev təsərrüfatları arasında aparılan sorğular 2023-cü ilin dekabrında istehlakçı inamı indeksinin ötən ilin həmin ayı ilə müqayisədə əhəmiyyətli yaxşılaşmaqla müsbət zonada qərarlaşdığını göstərir. 11 ayda keçən ilin eyni vaxtına nisbətən pərakəndə ticarət dövriyyəsinin 3,6, qeyri-neft-qaz investisiyalarının həcminin 12,5 faiz artması da 2023-cü ili səciyyələndirən faktlardır.

Qlobal əmtəə qiymətlərinin azalması və həyata keçirilən antiinflyasiya siyasəti nəticəsində qlobal inflyasiya azalır. İllik inflyasiya həm xarici, həm də daxili amillərdən təsirlənərək azalmış, 25 aylıq fasilədən sonra hədəf daxilində formalaşmağa başlamışdır. İnflyasiya təzyiqlərinin azaldılmasında valyuta bazarında tarazlığın qorunması, manatın nominal effektiv məzənnəsinin möhkəmlənməsi, qəbul edilmiş pul siyasəti qərarları və hökumətin həyata keçirdiyi tədbirlər mühüm rol oynamışdır.

Bəs gələn il üçün proqnozlar necədir? Bu barədə "Azərbaycan Respublikası Mərkəzi Bankının 2024-cü il üçün pul siyasətinin əsas istiqamətləri barədə bəyanatı təsəvvür yaradır. Belə ki, gələn il real iqtisadi artım tempinin 3-3,5 faiz, o cümlədən qeyri-neft-qaz sektoru üzrə 5-5,5 faiz civarında olacağı gözlənilir.



Bəyanatda deyilir ki, növbəti ildə də işğaldan azad edilmiş ərazilərdə irimiqyaslı bərpa-quruculuq işləri iqtisadi artıma müsbət impulslar verəcək: "Ölkədə makroiqtisadi sabitliyin qorunması iqtisadi artım proqnozunun reallaşmasının əsas şərtlərindən biri olaraq qalacaq. Hökumətin, beynəlxalq maliyyə-kredit təşkilatlarının və aparıcı reytinq agentliklərinin də Azərbaycandakı iqtisadi artımın perspektivləri ilə bağlı gözləntiləri nikbindir. İqtisadi siyasətin digər istiqamətləri çərçivəsində həyata keçirilən tədbirlər də Mərkəzi Bankın makroiqtisadi proqnozlarının hazırlanmasında nəzərə alınacaq. 2024-cü ildə də fiskal siyasət pul siyasətinin həyata keçirilməsi şəraitinə, bank sisteminin likvidliyinə, valyuta bazarına və məcmu tələbə təsir göstərən amillərdən biri olacaq".

Mərkəzi Bankın pul siyasəti gələn il də ölkədə qiymət sabitliyinin təmin olunmasına, yəni inflyasiyanın aşağı və stabil səviyyədə saxlanılmasına yönəldiləcək. İnflyasiyanın "Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası" ilə elan edilmiş hədəf intervalında saxlanılması pul siyasətinin əsas məqsədi olacaq. Qiymət sabitliyini dəstəkləməklə Mərkəzi Bank ölkə iqtisadiyyatının dayanıqlı artımına şərait yaradacaq.

Gələn ilin pul siyasətinin əsas istiqamətləri növbəti ilə qlobal iqtisadiyyat və əmtəə bazarları, habelə ölkənin xarici, fiskal, maliyyə və real sektorları üzrə proqnozları nəzərə alınmaqla işlənmişdir. Bu proqnozlar növbəti ildə qlobal iqtisadi artımın azalacağını, qlobal enerji və ərzaq qiymətlərinin sabitləşəcəyini, habelə ticarət tərəfdaşlarında inflyasiya proseslərinin səngiyəcəyini deyir. Ümumilikdə, xarici şəraitin ölkəmizin iqtisadiyyatı üçün əlverişli olaraq qalacağı proqnozlaşdırılır. Ümumiyyətlə, gələn il Azərbaycan iqtisadiyyatının real sektorunda artımın davam edəcəyi gözlənilir.

2024-cü ildə Mərkəzi Bankın pul siyasəti qiymət sabitliyinin təmin edilməsinə, proqnozlaşdırılan inflyasiya və inflyasiya gözləntilərinin qəbul edilmiş dəhliz daxilində sabitləşməsinə yönəldiləcək. "Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası"na uyğun olaraq pul siyasətinin hədəfi növbəti ildə də illik inflyasiyanı 4±2 faiz intervalında saxlamaqdan ibarət olacaq. Əvvəlki illərdə olduğu kimi, növbəti ilə də hədəf göstəricisi Dövlət Statistika Komitəsi tərəfindən hesablanan istehlak qiymətləri indeksini son 12 ayda dəyişimi təşkil edəcək.

***Flora SADIQLI,***
***"Azərbaycan"***

# Bu il Qarabağ və Şərqi Zəngəzurda "AzərEnerji" ASC-nin 12 enerji obyektinin açılışı olub

## 2024-cü ildə isə daha 12 su-elektrik stansiyası istismara veriləcək

**İşğaldan azad edilən ərazilərdə 2023-cü ildə "AzərEnerji" tərəfindən 12 yerdə tikilən yarımstansiya və su-elektrik stansiyalarının açılışı olub.**

Belə ki, Prezident İlham Əliyevin iştirakı ilə Azərbaycan-Türkiyə-Avropa ölkələrarası beynəlxalq enerji dəhlizi layihəsi çərçivəsində tikilən 330 kV-luq "Cəbrayıl" qovşaq yarımstansiyası istismara verilib.

"AzərEnerji" ASC-nin Mətbuat xidmətindən verilən məlumata görə, həmçinin "yaşıl enerji" strategiyasına uyğun olaraq 2023-cü ildə Kəlbəcər rayonunda 8,33 meqavat gücündə "Çıraq-1", 3,6 meqavat gücündə "Çıraq-2", 6,33 meqavat gücündə "Qamışlı", 5,3 meqavat gücündə "Soyuqbulaq" və 3,4 meqavat gücündə "Meydan" kiçik su-elektrik stansiyalarının yenidənqurmadan sonra açılışı olub.

Paralel olaraq 2023-cü ildə "AzərEnerji" tərəfindən Laçında yeni tikilən 110 kilovoltluq "Qorçu" yarımstansiyasının və "Laçın" şəhər qovşaq yarımstansiyasının açılışı həyata keçirilib. Bununla yanaşı,














Laçın rayonunda yenidən qurulan 8,25 meqavat gücündə "Mişni" və 6 meqavat gücündə "Alxaslı" kiçik su-elektrik stansiyaları yenidən qurularaq istismara buraxılıb. Prezident İlham Əliyev, həmçinin "AzərEnerji"nin yeni tikilən 10,5 meqavat gücündə "Cahangirbəyli" Su-Elektrik Stansiyasının açılışında da iştirak edib. Dekabr ayında isə 110 kilovoltluq "Ağdam" qovşaq yarımstansiyasının açılışı həyata keçirilib.

2023-cü ilin ən yaddaqalan hadisələrindən biri isə 19-20 sentyabr antiterror tədbirlərindən cəmi 4 gün sonra Xankəndi və digər ərazilərin Azərbaycan enerji sisteminə qoşulması olub.

Sonda onu da qeyd edək ki, 2023-cü ildə işğaldan azad edilən ərazilərdə "AzərEnerji"nin 9 elektrik stansiyasının tikintisinə başlanılıb və hazırda həmin 9 stansiya da daxil olmaqla Qarabağ və Şərqi Zəngəzurda 12 yerdə ekoloji cəhətdən təmiz "yaşıl enerji" istehsal edəcək su-elektrik stansiyalarının tikintisi davam edir və onların bir neçəsində işlər tamamlanıb. Bu 12 stansiyanın isə 2024-cü ildə istismara verilməsi nəzərdə tutulub.

# Cocuq Mərcanlıda bayram sevinci

**Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndində Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il bayramı münasibətilə tədbir keçirilib.**



AZƏRTAC xəbər verir ki, Şərqi Zəngəzur iqtisadi rayonuna daxil olan Cəbrayıl, Qubadlı və Zəngilan rayonlarında Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəliyi, Şərqi Zəngəzur İqtisadi Rayonunda 1 saylı Bərpa, Tikinti və İdarəetmə Xidməti tərəfindən təşkil edilmiş tədbirdə kənd sakinləri iştirak ediblər.

Milli birlik, mənəvi dəyərlərimizə hörmət, Vətənə məhəbbət və bağlılıq hisslərini özündə təcəssüm etdirən Həmrəylik günü və Yeni il münasibətilə təşkil olunmuş tədbirdə əvvəlcə Dövlət himni səsləndirilib, torpaqlarımızın bütövlüyü uğrunda canını fəda etmiş qəhrəman oğullarımızın ruhu birdəqiqəlik sükutla anılıb. Daha sonra incəsənət xadimlərinin ifasında konsert proqramı təqdim olunub.

Yeni il personajlarının iştirakı ilə baş tutan tədbir uşaqların bayram əhvali-ruhiyyəsini daha da artırıb, bu günü onlar üçün unudulmaz edib. Tədbirin sonunda uşaqlara hədiyyələr paylanıb.

# "İmarət" kompleksi ərazisində 213 qəbir müəyyən edilib

**"İmarət" kompleksində aparılan tədqiqat nəticəsində burada çox sayda müsəlman qəbirləri, daş abidələrin fraqmentləri - başdaşları, sinədaşları aşkarlanıb. Ərazidə xüsusilə kəllə və çənə sümükləri, çox sayda insan skeletinin fraqmentləri tapılıb. Onların arasında xan nəslinə aid olan qədim sərdabə tipli qəbirlər də var. Burada sovet dövründə dəfn edilənlərin qəbirlərinin böyük bir hissəsi vandalizmə məruz qalıb.**



Bunu AZƏRTAC-a Azərbaycan Milli Elmlər Akademiyasının Arxeologiya, Etnoqrafiya və Antropologiya İnstitutunun direktoru Fərhad Quliyev bildirib.

O qeyd edib ki, "İmarət" kompleksi ərazisində aparılan qazıntılar zaman 213 qəbir müəyyən olunub. Bu qəbirlərin əksəriyyəti torpaq qəbirlərdir. Antropoloji tədqiqatlar nəticəsində məlum olub ki, ermənilər əsasən XX əsrin 30-70-ci illərinə aid olan qəbirlərin başdaşlarını, sinədaşlarını tikinti materialı kimi istifadə ediblər.

Fərhad Quliyev onu da bildirib ki, türbələrdə dəfn olunan xan ailəsinin üzvlərinə məxsus qəbirlər açılıb və onların qohumluq əlaqələrini sübuta yetirən faktları bir yerə toplamaq üçün müəyyən olunmuş 213 qəbirin 22-dən DNT nümunələri götürülüb: "Türbələrdəki qəbirlər açıldı və orada dəfn olunan xan ailəsinin məhz bir-birinə qohumluq əlaqələrini sübuta yetirən faktları üzə çıxarmaq məqsədilə DNT analizləri üçün nümunələr götürüldü. Çünki bu gün də bəzi yazılı mənbələrdə hansı türbədə hansı xanın və ailə üzvünün dəfn olunması ilə bağlı ziddiyyətli fikirlər var. Məsələn, bizdə məlumat var idi ki, ikinci türbədə yalnız bir qəbir var. Amma yeddi qəbir aşkar olundu. Əksəriyyəti də uşaqlara aid qəbirlərdir. Antropologiya sahəsindəki yeni tədqiqat üsullarını tətbiq etməklə biz nəinki onların qohumluq əlaqələrini, həmçinin kəllə sümüyünün skan edilməsi vasitəsilə sifət cizgilərini də müəyyən edə biləcəyik. Aparılan tədqiqatların yekununda biz Qarabağ xanlığının tarixi gerçəkliyini dəqiq bir şəkildə xalqımıza və ictimaiyyətə təqdim edə biləcəyik".

# "AzərGold" Gəncə və Daşkəsəndə sınaq rejimində iki zavod istifadəyə verdi

**Ölkəmizdə dağ-mədən sənayesinin dayanıqlı inkişafı istiqamətində fəaliyyətini davam etdirən "AzerGold" Qapalı Səhmdar Cəmiyyəti (QSC) Gəncə-Daşkəsən iqtisadi rayonunda iki irimiqyaslı istehsal müəssisəsi layihəsini uğurla icra edib. Səhmdar Cəmiyyət Daşkəsən rayonunda yerləşən Çovdar İnteqrəolunmuş Regional Emal Sahəsində (ÇİRES) Çəndə Qələviləşdirmə Zavodu, QSC-nin törəmə şirkəti - "AzerBlast" MMC Gəncə şəhərində Sənaye Partlayıcı Maddələrinin İstehsalı Zavodunu sınaq rejimində istifadəyə verib.**







Dekabrın 28-də Ekologiya və Təbii Sərvətlər naziri Muxtar Babayev, İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidmətinin rəisi, "AzerGold" QSC-nin Müşahidə Şurasının sədri Mətin Eynullayev, İqtisadiyyat nazirinin müavini Səməd Bəşirli, "AzerGold" QSC-nin İdarə Heyətinin sədri Zakir İbrahimov, eləcə də Ekologiya və Təbii Sərvətlər, İqtisadiyyat nazirliklərinin, Azərbaycan İnvestisiya Holdinqinin nümayəndələri, yerli icra hakimiyyəti orqanlarının rəhbər şəxslərinin iştirakı ilə müəssisələrə baxış keçirilib.

Tədbir iştirakçıları əvvəlcə Gəncə şəhərində inşa olunan Sənaye Partlayıcı Maddələrinin İstehsalı Zavodunda yaradılan şəraitlə tanış olublar. Zavodun istehsal imkanları və istehsal texnologiyaları haqqında məlumat verən "AzerBlast" MMC-nin baş direktoru Rizvan Baxşıyev hazırda ölkəmizdə mülki təyinatlı partlayıcı maddələrin yeganə istehsal müəssisəsində əsasən dağ-mədən və inşaat sənayesində istifadə olunan ANFO (quru mühitdə istifadə üçün nəzərdə tutulan partlayıcı növü) və H-ANFO (nəm mühitdə istifadə üçün nəzərdə tutulan partlayıcı növü) partlayıcı maddələrinin istehsalının həyata keçiriləcəyini bildirib.

Ümumi sahəsi 5665 kvadratmetr olan müəssisənin inşasına 2023-cü ilin yanvar ayında başlanıldığı, inşaat prosesinin 12 ay davam etdiyi diqqətə çatdırılıb. Zavodun istehsal xətti Türkiyənin "HTD Kimya ve Mühendislik A.Ş" şirkətinin texnoloji dizaynı, Almaniya, Böyük Britaniya və Türkiyə istehsalı olan avadanlıqlardan istifadə edilməklə təşkil olunub.

Hazırda ölkəmizdə sənaye partlayıcılarına tələbat idxal hesabına ödənilir. Bu zavodun tam rejimdə fəaliyyətə başlaması ilə ölkəmizdə sənaye təyinatlı partlayıcı maddələrə tələbat yerli istehsal hesabına təmin ediləcəyi və idxaldan asılılığın aradan qaldırılacağı vurğulanıb. Belə ki, fəaliyyətin ilkin mərhələsində zavodda yerli tələbat və ixrac potensialları qiymətləndirilməklə illik 14000 ton ANFO və H-ANFO partlayıcı maddələrin istehsalı həyata keçiriləcək. Müzəffər Ali Baş Komandan İlham Əliyevin liderliyi ilə işğaldan azad edilən Qarabağ və Şərqi Zəngəzurun dağ-mədən sənayesi üzrə mövcud potensialı, genişmiqyaslı tikinti layihələri, həmçinin daha geniş ixrac potensialı nəzərə alınaraq, növbəti mərhələdə zavodun illik istehsal həcminin maksimal həddə - 31500 tona çatdırılması planlaşdırılır. Bu məqsədlə ilkin mərhələdə 35 nəfərlik işçi heyəti ilə işə başlayacaq



müəssisədə istehsalatın aktiv dövründə əməkdaşların sayının 65 nəfərədək artırılması nəzərdə tutulub.

Tədbir iştirakçıları daha sonra ÇİRES-də qiymətli metal filizlərinin çəndə qələviləşdirmə (CIL - CarbonInLeach) texnologiyası ilə emalını həyata keçirəcək zavodun fəaliyyəti, eləcə də "Çovdar" mədənində hasilat prosesi və nəm tullantıların idarə olunması prosesi ilə tanış olublar.

Qiymətli metal filizlərinin emalında texniki və iqtisadi səmərəliliyin daha da artırılması məqsədilə inşa olunan zavodun təyinatı "Çovdar" və cinah mədənlərində hasilat və istehsalat prosesinin daha mürəkkəb, əməliyyat xərclərinin daha yüksək olduğu mərhələdə - Sulfid fazasında filizlərin emalının optimal texnoloji üsulla həyata keçirilməsidir. Belə ki, illik 1.1 milyon ton filizüyütmə potensialına malik olan zavodun fəaliyyəti ilə filizlərin mineraloji tərkibindən və metallurji xüsusiyyətlərindən asılı olaraq qızılın 90 faizədək çıxımı təmin olunacaq. Qızıl mədənlərinin Oksid fazası üzrə isə maksimum səmərəliliyin təmin edilməsi üçün topa qələviləşdirmə (HLP - Heap Leach Pad) texnologiyası tətbiq edilir.

ÇİRES-də çəndə qələviləşdirmə texnologiyası Böyük Britaniyanın beynəlxalq nüfuzlu "Micon International Co Limited" şirkətinin hazırladığı texnoloji dizayn əsasında layihələndirilib. Türkiyənin "Maqro Construction" şirkətinin əsas podratçı qismində iştirakı ilə inşa edilən, Almaniya, İsveç, İsveçrə, Kanada və Türkiyə istehsalı olan müasir avadanlıqlarla təchiz olunan zavod, eləcə də tikinti-quraşdırma işləri həyata keçirilən Nəm tullantı anbarı, Qoşqarçay çayından çəkilən texniki su boru xətti və digər köməkçi infrastruktur obyektləri ümumilikdə 22 ay ərzində tam hazır vəziyyətə gətirilib.

Sınaq rejimində istifadəyə verilən hər iki zavodda layihənin icrası zamanı yerli və beynəlxalq qanunvericiliyin tələblərinə uyğun olaraq bütün növ təhlükəsizlik normalarına ciddi riayət olunub. Layihələr üzrə Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Dövlət Ekoloji Ekspertiza Agentliyi tərəfindən təsdiq edilmiş Ətraf və Sosial Mühitə Təsirin Qiymətləndirilməsi sənədlərinə əsasən, istehsalatın yüksək ekoloji norma və standartlara uyğunluğu tam təmin edilib. Zavodda işçilərin sağlamlığı və əməyin təhlükəsizliyi üçün müvafiq idarəetmə sistemi qurulub.

Sənaye Partlayıcı Maddələrinin İstehsalı Zavodu layihəsinə 15 milyon manat, Çəndə Qələviləşdirmə Zavodu layihəsinə isə 236 milyon manat investisiya qoyulub. Sözügedən vəsaitlər dövlət büdcəsinə əlavə yük yaratmadan, daxili imkanlar hesabına təmin edilib. Yeni zavodların 2024-cü ildə tam gücü ilə fəaliyyətə başlaması regional sosial-iqtisadi inkişafa müsbət təsir etməklə yanaşı, ixrac potensialının genişlənməsi ilə ölkə iqtisadiyyatının, xüsusilə də qeyri-neft-qaz sahəsinin dayanıqlı inkişafına da öz töhfələrini verəcək.

# "İmarət"də aparılan arxeoloji tədqiqat işlərinin birinci mərhələsi başa çatır

**"İmarət" kompleksində aparılan arxeoloji tədqiqat işlərinin birinci mərhələsi yekunlaşır. Tədqiqat işlərinin ikinci mərhələsinə başlanılacaq. Bunu AZƏRTAC-a Mədəniyyət Nazirliyi yanında Mədəni İrsin Qorunması, İnkişafı və Bərpası üzrə Dövlət Xidmətinin rəisi Səbinə Hacıyeva bildirib.**



O deyib: "Ərazidə geniş arxeoloji qazıntıların aparılması ilə yanaşı, abidələrin vəziyyəti də öyrənilib, tədqiqatlar aparılıb. "Tarixi mənbələrdən məlumat var ki, "İmarət" kompleksində istifadə olunan daşlar Şahbulaqdan gətirilib. Odur ki, bərpa işləri zamanı istifadə olunan daşlar da həmin yerdən gətirilir. Çalışacağıq ki, layihə mümkün qədər tez yekunlaşsın".





# Mədəniyyət





● Ünvan Azərbaycandır



## Mədəniyyətlərin və sivilizasiyaların qovuşduğu məkan

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin beynəlxalq təşəbbüslərə göstərdiyi dəstək sayəsində ölkəmiz dünyanın mədəniyyət və sivilizasiyalararası dialoq mərkəzinə çevrilib. Müxtəlif mədəniyyətlərə və dinlərə hörmət əsrlər boyu xalqımızın həyat amalı olub. Azərbaycanın mədəniyyətlər və sivilizasiyalar arasında dialoqa dair böyük beynəlxalq tədbirlərə evsahibliyi etməsi artıq ənənə şəklini alıb. Bu ənənənin həm coğrafi, həm tarixi, həm də mədəni əsasları var. İlk növbədə ona görə ki, ölkəmizdə dinindən irqi mənsubiyyətindən asılı olmayaraq müxtəlif xalqların nümayəndələri əsrlər boyu bir ailə kimi mehribancasına yaşayırlar.**

Azərbaycanın həm geosiyasi vəziyyəti, həm də mədəni zənginliyi "Bakı prosesi" çərçivəsində mədəniyyətlərarası dialoq təşəbbüslərini Avropa və ona qonşu olan regionların hüdudlarından çıxararaq, daha qlobal səviyyəyə yüksəltməyə imkan verdi. Bu baxımdan "Mədəniyyətlərarası dialoqa dair Bakı Prosesi"nin davamı kimi, Prezident İlham Əliyevin dəstəyi ilə 2011-ci ilin aprelində Azərbaycan paytaxtında "Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu"nun keçirilməsi təşəbbüsü irəli sürüldü. Dövlət başçısı xarici tərəfdaşların və tədbir iştirakçılarının müraciətləri, ölkəmizin bu sahədə davamlı fəaliyyətinin təmin edilməsi məqsədilə forumun hər ikiildənbir keçirilməsi ilə əlaqədar fərman imzaladı.

Azərbaycan Prezidenti İlham Əliyev çıxışlarının birində həmişə bu sahəyə xüsusi diqqət olduğunu vurğulayaraq demişdir: "Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu qlobal miqyasda və əlbəttə, bizim ölkəmiz üçün mühüm beynəlxalq tədbirlərdən biridir. Son illər ərzində Azərbaycan çoxsaylı beynəlxalq təbirlərə evsahibliyi edib. Dünya Dini Liderlərinin Forumunu, ənənəvi Bakı Humanitar Forumunu, yeddi dəfə Bakı Qlobal Forumunu təşkil etmişik. Nizami Gəncəvi Beynəlxalq Mərkəzi tərəfindən təşkil edilən həmin forum da siyasi inkişaf və mədəniyyət dialoqu mövzularının müzakirəsi üçün çox vacib platformadır. Digər tədbirlər də təşkil edilir və bununla da biz dünya ictimaiyyətinin diqqətini bu mühüm məsələlərə yönəltməyə çalışırıq".

Dünyada etimadsızlıq mühitinin formalaşdığı zamanda Azərbaycan tolerantlıq nümunəsi göstərir, multikulturalizmi həyat normasına çevirir. Müxtəlif din və mədəniyyətlərin daşıyıcıları ölkəmizdə qarşılıqlı anlaşma əsasında, bir-birinə hörmət şəraitində yaşayırlar. Bu, müxtəlif mədəniyyətlərin qovuşmasının deyil, həm də toqquşmasının arzusunda olanlar üçün ciddi nümunədir. Azərbaycan Prezidenti İlham Əliyevin IV Bakı Beynəlxalq Humanitar Forumunda dediyi kimi, multikulturalizmin müasir dünyada alternativi yoxdur: "...Çünki dünya ölkələrinin mütləq əksəriyyəti çoxmillətli ölkələrdir. Əgər multikulturalizm iflasa uğrayıbsa, onda bunun alternativi nə ola bilər? Bu da çox aydındır. Bu, ayrı-seçkilikdir, irqçilikdir, ksenofobiyadır, islamofobiyadır, antisemitizmdir".

2015-ci il mayın 18-19-da "Bakı prosesi" çərçivəsində Azərbaycanın paytaxtı yenidən Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumuna evsahibliyi etdi. Forumda bir daha təsdiq olundu ki, "Bakı prosesi" Azərbaycan Prezidenti İlham Əliyevin dünya xalqları və mədəniyyətləri arasında qarşılıqlı hörmət və anlayışı, əməkdaşlıq və dialoqu təşviq edən platforma, eləcə də layihələri birləşdirən qlobal və xoşməramlı çağırışıdır. Bu həm də dünyada milli, irqi, dini və mədəni ziddiyyətlərin daha da artdığı, ekstremist düşüncə tərzinin genişləndiyi bir dövrdə Azərbaycanın multikultural resurslarının, tarixən malik olduğumuz mehriban birgəyaşayış ənənələrinin beynəlxalq səviyyədə model kimi istifadə olunması deməkdir.

Bakıda keçirilən Ümumdünya Mədəniyyətlərarası Dialoq, BMT Sivilizasiyalar Alyansının Qlobal və Bakı Beynəlxalq Humanitar forumlarında 180-dən çox ölkədən və 40-dan artıq beynəlxalq təşkilatdan nümayəndələr təmsil olunub. Bu tədbirlərdə ümumilikdə 20 mindən çox xarici nümayəndə, dövlət və hökumət rəsmiləri, beynəlxalq qurumların rəhbərləri, diplomatlar, mədəniyyət, təhsil və elm xadimləri, qlobal biznes və media strukturlarının təmsilçiləri, gənclər iştirak ediblər.

Müstəqil dövlət kimi Azərbaycanın belə mühüm tədbirlərin keçirilməsi ilə multikulturalizmin inkişafına öz töhfəsini verdiyini diqqətə çatdıran Prezident İlham Əliyev demişdir: "2018-ci ildə "Bakı Prosesi"nin 10 illiyini qeyd etdik və bu da bizim fəxr etdiyimiz bir təşəbbüsdür. İlk dəfə məhz Azərbaycan Avropa Şurasına və İslam Əməkdaşlıq Təşkilatına üzv olan dövlətlərin mədəniyyət nazirlərini bir araya gətirdi. Yüzdən çox dövlətin nümayəndəsi Bakıda toplaşdı və əməkdaşlıq perspektivlərini müzakirə etdi. Biz eyni tərkibdə nazirlərin iştirakı ilə daha bir tədbiri 2009-cu ildə təşkil etdik. Bu təşəbbüs "Bakı Prosesi" adlandırıldı və bu gün həmin proses Avropa ilə müsəlman dünyası arasında dialoq üçün mühüm vasitədir".

Dünyada dini və milli zəmində ekstremizm, ksenofobiya, islamafobiya, antisemitizm, radikalizm təzahürlərinin artdığı göz qabağındadır. Eləcə də miqrant böhranının yaşandığı müasir dövrdə Azərbaycanın dövlət başçısı qlobal miqyasda ümumbəşəri ideyaların ətrafında birləşməyə yönələn çağırışları ilə həmrəylik, humanizm ideallarının bərqərar olmasına öz töhfəsini verir. Bu gün Azərbaycanda dinlərarası, mədəniyyətlərarası münasibətlərin nə qədər düzgün tənzimlənməsi dünya üçün nümunədir. Nüfuzlu beynəlxalq qurumların öz tədbirlərini respublikamızda keçirməsi ölkəmizin Avropa mədəniyyəti ilə islam mədəniyyəti arasında körpü rolunu oynadığını bir daha təsdiqləyir.

Mədəniyyətlərarası və sivilizasiyalararası məkana çevrilən Azərbaycan bundan sonra da Prezident İlham Əliyevin rəhbərliyi altında dünyada sülhün, əmin-amanlığın qorunmasına, xalqlararası dialoqların daha da inkişaf etdirilməsinə yeni töhfələr verəcək.

*Vahid MƏHƏRRƏMOV,*
*"Azərbaycan"*

● Sənət dünyası

# Çəkilməmiş film haqqında söhbət

**Azərbaycan kinosunun bu günündən söz düşəndə kinosevərlər, sənət adamları, kinoaktyorlar ilk növbədə onun adını çəkirlər. Onu "uğurlu rejissor" hesab edirlər. O, kino sənətinə qısametrajlı filmlərin rejissorluğu ilə başlasa da, bu gün Azərbaycanda ən çox izləyicisi olan serialların müəllifi kimi tanınır. Söhbət kinorejissor Rövşən İsaxdan gedir.**

Rövşənlə redaksiyamızda söhbət edirik. Sənətə gəlişindən danışır: "Uşaqlıqdan aktyorluğa, kinoya böyük marağım var idi. Beşinci sinifdə oxuyandan Gəncədə dram dərnəyinə yazılmışdım. Görkəmli aktyorumuz Həsənağa Turabov kumirim idi. Ona olan sevgim məni kinoya gətirib desəm, səhv etmərəm... 1985-ci ildə 15 yaşım var idi. Qonşumuzdakı oğlan gəlib mənə dedi ki, şəhərə kino çəkənlər gəlib, Həsənağa Turabovu da orada gördüm. Onunla birlikdə aktyorların olduğu yerə qaçdım. Həsənağa Turabov parkda oturub qəzet oxuyurdu. Özümdən asılı olmayaraq, kənarda dayanıb maraqla ona tamaşa etməyə başladım. Beləcə, mənim Həsənağa müəllimi kənardan seyr etməyim nə az, nə çox - "Şəhər birinciləri" filminin çəkilişi başa çatana kimi çəkdi. Elə bilirdim ki, o, məni görmür. Sən demə, o da hər gün mənə göz qoyurmuş. Bir gün çəkilişlər başa çatanda Həsənağa müəllimin mənə tərəf gəldiyini gördüm. Yaxınlaşıb salam verdi. Kimliyimlə maraqlandı. Aktyor olmaq istəyimi biləndə başıma sığal çəkib xeyir-dua verdi. "Bir gün sən də böyük sənətkar olacaqsan, heyranların səni belə maraqla izləyəcəklər", - dedi. Tale elə gətirdi ki, sonralar Həsənağa Turabovu daha yaxından tanıdım. Sənətini sevdiyim bu aktyorun həyatda da ideal bir insan olduğunu hiss etdim".

Rövşən İsax 14 avqust 1970-ci ildə Gəncədə anadan olub. M.Əliyev adına Azərbaycan Dövlət İncəsənət İnstitutunun Dram teatrı və kino aktyoru fakültəsində təhsil alıb. Peşəkar aktyor kimi fəaliyyətə 1993-cü ildə Dövlət Gənc Tamaşaçılar Teatrında başlayıb. 1994-1995-ci illərdə Dövlət Pantomim Teatrında aktyorluq edib. Maraqlıdır ki, Rövşən İsax universitetdə olanda istedadı ilə müəllimlərinin, universitet rəhbərliyinin diqqətini çəkib. O, təhsilini başa vurduqda oxuduğu ali məktəbdən iş təklifi alır.

Rövşən İsax deyir ki, insanın xarakterinin formalaşmasında aldığı tərbiyədən, təhsildən başqa, ətraf mühitin də rolu var: "İncəsənət sahəsini seçən adamların fərqli insan olduqlarını bilməyən adam yoxdur. Bu sahənin adamlarını birləşdirən oxşar xüsusiyyəti olur - tanınmaq, məşhurlaşmaq, şöhrətlənmək. Universitetdə çalışarkən Azərbaycan Dövlət Televiziyasından iş təklifi aldım. Televiziya canlı orqanizmdir. Hərəkətdə olmasan, axtarmasan, çalışmasan, dənizin dalğaları dənizə düşmüş taxta parçasını sahilə atıb, qumun altında gizlədən kimi, sən də itib-batacaqsan. Ümumiyyətlə, həyat budur. Fərqlənmək üçün çox işləmək, çalışmaq lazımdır".

1998-ci ildə Azərbaycan Dövlət Televiziyasında rejissor kimi fəaliyyətə başlayan Rövşən İsax bir müddət ANS və "Space" TV-lərdə rejis-



sorluq edib. Azərbaycan telekanallarındakı rejissorluq fəaliyyətini Türkiyənin "Samanyolu" TV-nin filialında (STV Azərbaycan) icraçı direktoru vəzifəsi ilə əvəzləyən Rövşən İsax "Pozitiv Media"nı yaradır və 1996-cı ildə "Kiçik leytenant" qısametrajlı bədii film ilə özünü rejissor kimi tamaşaçılara təqdim edir. 2001-ci ildə "Azərbaycan Xalq Cümhuriyyəti" qısametrajlı sənədli, 2003-cü ildə "40-cı qapının qıfılı", 2011-ci ildə "Aktrisa" tammetrajlı bədii filmlərinin, 2012-ci ildə "Pərvanələrin rəqsi" serialının, 2013-cü ildə "Sonuncu fəsil" teleserialının quruluşçu rejissoru və ssenari müəllifi olub.

Bu məqamda Xalq artisti Rasim Balayevlə Azərbaycan kinosu haqqında etdiyimiz söhbətdən bir məqamı xatırlatmaq yerinə düşər. Görkəmli aktyor bugünkü həmsöhbətimizin adını çəkərək "Rövşən İsaxın çəkdiyi filmlər olmasaydı, bu gün sizinlə kinomuzun bu günü haqqında yox, kino tariximizdən danışardıq. Rövşən İsax Azərbaycan kinosunu yaşadan, ona yenidən həyat verən rejissordur", - dedi. Tanınmış kinorejissor, Xalq artisti Ramiz Həsənoğlu isə Rovşən İsaxın quruluş verdiyi filmləri Azərbaycan kinosunda "əsl hadisə" adlandırdı. "Hesab etmək olar ki, Rövşən İsaxın çəkdiyi filmlər kino sahəsində boşluğu doldurdu. Onun fəaliyyəti Azərbaycan kinosu haqqında nikbin danışmağa imkan verir", - dedi.

Azərbaycan Mədəniyyət Universitetinin professoru, aktyor Azad Şükurov isə onun haqqında bunları söylədi: "Çəkinmədən demək lazımdır ki, Rövşən İsax müxtəlif filmlərə ekran həyatı versə də, Azərbaycan kino tarixinə serial çəkən novator rejissor kimi adını əbədi olaraq yazmışdır. Onun quruluş verdiyi "Vicdan haqqı" teleserialını Azərbaycan kino həyatında əsl hadisə hesab etmək olar".

"Vicdan haqqı" teleserialında rejissor tamaşaçıların qarşısına indiyə kimi elə də çox tanınmayan aktyor ansamblı ilə çıxmağa üstünlük verib. Filmdə əsas obrazları canlandıran aktyorların əksəriyyəti əyalət teatrlarında çalışanlar idi. Rövşən İsaxın özünün aktyor seçiminə münasibəti maraqlıdır: "Aktyorun əsas vəzifəsi obraz yaratmaqdır. Ona verilən rola can verməkdir. Açığını deyim ki, indi teatrlara maraq azalıb. Aktyorlar alternativ iş axtarışına çıxırlar. Aparıcı kimi toylara, məclislərə gedirlər. Bakıda çalışan aktyorların bəziləri onlara rol verəndə iş qrafiklərini özləri müəyyən edirlər. Belə deyək ki, çörəklərinin dalınca qaçırlar. Əyalət teatrlarında olduqca istedadlı aktyorlarımız var. Filmlərimizdə rol alan aktyorlar yaratdıqları obrazlarla bunu təsdiq edirlər".

Hazırda rejissorun quruluş verdiyi "Yuxu kimi" teleserialı ən çox baxılan filmdir. Rövşən İsax deyir ki, mən çəkilmiş, yaxud hazırda çəkilişi davam edən film haqqında danışmaq istəmirəm, daha çox çəkilməmiş film haqqında danışmağa üstünlük verirəm: "Bu gün Azərbaycan tamaşaçısı bizdən həmin o çəkilməmiş filmi gözləyir. Azərbaycan əsgərinin qəhrəmanlığından, Zəfər müharibəsindən bəhs edən film haqqında danışmaq istəyirəm. Xocavənddən başqa, işğaldan azad olunmuş bütün rayonlarımızda olmuşam. Azərbaycan əsgərinin keçdiyi qəhrəmanlıq yolunu gözümlə görüb bizə bu qüruru yaşadan əsgərlərə, zabitlərə, bu ordunu quran və onu qələbəyə aparan Ali Baş Komandana min dəfə alqış demişəm. yalnız o yerləyi gözü ilə görənlər ordumuzun hansı qəhrəmanlıqlar etdiyini düzgün təsəvvür edə bilər. Hesab edirəm ki, biz yaradıcı insanlar onlara borclu qalmamalıyıq. Bu işi gələcək nəsillərin üzərinə qoymaq olmaz. Bunu biz etməliyik. Özü də bu işi ad-san, pul, şöhrət xatirinə yox, Vətən, dövlət naminə etməliyik. Azərbaycan əsgəri, qəhrəmanlarımız, Prezidentimiz torpaqlarımızı qaytarmaqla bizim mükafatımızı artıqlaması ilə verib".

Rövşən İsax üç övlad atasıdır. Qızı Elvira Roma Sapienza Universitetinin Moda və geyim elmləri fakültəsində təhsil alır. Söhbət zamanı Rövşən İsax dedi ki, qızım İtaliyada keçirilən bir kinofestivala dəvət edilibmiş: "Festival keçirilən yerin dəhlizində dünya kino incisi siyahısına düşən 360 filmin posterləri vurulub, monitorlarda həmin filmlərdən epizodlar verirlərmiş. Qızım deyir ki, Azərbaycan filmlərindən "Şərikli çörək" filminə aid posterlər də 360 filmin arasında yer almışdı.

Söhbətin bu yerində rejissordan "Əgər sizdən müstəqillik dövründə çəkilən bir filmin beynəlxalq kino mükafatına təqdim olunmaq üçün adını soruşsalar, hansı filmi deyərdiniz" soruşduqda dedi: "Əlimdə imkan olsa, ən böyük mükafatı "Fəryad" filminə verərdim. "Fəryad" işğal dövrü Azərbaycan əsgərini qisasa səsləyən vətənpərvərlik çağırışı idi. Erməni vəhşiliyinin sənət dili ilə təcəssümü idi", - dedi. Ayrılanda öz fikrini belə tamamladı: "Kinomuzun gələcəyinə çox nikbin baxıram. Azərbaycan əsgəri Qarabağda çəkilməmiş filmimizin ssenarisini yazıb. İnanıram ki, biz sənət adamları bu böyük qəhrəmanlığı tezliklə sənət dili ilə inikas etdirə biləcəyik".

*Elşən QƏNİYEV,*
*"Azərbaycan"*

● Bölgə mətbuatı

# 100 yaşlı "Zaqatala"

**Bir əsrlik tarixə malik "Zaqatala" zaman-zaman nəinki adını daşıdığı rayonun, bütöv bölgənin, respublikanın, hətta dünyanın ictimai-siyasi, iqtisadi, mədəni, sosial həyatına dair maraqlı yazıların, müxtəlif problemlərin qaldırıldığı qəzetdir. Bu mətbuat orqanın tərəqqisində redaksiyada çalışan jurnalistlər - Əli Süleymanov, Sevil Sadıqova, Zenfira Nəsibova, İbrahim İbrahimli, Elmira Mehdiyeva, Məhəmməd Şabanoğlu, Abdulla Əfəndi, Allahyar Atayev, Xalis Xudiyev, Ramazan İmamoğlu, Əli Dibrayevin və başqalarının böyük əməyi, xidmətləri var.**




Bugünkü "Zaqatala" qəzeti 1923-cü ildən çıxır. Ovaxtkı adı da o dövrə uyğun olub - "Zaqatala kəndçisi". Rəsmi məlumata görə, həmin vaxt Azərbaycanda ana dilində çıxan 23 qəzetdən biri idi. Yayım coğrafiyası isə üç rayonu - Zaqatala, Balakən və Qaxı əhatə edirdi. Bu minvalla düz 8 il regionun ilk və yeganə mətbuatı kimi fəaliyyət göstərdi.

Ötən əsrin iyirminci illərində bölgələrdə qəzet nəşr etmək çox çətin iş sayılırdı. Əvvəla, ixtisaslı kadrlar yox idi, ikinci, 2 səhifədən ibarət və əski əlifba ilə basılan nəşri hərf-hərf yığmaq, əllə çap etmək lazım gəlirdi. İlk redaktoru Zəkəriyyə Balaxlinski olsa da, qəzetin ərsəyə gəlməsində 1920-1930-cu illərdə Zaqatala qəza və inqilab komitələrində birinci şəxs sayılan Xəlil Ağamirovun (O, əvvəllər "Kaspi"də mürəttib işlədiyindən qəzet işini yaxşı bilirdi) xidmətləri danılmazdır. Qəzet 1923-1962-ci illərdə "Kolxozun səsi", "Kolxoza doğru", "Bolşevik kolxozu uğrunda", 1962-1991-ci illərdə "Qırmızı bayraq", son 32 ildə isə indiki adı ilə oxucuların görüşünə gəlir.

1970-1980-ci illərdə Ulu Öndər Heydər Əliyevin jurnalist kadrların hazırlanmasına böyük diqqəti sayəsində bu sahədə də gənc, istedadlı və perspektivli mütəxəssislərlə zənginləşdi. Respublika rəhbərliyi tərəfindən qəzetin fəaliyyətinə daim yüksək qiymət verildi, əməkdaşlar fəxri adlara və mükafatlara layiq görüldülər. Amma sonrakı illərdə qəzetin fəaliyyətini davam etdirmək, mətbu sözün təsirini saxlamaq heç də həmişə asan olmadı. Elə vaxtlar oldu ki, maliyyə sıxıntısı üzündən nəşrin dayanması təhlükəsi yarandı. Lakin jurnalist peşəsinə sadiq qalanlar sonadək mübarizə aparmaqla qəzeti yaşatmağı bacardılar.

"Zaqatala" ömür yolundakı ən ağır dönəmlərdən birini doxsanıncı illərin əvvəllərində yaşadı. Məhz həmin vaxt onu enişli-yoxuşlu yollarla bu günümüzə çatdıran qəzetin redaktoru, təcrübəli jurnalist, Əməkdar mədəniyyət işçisi İbrahim Bəxtiyaroğlu ilə söhbətləşirik: "Bugünkü "Zaqatala" qəzeti bir zamanlar bolşevik və kommunist ideologiyasının təbliği məqsədilə söz meydanına gəldi, ömrünün xeyli hissəsini bu işə həsr etdi. Amma heç vaxt ona etimad, etibar edənlərin inamını qırmadı, daim onlarla birgə oldu. Saralmış köhnə qəzet səhifələrini vərəqlədikcə ötən illər bir kino lenti kimi gözümüzün önündən keçir. Minlərlə zaqatalalının, habelə qonşu Balakən və Qax rayonlarının sadə insanlarının şəkilləri, barələrində söz açılan yazılar əbədi ünvan kimi qalmaqdadır. 2011-ci ildə qəzetimizin 8000-ci yubiley sayı, 2013-də 90 illiyi təntənə ilə qeyd olundu. Azad mediaya şərait yaratdığına, əsl söz adamları önündə geniş imkanlar açdığına görə Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevə minnətdarıq".

Qəzetin redaktor müavini, Əməkdar mədəniyyət işçisi Elmira Mehdiyeva da söhbətə qoşulur: "44 günlük Vətən müharibəsi zamanı bütün nömrələrimizi insanlarda qələbə əzmi, zəfər əhvali-ruhiyyəsi təşviq edən yazılara həsr etdik. Şəhidlərə, qazilərə həsr olunan "Qarabağın fatehləri", "Tarix yazan oğullar" kitablarımız nəşr olundu. "Heydər Əliyev İli"ndə Ümummilli Liderimizin ibrətamiz ömür yolundan bəhs edən məqalələrə geniş yer verdik. Qarşıdan ilk dəfə ölkəmizin bütün ərazilərində keçiriləcək Zəfər seçkiləri gəlir. İnanırıq ki, bu məsul dövrdə də dövlətimizin başçısının biz qələm adamları qarşısında qoyduğu vəzifələri layiqincə yerinə yetirə biləcəyik".

*Qurban MƏMMƏDOV*

● Xəbər

# Festivalın qalibləri diplomlarla mükafatlandırıldı

**Bakı Gənclər Mərkəzində "Qəlblərin harmoniyası-2" adlı uşaq və gənclərin rəqs festivalı keçirilib. Festivalda ölkəmizin paytaxtında fəaliyyət göstərən uşaq və gənclərin rəqs kollektivləri iştirak ediblər.**

20-dən çox rəqs qrupunun iştirak etdiyi festivalda rəqs qrupunun üzvləri ardıcıllıqla səhnəyə çıxaraq bacarıqlarını nümayiş etdirdilər. Badamdar Mədəniyyət evinin beş nəfərdən ibarət rəqs qrupu da "Qəlblərin harmoniyası-2" uşaq və gənclər rəqs festivalına qatılmışdı. Yarış başa çatandan sonra münsiflər heyəti qalibləri elan etdi. Məlum oldu ki, Badamdar Mədəniyyət evinin rəqs qrupu nümunəvi çıxışı ilə I yerə çıxıb. Festivalda iştirak edən qaliblərə diplomlar təqdim olundu.

Festival başa çatandan sonra Badamdar Mədəniyyət evinin rəqs qrupunun baletmestri Vaqif Məmmədovla söhbət etdik. Sevincini bizimlə bölüşən Vaqif müəllim dedi: "50 ildən çoxdur uşaqlara, gənclərə milli rəqslərimizi öyrədirəm. Bu günə qədər yetirmələrim festivallarda çox iştirak ediblər. Həmişə də uğur qazanmışıq. Qrup üzvlərinin hazırlığı yüksək olduğuna görə layiqli yer tutacağımıza əmin idik. Ümidlərimiz özünü doğrultdu. Rəqqasə qızlar Arzu Məhərrəmli, Duyğu Abbasova, Mələk




Məmmədova, Mehri Kərimli və Ayla Mürsəlzadə festivalda "Tərəkəmə" rəqsini oynadılar. Münsiflər heyəti də onların peşəkarlığını layiqincə qiymətləndirdi".

*V.MƏMMƏDQULUOĞLU,*
*"Azərbaycan"*




# Beynəlxalq yarışlarda uğur qazanan Azərbaycan güləşçiləri ilə görüş keçirilib

**Azərbaycan Güləş Federasiyasının (AGF) prezidenti Mikayıl Cabbarov, Dövlət Sərhəd Xidmətinin rəisi general-polkovnik Elçin Quliyev və gənclər və idman nazirinin müavini Mariana Vasileva 2023-cü ildə keçirilmiş dünya və Avropa çempionatında, hərbçilərin 36-cı dünya çempionatında yüksək nəticələr əldə etmiş idmançılarla görüşüblər.**




AGF-dən AZƏRTAC-a verilən məlumata görə, tədbirdə vurğulanıb ki, Prezident İlham Əliyevin idmanın inkişafına verdiyi önəm, müxtəlif idman növlərinin tərəqqisi və yerli idmançıların yetişdirilməsi Azərbaycanın şöhrətini artırır.

Bu sahədə qədim ənənələrə, formalaşmış məktəbə malik güləşin xüsusi yer tutduğu bildirilib. Qeyd olunub ki, Gənclər və İdman Nazirliyinin, Milli Olimpiya Komitəsinin dəstəyi ilə Azərbaycan Güləş Federasiyasının fəaliyyəti bu idman növünün inkişafını daha da stimullaşdırır, kütləviliyini artırır.

Qeyd edilib ki, 2023-cü il Azərbaycanın suverenliyinin və ərazi bütövlüyünün tam şəkildə bərpası ilə yadda qalıb: "İşğaldan azad edilmiş bütün ərazilərdə Ali Baş Komandan tərəfindən bayrağımızın ucaldıldığı məhz bu ildə güləşçilərimizin dünya və Avropa çempionatlarında qazandığı uğurlar, beynəlxalq arenalarda əldə olunan qələbələr xalqımız və Azərbaycanın idman ictimaiyyəti üçün ikiqat əlamətdardır".

AGF 2023-cü ildə dünya və Avropa çempionatlarında ən çox medal qazanan idman federasiyası olub. Bu il yunan-Roma güləşi üzrə yığma tarixdə ilk dəfə dünya çempionu olub. Sərbəst, yunan-Roma və qadın güləşçilər böyüklər arasında dünya çempionatında 2, Avropa çempionatında isə 5 qızıl medal qazanıblar.

2024-cü il Olimpiada ili olduğu üçün böyük önəm kəsb edir. Olimpiya oyunlarına mümkün qədər çox lisenziyanın qazanılması, 4-7 apreldə Avropa Olimpiya Təsnifat turnirinin və 20-26 mayda isə U-23 Avropa çempionatının Bakıda yüksək səviyyədə təşkil edilməsi və avqustda Fransada keçiriləcək Paris Olimpiadasında qələbələr qazanmaq qarşıda duran əsas hədəflərdir. Azərbaycan Güləş Federasiyası tərəfindən bütün zəruri tədbirlərin görüləcəyi bildirilib və qarşıdan gələn ildə güləşçilərə və məşqçilərə uğurlar arzulanıb.

Tədbirdə AGF-nin baş katibi Nəsimi Musayev, AGF İcraiyyə Komitəsinin üzvləri Namiq Abdullayev, Fərid Mansurov, yunan-Roma güləşi üzrə milli komandanın baş məşqçisi Aleksandr Tarakanov və sərbəst güləş üzrə milli komandanın baş məşqçisi Xetaq Qazyumov qazanılan uğurlardan danışıblar. 2023-cü ildə Avropa çempionatlarında 22-si qızıl, 20-si gümüş, 30-u bürünc olmaqla 72 medal, dünya çempionatlarında isə 5-i qızıl, 11-i gümüş və 13-ü bürünc olmaqla 29 medal qazanılıb. Ümumilikdə Avropa və dünya çempionatlarında güləşçilər 101 dəfə (27 qızıl, 31 gümüş, 43 bürünc) fəxri kürsüyə qalxıblar.

Dövlət Sərhəd Xidmətinin təşkilatçılığı ilə bu ilin 29 noyabr - 2 dekabr tarixlərində Bakıda keçirilmiş hərbçilərin 36-cı dünya çempionatında 11 qızıl, 3 gümüş və 7 bürünc medal əldə edilib. Sərbəst güləş üzrə yığma komanda hesabında 1-ci, yunan-Roma və qadın güləşi üzrə kollektivlər isə 2-ci yeri tutublar.

Ümumilikdə 2023-cü ildə güləşçilər beynəlxalq yarışlarda 267 medal (76 qızıl, 75 gümüş, 116 bürünc) qazanıblar.

Tədbir çərçivəsində hərbçilərin 36-cı dünya çempionatında iştirak etmiş güləşçilər, məşqçilər, hakimlər və digər şəxslər təltif edilib.

# Azərbaycanın idman tarixində rekord göstərici: *il ərzində 1472 medal*



**Azərbaycan idmançılarının 2023-cü ildə beynəlxalq yarışlarda qazandığı medalların sayı açıqlanıb.**

Gənclər və İdman Nazirliyindən AZƏRTAC-a verilən məlumata görə, ümumilikdə il ərzində 1472 medal əldə olunub. Bu, Azərbaycanın idman tarixində rekord göstəricidir.

Medallardan 799-u (214 qızıl, 208 gümüş, 377 bürünc) Olimpiya, 587-si (223 qızıl, 159 gümüş, 205 bürünc) qeyri-Olimpiya, 86-sı (27 qızıl, 31 gümüş, 28 bürünc) paralimpiya proqramının payına düşür.

# Azərbaycan bu il 91 beynəlxalq yarışa evsahibliyi edib

**Azərbaycanda 2023-cü ildə təşkil olunan beynəlxalq idman tədbirlərinin sayı açıqlanıb.**

Gənclər və İdman Nazirliyindən AZƏRTAC-a verilən məlumata görə, bu il 318 ölkəmiqyaslı, 91 beynəlxalqmiqyaslı yarış keçirilib. 630 beynəlxalq turnirdə milli komandaların iştirakı təmin olunub.

Azərbaycan il ərzində 3 dünya çempionatına evsahibliyi edib. Bakıda taekvondo, atıcılıq və hərbçilər arasında güləş üzrə dünya çempionatları təşkil edilib. Həmçinin kişi və qadın idman gimnastikası, eləcə də bədii gimnastika üzrə Dünya Kuboku, "Formula 1" üzrə Azərbaycan Qran-Prisi, bədii gimnastika üzrə 39-cu Avropa çempionatı, şahmat üzrə Dünya Kuboku, MMA üzrə "Landmark 7" beynəlxalq "Rizin" turniri kimi yarışlar ölkəmizdə təşkil olunub.

Bədən Tərbiyəsi və İdman üzrə Nazirlərin və Yüksəkvəzifəli Şəxslərin VII Beynəlxalq Konfransı, Beynəlxalq Avtomobil Federasiyası - FIA Baş Assambleyası və Mükafatlandırma mərasimi (FIA Prize-Giving Ceremony), Avropa Badminton Konfederasiyasının Konqresi, Avropa Atıcılıq Konfederasiyasının 29-cu Baş Assambleyası və digər mühüm tədbirlər də Bakıda keçirilib.

Həmçinin idman növləri üzrə milli komandalar 12 gündən az olmayaraq, 399 təlim-məşq toplanışında iştirak ediblər.

# Talış kəndində "İdman gündəliyi" layihəsi icra olunub

**Ağdərə rayonunun işğaldan azad olunmuş Talış kəndində "İdman gündəliyi" layihəsi icra edilib.**



AZƏRTAC xəbər verir ki, "Heydər Əliyev İli" çərçivəsində "Qayıdış Könüllüləri" Proqramının "Ağdam Könüllüləri" qrupu tərəfindən Qarabağ iqtisadi rayonuna daxil olan işğaldan azad olunmuş ərazilərdə (Şuşa rayonu istisna olmaqla) Azərbaycan Respublikası Prezidentinin Xüsusi Nümayəndəliyinin dəstəyi ilə baş tutan tədbirin məqsədi uşaq, yeniyetmə və gənclərin asudə vaxtlarının səmərəli təşkil edilməsidir.

Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il bayramları ərəfəsində baş tutan tədbir hamının böyük sevincinə səbəb olub. Doğma yurdda uzun illər sonra ilk dəfə əlamətdar bayramları qeyd edən kənd sakinləri Qarabağ İqtisadi Rayonunda Bərpa, Tikinti və İdarəetmə Xidmətinin təşkilatçılığı ilə keçirilən tədbiri böyük coşqu və minnətdarlıq hissləri ilə qarşılayıblar.

Proqrama uyğun olaraq futbol, basketbol, voleybol, stolüstü oyunlar və sair idman növləri üzrə yarışlar keçirilib. Tədbirin sonunda iştirakçılara həvəsləndirici mükafatlar və hədiyyələr təqdim edilib.


# OXUCULARIN NƏZƏRİNƏ!

**"AZƏRBAYCAN"** *qəzetinə*

*2024-cü il üçün abunə yazılışına başlanılır!*

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır. Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| *"Azərpoçt" MMC* | (012) 598-49-55, (051) 225-02-13 |
| *"Azərmətbuatyayımı" ASC* | (012) 441-19-91, (050) 322-33-17 |
| *"Qaya" firması* | (012) 566-77-80, (050) 214-40-53 |
| *"Region Press" MMC* | (055) 316-79-01, (050) 316-79-01 |
| *"Səma-M" MMC* | (012) 594-09-59 |
| *"Ziya" LTD* | (012) 497-76-96, (050) 306-77-22 |
| *"Pressinform" MMC* | (012) 598-49-52, (070) 340-01-00 |
| *"City press" MMC* | (055) 819-09-26 |

**1 illik -187,20** (yüz səksən yeddi manat iyirmi qəpik) **manat**
**6 aylıq - 93,60** (doxsan üç manat altmış qəpik) **manat**
**3 aylıq - 46,80** (qırx altı manat səksən qəpik) **manat**




## Hörmətli oxucular!

*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya **(Tel.: (012) 539-59-33)** zəng vura bilərsiniz.*



# B İ L D İ R İ Ş

"Azərenerji" ASC tərəfindən 06.02.2023-cü il tarixdə elan edilmiş **330/110/10 kV-luq "Ələt AİZ" YS-nın tikintisi, "Qobu" ES-də 330 kV-luq APQ-də və "Cənub" ES-də 330 kV-luq QPQ-də genişlənmə tədbirlərinin icrası, yeni xətt üçün əlavə 330 kV-luq yuvaların quraşdırılması işlərinin satın alınması** üzrə açıq tender üsulu ilə keçirilən müsabiqədə iddiaçılardan daxil olmuş təkliflərin qiymətləndirilməsi həyata keçirilmiş və Tender komissiyasının qərarı ilə formal tələblərə cavab verən, ən aşağı qiymət təklif edən **"Electro İndustries" QSC** müsabiqənin qalibi müəyyən edilmişdir.

Qalib gəlmiş təşkilatla müvafiq satınalma müqaviləsi imzalanmışdır.

***Tender komissiyası***



# B İ L D İ R İ Ş

Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən Azərbaycan Respublikasının ərazi bütövlüyünün, müstəqilliyinin və konstitusiya quruluşunun müdafiəsi ilə əlaqədar əlil olmuş şəxslərə və şəhid ailələrinə Şirvan şəhərində və Göygöl, Qusar, Oğuz, Balakən, Saatlı, Ağsu, Neftçala, Ağstafa və Salyan rayonlarında 1, 2 və 3 otaqlı mənzillərin satın alınması üzrə keçirilən açıq tenderdə Ağsu rayonu üzrə qiymət təklifi verən fiziki şəxs Natiq Hüseyn oğlu Əlisoy və Göygöl rayonu üzrə qiymət təklifi verən Avanqard İnşaat Mənzil Tikinti Kooperativi qalib olmuşdur.

Qaliblərlə müvafiq satınalma müqavilələri bağlanmışdır.

***Tender komissiyası***


# Daha 5 mikro sahibkara "Startap" şəhadətnaməsi verilib

**Kiçik və Orta Biznesin İnkişafı Agentliyi (KOBİA) tərəfindən daha 5 KOB subyektinə "Startap" şəhadətnaməsi verilib. Bununla da "Startap" şəhadətnaməsi almış KOB subyektlərinin sayı 123-ə çatıb.**



AZƏRTAC xəbər verir ki, "Startap" şəhadətnamələri "Qarabug" MMC-nin rəqəmsal infrastrukturun təhlükəsizlik testləri xidməti, "UNİNTURKEY" MMC-nin universitetlərə qəbul üçün onlayn vasitəçi xidməti, "Metprof" MMC-nin innovativ reduktorla təchiz edilmiş pambıq yükləyicilərinin istehsalı, "Alfa Hospitality" MMC-nin qidalanma prosesini optimallaşdıran platforma və mobil tətbiq, "Trendbazar" MMC-nin onlayn ticarət platforması (marketpleys) layihələri üçün təqdim edilib.

"Startap" şəhadətnaməsi KOB subyektlərini şəhadətnaməni aldıqları tarixdən etibarən innovasiya fəaliyyətindən əldə etdikləri gəlirlər üzrə mənfəət və gəlir vergisindən 3 il müddətinə azad edir.

Layihələri inkişaf mərhələsində olan mikro və kiçik sahibkarlıq subyektləri "Startap" şəhadətnaməsi üçün KOBİA-ya müraciət edə bilərlər. Müraciət üçün ərizə forması və lazım olan digər sənədlər, eləcə də müvafiq meyarlarla bağlı ətraflı məlumatla bu linkdən tanış olmaq olar.

## ALLAH RƏHMƏT ELƏSİN!

Bakı Ali Neft Məktəbinin rektoru Elmar Qasımov və professor-müəllim heyəti Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin rektor əvəzi Vazeh Əskərova atası

**ELDƏNİZ ƏSKƏROVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Azərbaycan Texniki Universitetinin rektorluğu və Həmkarlar İttifaqı Komitəsi Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin rektor əvəzi Vazeh Əskərova atası

**ELDƏNİZ ƏSKƏROVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.


BAŞ REDAKTOR
**Bəxtiyar SADIQOV**

**Əlaqə telefonları:**

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman və informasiya şöbəsi | - 539-63-82, 432-37-68 |
| Baş redaktor müavinləri | - 538-86-86, 434-63-30, 539-72-39 | Humanitar siyasət şöbəsi | - 538-56-60 |
| Məsul katib | - 539-43-23, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Məsul katib müavinləri | - 539-44-91, | Fotoillüstrasiya şöbəsi | - 538-84-73, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, | Kompüter mərkəzi | - 538-20-87, |
| İqtisadiyyat şöbəsi | - 538-42-32, 538-35-55, | Mühasibatlıq | - 539-59-33 |

*AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, "Azərbaycan" nəşriyyatı, IV mərtəbə*

contact@azerbaijan-news.az
az.reklam@mail.ru




www.azerbaijan-news.az

Qeydiyyat № 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-nin mətbəəsində çap edilmişdir

Qəzetə dərc üçün göndərilən materiallar Azərbaycan dövlətinin mövqeyinə uyğun olmalıdır

Gündəlik rəsmi dövlət qəzeti

Tiraj 5270
Sifariş 3421

Qiyməti 40 qəpik